Here are some of the ways in which FEZs can affect the economy: Increased Foreign Investment: FEZs can attract foreign investment by offering a range of incentives and benefits to investors, including tax breaks, streamlined bureaucratic procedures, access to specialized infrastructure, and other business-friendly policies. This can increase capital flows into the economy and promote economic growth. Job Creation: FEZs can create jobs by providing new employment opportunities for workers. This can help to reduce unemployment and poverty, and improve living standards for the population. Economic Diversification: FEZs can promote economic diversification by encouraging the development of new industries and sectors within the economy. This can reduce dependence on traditional industries and promote greater resilience and competitiveness. Export Promotion: FEZs can promote exports by providing a platform for local companies to access foreign markets. This can help to increase foreign exchange earnings and improve the balance of trade. Regional Development: FEZs can promote regional development by stimulating economic activity in underdeveloped or disadvantaged areas. This can help to reduce regional disparities and promote greater social and economic cohesion (World Bank, 1992).

*The reason behind the success of free economic zones in Dubai*. There are several factors that have contributed to the success of free economic zones (FEZs) in Dubai:

Strategic location: Dubai is strategically located between Europe and Asia, making it an ideal hub for international trade and commerce. Its proximity to major shipping lanes and air transportation routes has made it a popular destination for businesses seeking to establish a foothold in the Middle East and North Africa (MENA) region. Pro-business environment: The government of Dubai has created a pro-business environment that is supportive of foreign investment. This includes a favorable tax regime, streamlined regulations and procedures, and a range of incentives and benefits for companies operating within the FEZs. World-class infrastructure: Dubai has invested heavily in developing world-class infrastructure, including modern ports, airports, and transportation networks. Strong legal framework: Dubai has a strong legal framework that provides a stable and predictable business environment. The regulatory framework for FEZs is transparent and well-defined, making it easier for companies to navigate the legal and regulatory landscape. Diversification of the economy: Dubai has been successful in diversifying its economy away from reliance on oil and gas. The development of FEZs has been a key part of this strategy, as it has helped to attract a diverse range of businesses and industries to the region (Molavi, 2005).

The success of FEZs in Dubai can be attributed to a combination of these factors, as well as the forward-thinking approach of the government in creating a business-friendly environment that is attractive to both local and international businesses.

## Conclusion

Overall, the impact of FEZs on the economy of the state will depend on a range of factors, including the legal framework governing the zones, the quality of the infrastructure and services

provided, the skills and capabilities of the local workforce, and the nature of the industries and sectors that are established within the zones.

## References

1. The text of Agreement on Trade Facilitation; (2014). 28 november, 14-6946
2. Kusago, T., Tzannatos, Z. (1998). Export processing zones: a review in need of update (English). Social Protection Discussion Paper series; №. SP 39802. Washington
3. Rhee, Y., Katterbach, K., White, J. (1990). Free Trade Zones in Export Strategies. İndustry Series Paper No. 36. Industry Development Division, the World Bank
4. World Bank. (1992). World Development Report: Development and the Environment, New York: Oxford University Press, p.24
5. Molavi, A. (2005). "Dubai Rising" Brown Journal of World Affairs 12 (1): 103-10.

Received: 10.02.2023 Accepted: 22.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/19-23

**Ramil Məmmədzadə**
Azərbaycan Respublikası
Dövlət Gömrük Komitəsinin Akademiyası
magistrant
mamedzade_rom@mail.ru

# AVROPA İTTİFAQININ TİCARƏT QANUNVERİCİLİYİ VƏ AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK MƏCƏLLƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Xülasə**

Tədqiqat işinin mövzusu Azərbaycan Respublikası və Avropa İttifaqının əməkdaşlığına və gömrük qanunvericiliyinin təkmilləşdirilməsi məsələlərinə həsr olunmuşdur. Mövzu daxilində inteqrasiyanın zəruriliyinə, doğurduğu müsbət nəticələrə toxunulmuş, Avropa Qonşuluq Siyasəti və Şərq Tərəfdaşlığı layihəsi barədə məlumat verilmişdir.

Bu tədqiqat işində ilk növbədə Avropa İttifaqı və onun ticarət qanunvericiliyinin formalaşması tarixindən bəhs etmək yerinə düşərdi. Belə ki, yarandığı 1950-ci illərdən bu günə qədər davam edən ticarət və inkişaf siyasəti Fransanın Avropa İqtisadi Birliyinə müstəmləkələrin əldə edilməsi məqsədilə qoşulmasına olan tələbatından formalaşmışdır. Keçən dövr ərzində ticarət üstünlükləri bütün inkişaf etməkdə olan ölkələri əhatə edəcək şəkildə böyüdü. Bununla belə, bu status-kvonu inkişaf etməkdə olan ölkələrə yardıma olan erkən tələbatın təbii təkamülü kimi görmək düzgün olmazdı. Əksinə, Aİ-nin ticarət üstünlükləri sistemi keçmiş müstəmləkələrin iqtisadi maraqlarını qorumaq məqsədi daşımaqla onların tələbatları əsasında Avropa bazarlarına çıxışını yaxşılaşdırmaq üçün qarşılıqlı yardım göstərməkdən ibarət olmuşdur. İnkişaf nöqteyi-nəzərindən bu, anomaliyaların yaranmasına səbəb olmuşdur. Hətta bu gün daha əlverişli mənşə qaydaları ilə Sudan Avropa İttifaqı ilə Laosa nisbətən daha yaxşı şərtlərlə ticarət edir. Bununla belə, bu tədqiqatın diqqət mərkəzinə çatdırmağa çalışdığı əsas məsələ Avropa İttifaqı və Azərbaycan Respublikası qanunvericiliyi, xüsusən gömrük qanunvericiliyi arasında mövcud olan kompromislərin araşdırılmasıdır.

***Açar sözlər:*** *Avropa İttifaqı, gömrük, ticarət, Məcəllə, Azərbaycan Respublikası, Avropa Qonşuluq Siyasəti*

**Ramil Məmmədzadə**
Academy of the State Customs Committee of the
Republic of Azerbaijan
master student
mamedzade_rom@mail.ru

# Comparative analysis of the trade legislation of the european union and the customs code of the republic of Azerbaijan

**Abstract**

The topic of the research work is dedicated to the cooperation between the Republic of Azerbaijan and the European Union and the improvement of customs legislation. Within the topic, the necessity of integration, its positive results were touched upon, and information was given about the European Neighborhood Policy and the Eastern Partnership project.

In this article, first of all, it would be appropriate to talk about the history of the formation of the European Union and its trade legislation. Thus, the trade and development policy that has continued since its inception in the 1950s until today was formed by France's demand to join the European Economic Community for the purpose of acquiring colonies. Over the past period, trade preferences have grown to include all developing countries. However, it would be wrong to see this

status quo as a natural evolution of the early demand for aid in developing countries. On the contrary, the EU's system of trade preferences has been aimed at protecting the economic interests of former colonies and providing mutual assistance to improve their access to European markets based on their needs. From a developmental point of view, this has led to anomalies. Even today, with more favorable rules of origin, Sudan trades with the European Union on better terms than with Laos. However, the main issue that this study tries to focus on is the investigation of compromises between the legislation of the European Union and the Republic of Azerbaijan, especially the customs legislation.

***Keywords:*** *European Union, customs, trade, Code, The Republic of Azerbaijan, European Neighborhood Policy*

## Giriş

Avropa İttifaqı hüququnun beynəlxalq hüquqdan ilham alaraq ortaya çıxmasına baxmayaraq, o, beynəlxalq hüququ xarakterizə edən a) hər bir dövlət üçün məcburi olmaması, b) vətəndaşları deyil, yalnız dövlətləri subyekt qismində tanıması kimi bəzi elementləri qəbul etməmişdir. Milli hüquq sistemlərinin bu sahədəki roluna gəlsək, onu qeyd etmək lazımdır ki, Avropa İttifaqı hüququ özündə milli hüquq sistemləri üçün xarakterik olan element, prosedur və mexanizmləri birləşdirir. Onlar Avropa İttifaqının yurisdiksiyasına aid edilən məsələləri maksimum həll etmək üçün tətbiq olunur. Nəticə etibarilə Avropa İttifaqı hüququ digər hüquq sistemlərindən uzaq qalmır, hətta əksinə öz funksiyalarını beynəlxalq hüquq və milli hüquq sistemləri ilə qarşılıqlı əlaqə konteksində yerinə yetirərək fəaliyyət göstərir və bu zaman müvafiq prinsiplərin köməyi ilə həmin "qarşılıqlı əlaqə" tənzimlənir (Chalmers, Davies, 2010: 164).

Avropa İttifaqı və Azərbaycan Respublikası arasında mövcud olan münasibətlər ilk növbədə siyasi sferada formalaşmağa başlanmışdır. AR-nın müstəqilliyinin əldə olunmasından sonra Aİ ilə sıx iqtisadi münasibətlər də meydana gəlmişdir. Bu halda Azərbaycan Respublikasının bu təşkilatla iqtisadi əlaqələrinin formalaşma məqsədi və tarixindən də bəhs etmək yerinə düşərdi.

Regional böhran və münaqişələrin baş verdiyi dönəmdə Şərqlə Qərbi birləşdirən həssas coğrafi mövqedə yerləşən ölkəmizin davamlı və normal inkişafı, iqtisadi və sosial sahələr, habelə dövlət idarəçiliyi sferasında islahatların aparılması, daxili problemlərinin xüsusilə də Dağlıq Qarabağ məsələsinin həlli Azərbaycan üçün ən öndə məqsədlərdən olmuşdur. Dünya praktikasına nəzər saldıqda iqtisadi, siyasi və mədəni inteqrasiyanın təzahürü olan qloballaşma prosseslərinə qoşulmaq ölkənin ümumi inkişafı habelə inkişaf etmiş dövlətlər siyahısına qoşulması üçün mühüm amildir. XXI əsr üçün bu siyasi və iqtisadi gedişatı nəzərə alaraq Azərbaycan üçün inkişafın qərb modelinin seçilməsi, insan hüquq və azadlıqlarının təminat altına alan, iqtisadi inteqrasiyasına, sosial-ekoloji, hüquqi-humanitar təhlükəsizliyinə görə göstəricilərinin pik nöqtəsi olan Avropa İttifaqı ilə əməkdaşlığın qurulmasının daha məqsədəuyğun olmasını görürük. Eyni zamanda Avropa İttifaqının da genişlənmə siyasətinə uyğun olaraq 2004-cü ildə 10 Şərqi Avropa dövlətinin Birliyə qoşulması ilə şərq qonşuları ilə münasibətlərin inkişafında maraqlarının artmasının da şahidi oluruq (Eyvazova, Əliyev, 2018: 31-34).

Ümumiyyətlə, AR-nın Aİ ilə iqtisadi əlaqələrinin ilk formaları onun Sovet Sosialist Respublikalar İttifaqının tərkib hissəsi olduğu dövrlərə təsadüf edir.

Buna misal olaraq Aİ və SSRİ arasında Ticarət və Əməkdaşlıq haqqında ilk nəsil müqavilələri göstərə bilərik. Bu müqavilələr 18 dekabr 1989-cu ildə imzalanmış və 1 aprel 1990-cı ildə qüvvəyə minmişdir. Bu müqaviləyə əsasən malların ticarəti ilə əlaqədar daha əlverişli milli rejim müəyyənləşirdi və sovet mallarına münasibətdə bəzi Avropa ölkələrinin müəyyənləşdirdiyi kəmiyyət məhdudlaşdırılmasının götürülməsi vasitəsilə idxalın məhdudlaşdırılması nəzərdə tutulurdu (maddə 5-9). Müqavilə həmçinin təminat qismində qarşılıqlı tədbirlərin də mümkünlüyünü nəzərdə tuturdu (3).

Avropa İttifaqı ilə Azərbaycan Respublikasının əməkdaşlığının hüquqi əsası olan sənədləri xüsusi qeyd etmək lazımdır. Bunlardan 1996-cı il 22 aprel tarixində imzalanmış, 1 iyul 1999-cu il tarixində qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi; 14 noyabr 2006-cı ildə imzalanmış

Avropa İttifaqı-Azərbaycan Fəaliyyət Planı; 2006-cı il 7 noyabr tarixində imzalanmış Avropa İttifaqı və Azərbaycan arasında Enerji üzrə Strateji Əməkdaşlığa dair Anlaşma Memorandumu; 2008-ci il 16 iyun tarixində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Avropa Birlikləri Komissiyası arasında Çərçivə Sazişi; 2009-cu il 7 may tarixində imzalanmış Şərq Tərəfdaşlığı Bəyannaməsi; 2011-ci il 13 yanvar tarixində imzalanmış Cənub Qaz Dəhlizinin təsis edilməsinə dair "Birgə Bəyannamə"; 2011-ci il 13 yanvar tarixində imzalanmış Azərbaycan və Avropa İttifaqı arasında Cənub Qaz Dəhlizi üzrə İşçi Qrupunun yaradılmasına dair Niyyət Protoкolu; 2011-ci il 13 yanvar tarixində imzalanmış Avropa İttifaqının Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində Avropa Komissiyası və Azərbaycan Respublikası arasında 2011-2013-cü illər üzrə Milli İndikativ Proqrama (MİP) dair Anlaşma Memorandumu; 2011-ci il 13 yanvar tarixində imzalanmış Şərq Tərəfdaşlığı çərçivəsində Azərbaycan Respublikası və Avropa İttifaqı arasında Hərtərəfli İnstitusional Quruculuq (HİQ) Proqramının Çərçivə Sənədinə dair Anlaşma Memorandumu; 2013-cü il 29 noyabr tarixində imzalanmış «Azərbaycan Respublikası və Avropa İttifaqı arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında» Saziş; 2014-cü il 28 fevral tarixində imzalanmış «Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında Saziş»; 2014-cü il 14 iyun tarixində imzalanmış «Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında Azərbaycanın İttifaq proqramlarındakı iştirakının ümumi prinsipləri haqqında Çərçivə Sazişi üzrə, bir tərəfdən Avropa Birlikləri və onların üzv dövlətləri, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə əlavə Protoкol» (Protoкol 2016-cı il 14 iyun tarixində qüvvəyə minmişdir). Bu sənədlərdən də göründüyü kimi Avropa İttifaqı ilə Azərbaycan Respublikasının əməkdaşlığı çox şaxəlidir, lakin iqtisadi sferada əməkdaşlıq daha çox ön plana çıxır (4).

İttifaq bəzi üzv ölkələrdəki iqtisadi böhranlar kimi daxili problemlərdən başqa, həmçinin xarici siyasətdə də ciddi çağırışlarla üz-üzədir. ABŞ ilə strateji əhəmiyyətli bir çox mövzuda fərqli yanaşmalar, Çinin qlobal güc kimi yüкsəlməsi nəticəsində yaranan mürəkkəb geosiyasi vəziyyət, Rusiya ilə Ukrayna böhranından sonra korlanan və hələ də problemli qalan münasibətlər və eyni zamanda bütün bunlar haqqında üzv dövlətlər arasındakı fikir ayrılığı Aİ-nin xarici siyasətini sınağa çəkən çağırışlardan yalnız bəziləridir. Bu yazıda Aİ-nin xarici siyasətində meydana çıxmış əsas təhdid və çağırışlar, onlar haqqında aparıcı üzv dövlətlər arasında yaranmış fikir ayrılığının səbəbləri və həmçinin bunun yaşadığımız bölgə üçün mümkün nəticələri haqqında qısa təhlil aparılacaq. Təhlildəki əsas arqumentlər qısa şəкildə: 1. ABŞ ilə ziddiyyətlər artır, amma transatlantik əməkdaşlığa ehtiyac azalmır. 2. Çinin Avropada iqtisadi rolu güclənir, amma Pekin etibarlı və arzuolunan tərəfdaş sayılmır. 3. Rusiya ilə əlaqələrin bərpa olunması ehtiyacı artır, amma ikitərəfli əlaqələri gərginləşdirən məsələlər buna imkan vermir. 4. Aİ haqqında yuxarıda sadalanan və digər xarici və daxili məsələlər onun Şərq Tərəfdaşlığı regionunda qətiyyətli beynəlxalq faktor kimi fəaliyyət göstərməsini çətinləşdirir. Transatlantik əməkdaşlıqda nə baş verir? Donald Trampın ABŞ Prezidenti seçilməsindən sonra tədricən eroziyaya uğrayan transatlantik əlaqələrdə problemlər artmaqda və dərinləşməkdədir. Vaşinqtonun avropalı müttəfiqləri ilə müvafiq məsləhətləşmələr aparmadan beynəlxalq təhlükəsizliк üçün mühüm əhəmiyyət daşıyan bir çox məsələdə təkbaşına qərar verməsi Rusiya və Çin kimi ölkələrlə münasibətlərdə avropalı müttəfiqlərin maraqlarını və narahatlıqlarını nəzərə almadan hərəkət etməsi və bütün tənqidlərə baxmayaraq bu yanaşmadan geri dönməməsi Avropada ciddi narahatlığa səbəb olub (5).

Aİ-nin bərqərar olmuş ən mühüm nailiyyətlərindən biri İttifaq dövlətləri arasında əmtəələrin, şəxslərin, kapital və xidmətlərin sərbəst hərəkətinin təmin edilməsidir. Sözün geniş mənasında şəxslərin hərəkət azadlığı: işçilərin və işləməyən şəxslərin (tələbələrin və pensiyaçıların və b.), üçüncü ölkələrin vətəndaşlarının, müəssisələrin (hüquqi şəxslərin) hərəkət azadlığını və Şengen məkanında şəxslərin vizasız hərəkətini ehtiva edir.

Onu da qeyd edək ki, 2011-ci ildən Aİ və Azərbaycan Respublikası arasında viza rejiminin sadələşdirilməsinə dair rəsmi məsləhətləşmələrə və danışıqlara start verilmişdir. İkinci kateqoriya dövlətlərə isə, ABŞ, İsveçrə, Yaponiya və digər inkişaf etmiş dövlətlər, Baltik dövlətləri, Türkiyə istisna olmaqla, Aİ üzv olmağa rəsmi namizəd olan digər dövlətlər, Braziliya, Malaziya, Uruqvay

da daxil olmaqla bəzi inkişaf etməkdə olan dövlətlər aid olmaqla 45-dən artıq dövlət daxildir. Qeyd etmək vacibdir ki, göstərilən hər iki halda Şengen məkanına gəlmə qısamüddətli səfərlərə (maksimum 3 ay) aiddir. Qısamüddətli vizanın müddəti 90 gündür. Əgər əcnəbi (vətəndaşlığından asılı olmayaraq) daha uzun müddət üçün Şengen məkanında olmaq niyyətindədirsə, o zaman üzv-dövlətlərin özləri müstəqil qərar verir ki, həmin şəxsdən viza tələb etmək lazımdır, yaxud da həmin şəxsdən viza tələb etmək lazım deyil, lazımdırsa, hansı şərtlərlə verilməlidir. Yəni qısamüddətli vizalardan fərqli olaraq, uzunmüddətli (3 aydan yuxarı) vizaların verilməsi hər bir üz dövlətin öz daxili qanunvericiliyi ilə nizama salınır. Aİ çərçivəsində vizaların verilmə qaydasını tənzim edən bir sıra hüquqi sənədlər qüvvədədir. Ümumiyyətlə, viza və viza rejimi haqqında Aİ bugünkü qanunvericiliyi bir-biri ilə çox səviyyəli, məntiqi qarşılıqlı əlaqəli sistemi təşkil edən 10-dan çox sənədi daxil edir: müvafiq sənədlər içərisində ən mühümü və əsas mənbə rolunu oynayan normativ aktlar qismində 1990-cı il Şengen Konvensiyası (Vizalar adlanan 3-cü fəslin 2-ci bölməsi «Şəxslərin hərəkəti və daxili sərhədlərdə yoxlanışların ləğv edilməsi») və 2006-cı il Sərhədlər haqqında Şengen Məcəlləsi çıxış edirlər (6).

Tədqiqatın əsasını təşkil edən Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin Avropa İttifaqının ticarət qanunvericiliyi ilə müqayisəsi və inkişaf perspektivlərinə toxunaraq hazırki gömrük sahəsində görülən tədbirlərin avropa modelinə uyğunlaşdırılmasına nəzər salsaq, İttifaqla əməkdaşlıq sahəsində kifayət qədər inkişafa nail olunmasını görə bilərik. Azərbaycan Respublikası Prezidentinin 1 fevral 2007-ci il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı” təsdiq edilmişdir. Proqramda gömrük işinin tənzimlənməsi sisteminin, o cümlədən qanunvericilik bazasının təkmilləşdirilməsi tədbirləri əks olunmuşdur. Proqramın icrası çərçivəsində müvafiq işlər görülmüş, o cümlədən yeni Gömrük Məcəlləsinin layihəsi (2012) hazırlanmışdır. Yeni Məcəllə layihəsində təhlükəsizlik, terrorizm və qaçaqmalçılığa qarşı mübarizə, şəffaflıq, çeviklik, minimum informasiya əsasında gömrük rəsmiləşdirilməsi, avtomatlaşdırma sisteminə keçid, kağız əsaslı prosesdən asılılığın aradan qaldırılması, risklərin idarə edilməsi sisteminin əhatə dairəsinin və elektron məlumatlandırma sisteminin daha da genişləndirilməsi nəzərdə tutulmuşdur. 2009-cu il yanvarın 1-dən etibarən gömrük sistemində “bir pəncərə” prinsipinin tətbiqinə başlanılmışdır. AQS çərçivəsində Aİ-nin və BMT-nin İnkişaf Proqramının birgə dəstəyi ilə həyata keçirilən “Azərbaycan Respublikasında Gömrük Xidmətinin Təkmilləşdirilməsi” layihəsi çərçivəsində “Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında” Beynəlxalq Konvensiyanın (Kioto Konvensiyası) və Ümumdünya Gömrüк Təşkilatının “Beynəlxalq Ticarətin Asanlaşdırılması və Təhlükəsizliyi Üzrə Çərçivə Standartları”nın milli gömrük qanunvericiliyində əks olunması istiqamətində müvafiq tədbirlər görülmüşdür. Bütün bu tədbirlər, Azərbaycanın əsas ixrac fəaliyyətində tərəfdaşı olan Avropa İttifaqı ilə əlaqələrinin genişləndirilməsində mühüm rol oynamışdır (7).

## Nəticə

Postsovet ölkələrinin milli iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması üçün inkişaf etmiş dövlətlər, beynəlxalq təşkilatlatların xüsusi rolu olmuşdur. Bu baxımından Avropa İttifaqının Azərbaycanın regional və beynəlxalq əməkdaşlığının gücləndirilməsi, müasir texnologiyaların əldə edilməsi, mütərəqqi idarəçilik təcrübəsinin mənimsənilməsində xüsusi rolu olmuşdur. Aparılan tədqiqat prosesini qısa şəkildə sistematik olaraq aşağıdakı kimi müəyyənləşdirmək olar:

- AR müstəqilliyi 1991-ci ildə tanınmış, 1992-ci il 27 fevral tarixindən diplomatik əlaqələr qurulmuşdur;
- Respublika ərazisində ticarət, nəqliyyat və gömrük sahəsində aparılan işləri dəstəkləmək məramı ilə irimiqyaslı layihə olan TACİS proqramı, ardınca onun davamı olaraq 2004-cü ildən AQS-in maliyə mexanizmi olan AQTA həyata keçirilmişdir. Lakin, ümumilikdə qeyd edə bilərik ki, Avropa Qonşuluq Siyasəti əhatə etdiyi ölkələrə inteqrasiya məsələsində fərqli mövqedən çıxış etməsi, habelə bu dövlətlərin inkişaf səviyyəsinin də fərqli olması səbəbindən müəyyən

çatışmazlıqlarının olması ilə xarakterizə edilə bilər. Üzvolma perspektivinin olmadığı şərtlər daxilində islahatların aparılması effektivliyinin az olması nəzərə çarpır.;

- Tərəflər arasında 1999-cu il tarixindən qüvvəyə minəcək Tərəfdaşlıq və Əməkdaşlıq müqaviləsi imzalanmışdır.

2009-cu il tarixindən Şərq Tərəfdaşlığı təşəbbüsü irəli sürülmüşdür. ŞƏT çərçivəsində ixracyönümlü olan biznesin, KOB-ların inkişafının, QHT-lərin fəaliyyətinin dəstəklənməsi, investisiya mühitinin yaxşılaşdırılması, mütəxəssislərin Aİ ölkələrində təhsil və təkmilləşdirmə proqramlarına cəlb olunması, tələbə və magistrların Avropa universitetlərində təhsil proqramlarına cəlb olunması, elmi və mədəni mübadilə proqramlarının həyata keçirilməsi ilə bağlı kifayət qədər tədbirlər görülsə də əvvəldən qarşıya məqsəd kimi qoyulan ÜTT-yə üzvlük məsələsi həll olunmayan qalmış, viza liberalizaiyası həyata keçirilməmişdir. İxracyönümlü siyasət dəstəklənsə də nəticədə onun predmetini əsasən enerji məhsulları təşkil etmiş, qeyri-neft sektoru nəzərəçarpacaq dərəcədə inkişaf etdirilməmişdir. ŞƏT-i əhatə edən 3 dövlətlə (Ukrayna, Moldova, Gürcüstan) Assossasiya haqqında saziş imzalansa da Azərbaycan üçün bu reallaşdırılmamış, münasibətlər TƏM-ə əsaslanaraq davam etdirilmişdir. Ümumilikdə analitik təhlillərin nəticələrini və müasir reallıqları nəzərə alaraq, bu qənaətə gəlirik ki, orta müddətli perspektivdə Azərbaycanın tədricən AİM-ə inteqrasiyası (İslandiya, Norveç və Lixtenşeyn kimi) realdır və bu məsələdə tərəflərin maraqları üst-üstə düşür. 2019-cu ilin may ayında Şərq Tərəfdaşlığının 10 illiyinin qeyd edilməsi ilə bağlı Visegrad Insight da növbəti on il üçün inkişaf strategiyası ilə bağlı 4 ssenari layihəsi (Pragmatic integration, Russian hegemony, EU pivot to Moscow, Civic emancipation) hazırlamışdır. Hər bir ssenarinini nəzərdən keçirərək deyə bilərik ki, praqmatik intqrasiya yolunun seçilməsi Azərbaycanın genişləndirilməsi, siyasi problemlərinin həllində gələcəkdə xüsusi rol oynaya bilər.

## Ədəbiyyat

1. Chalmers, D., Davies, G. (2010). European Union Law: Texts and Materials, p.164.
2. Eyvazova, S., Əliyev, İ. (2018). Avropa İttifaqı və Azərbaycan Respublikası əməkdaşlığının hüquqi əsasları dərs vəsaiti. Elmi red. Azərnəşr. pp.31-34.
3. https://www.elibrary.az/docs/JURNAL/jrn2011_854.pdf
4. https://www.qanun.az/images/journal/2019-10-11-14-31-321570789892.pdf/
5. Treaty on the Functioning of the European Union: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=celex%3A12012E%2FTXT.
6. Yeni Yazarlar vÉŽ SÉŽnÉŽtÃ§ilÉŽf Qurumu mayÄ±n 26-da M (elibrary.az)
7. European Union Funding to Civil Society in Azerbaijan 2012 http://www.eeas.europa.eu/archives/delegations/azerbaijan/documents/press_releases/2010-grants-brochure-final_en.pdf.

Göndərildi: 05.03.2023 Qəbul edildi: 08.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/24-28

**Lalə Cəfərova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
ceferlilale50@gmail.com

# QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI VƏ TƏBLİĞİ PRİORİTET MƏSƏLƏDİR

## Xülasə

**Hər bir xalqın milli mədəni irsi** xalqa öz kimliyini göstərən, onun nəyə qadir olduğunu xatırladan, Vətən sevgisi və ona sadiqlik hisslərini aşılayan tarixi yaddaşıdır. Ölkəmizdə yaşı əsrlər, hətta minilliklərlə ölçülən müxtəlif qeyri-maddi mədəni irs nümunələri mövcuddur. Bu gün Azərbaycanın qeyri-maddi mədəniyyət nümunələrindən olan muğam, aşıq sənəti, xalça sənəti, kamança və tar kimi musiqi alətləri, "Kitabi-Dədə Qorduq" dastanı, Novruz bayramı, Lahıcın misgərlik sənəti, miniatür sənəti, "Yallı" milli musiqi rəqsi, kəlağayı, çövkən xalq oyunu, lavaş, dolma, nar bayramı kimi milli-mənəvi dəyərlərimizin mühafizəsi milli kimliyimizin, tariximizin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır. Bu baxımdan Azərbaycan xalqının zəngin çoxəsrlik qeyri-maddi mədəni irsinin qorunması və təbliğihər zaman diqqət mərkəzindədir. Bu istiqamətdə həm ölkə daxilində, həm də xaricdə mühüm işlər həyata keçirilir.

***Açar sözlər:*** *muğam, aşıq sənəti, xalçaçılıq, tar,"Kitabi-Dədə Qorduq" dastanı, "Yallı", kəlağayı, lavaş, dolma, nar bayramı*

**Lala Jafarova**
Azerbaijan State University of Culture and Arts
master student
ceferlilale50@gmail.com

# Conservation of İntangible Cultural Heritage and Dissemination is a Priority Issue

## Abstract

The national cultural heritage of every nation is the historical memory that shows the people their identity, reminds them of what they are capable of, and instills feelings of love and loyalty to the Motherland. In our country, there are various examples of intangible cultural heritage whose age is measured in centuries or even millennia. Today, mugham, ashiq art, carpet art, musical instruments such as kamancha and tar, "Kitabi-Dade Gordug" epic, Nowruz holiday, Lahich's coppersmithing art, miniature art, "Yalli" national musical dance, kalaghayi, which are examples of intangible culture of Azerbaijan today. The protection of our national and moral values, such as chevken folk game, lavash, dolma, pomegranate festival, plays an important role in the transmission of our national identity and history to future generations. In this regard, the protection and promotion of the rich multi-century intangible cultural heritage of the Azerbaijani people is always in the center of attention. In this direction, important works are being carried out both inside the country and abroad.

***Keywords:*** *mugham, ashiq art, carpet weaving, tar, "Kitabi-Dade Gordug" epic, "Yalli", kalaghayi, lavash, dolma, pomegranate holiday*

## Giriş

"Mədəniyyət haqqında" Azərbaycan RespublikasınınQanununa əsasən, milli mədəni irs dedikdə, Azərbaycan xalqına məxsus olan, ümumazərbaycan əhəmiyyəti kəsb edən, eləcə də universal dəyərlərə malik olan mədəniyyət nümunələrinin məcmusu nəzərdə tutulur (Mədəniyyət

haqqında Azərbaycan Respublikasının qanunu). Bu məcmuya əsasənincəsənət, muzey, audiovizual, kino, teatr, əlyazma, kitabxana, arxiv, arxeologiya, folklor, memarlıq, etnoqrafiya, dekorativ-tətbiqi sənət nümunələri, tarix-mədəniyyət qoruqları aidedilir.Ümumilikdə, milli mədəni irs iki hissəyə bölünür: maddi-mədəni və qeyri-maddi mədəni irs.

Maddi-mədəni irs isə özlüyündə 2 hissəyə - daşınar və daşınmaz mədəni irsə ayrılır.

Daşınmaz arxeoloji, bağ-park, memarlıq, xatirə abidələri, monumental, dekorativ-tətbiqi sənət nümunələri, eləcə də mədəniyyət, memarlıq, bədii, etnoqrafiya, təbiət abidələri və tarixi qoruqlar, məqbərələr, mədəniyyət məkanları, memarlıq ansamblları, arxeoloji komplekslər, etnoparklar, dini ocaqlar daşınmaz maddi mədəni irsə daxildir. Bu tip irs nümunələri yerini dəyişərkənözünün müəyyən irs dəyərlərini itə bildiyindən, müəyyən ərazi və ya məkan ilə bağlıdır.

Daşınar mədəni irs isə tarixi, arxeoloji, sənədli, etnoqrafik, bədii, təbii, elmi-tədqiqat, kulinar, kinematoqrafiya, rəsm, incəsənət, filatelist, numizmat, biblioqrafiya, epiqrafiya, heraldik, etnoloji, antropoloji və estetik sərvətlərin məcmusudur. Şəxslərin, ayrı-ayrı qrupların, cəmiyyətin mədəni irs nümunələri kimi qəbul etdikləri adət-ənənələr, təsvir formaları, bilik və bacarıqları, onların yaradılmasında istifadə edilmiş əşyalar, müxtəlif alətlər, mədəniyyət məkanları, artefaktlar qeyri-maddi mədəni irsə aid olunur (Azərbaycanda mədəni irs və mədəni turizm, 2022).

Azərbaycan qanunvericiliyinə uyğun olaraq, qeyri-maddi mədəni irs üç əsas kateqoriyadabirləşir. Bu kateqoriyalar aşağıdakılardır:

1. Etnoqrafiya və ya diyarşünaslıq (buraya adət-ənənələr, bayramlar, mərasimlər, tarixi rəmzlərdaxildir);
2. Folklor nümunələri (musiqilər, rəqslər, şifahi xalq yaradıcılığı, oyunlar və tamaşalar);
3. Xalq sənətkarlığı (ənənəvi dekorativ sənət, milli təsvir yaradıcılığı və s).

Qeyd etmək lazımdır ki, istər maddi, istərsə də qeyri-maddi irs nümunələrinin qorunub saxlanılması hər zaman prioritet məsələlərdən olub. Belə ki, Beynəlxalq Mədəniyyətin Müdafiəsi Liqası tərəfindən hələ 1998-ci ildə təsis olunan “Beynəlxalq Mədəniyyət Günü” 1935-ci il aprel ayının 15-də qəbul edilmiş “Bədii, elmi müəssisə və tarixi abidələrin qorunması haqqında” beynəlxalq müqavilənin şərəfinə qeyd olunur.Bu müqaviləni “Rerix Paktı” da adlandırırlar. Mədəni irsin qorunmasına dair bir sıra beynəlxalq hüquqi normanın formalaşmasının əsası sayılan sənəd,eyni zamanda, UNESCO-nun bəzi aktlarının da əsasını təşkil edir. “Rerix Paktı” bir çox beynəlxalq konvensiya və qətnamələr kimi,hətta müharibə dövründə də mədəni irsin qorunmasını təmin edir. Lakin təəssüflə bildirmək lazımdır ki, sənədin müddəaları müxtəlif ölkələr tərəfindən kobud şəkildə pozulmaqdadır. İşğaldan azad olunmuş torpaqlarımızda mədəniyyət nümunələrinin vəziyyətinə nəzər salsaq, bunu aydın görə bilərik. Bütün dünya ölkələrinin nümayəndələri də bu ərazilərimizdə yerləşən məscid, məbəd, monastır,kurqan, muzey,saray, körpü, heykəl və büstlər, eləcə də digər növ abidələrin erməni işğalçıları tərəfindən vəhşicəsinə dağıdıldığının şahididir. Bunlar içərisində həm yerli, həm regional, həm də beynəlxalq əhəmiyyətli abidələr mövcuddur.

Bununla yanaşı, son illərdə tarixi mədəni irs və turizmin inkişafı, tarixi irs və nəsillər arasında sıx bağlılıq bu sahəyə daha çox önəm verilməsinə səbəb olmuşdur. Xüsusilə, qloballaşan dünyamızda hər bir xalqın öz mədəni-mənəvi varlığını göz bəbəyi kimi qoruması mühüm məsələlərdəndir. Çünki xalqın mədəni irsi, adət-ənənələri onun milli identikliyinin əsas göstəriciləridir.

Zaman-zaman zəngin mədəni irsimiz müxtəlif qüvvələr tərəfindən mənimsənilməyə məruz qalmışdır. Belə ki, mənfur qonşularımız olan ermənilər təkcə tarixi torpaqlarımızın onlara məxsus olduğunu iddia etmir, eyni zamanda, birçox qeyri-maddi mədəniyyət nümunələrimizə qarşı da iddialar irəli sürürlər. Məlum olduğu kimi, xalqımıza məxsus maddi-mənəvi dəyərlər arasında ermənilərin özlərinə məxsus olduğunu iddia etdiklərinin siyahısında milli mətbəximizin yeməklərindən olan dolma və lavaş ilk sırada dayanır. Onlar hətta dolmanın ermənilərin milli yeməyi olduğu sübut etmək üçün ciddi təbliğat işi də aparırlar. Hətta sovetlər birliyi zamanında belə bu təbliğatı açıq və gizli şəkildə aparmaqdan çəkinməyiblər. Hazırda xarici ölkələrdə ermənilər tərəfindən “dolma festivalı” da təşkil olunur. Bu baxımdan qeyri-maddi mədəni irs nümunələrimizin mühafizəsi və dünya xalqları arasında təbliği dövlətimizin mədəniyyət siyasətində vacib yer tutur.

Bu gün qeyri-maddi mədəni irsimizin mühafizəsi aktual məsələlərdəndir, desək, yanılmarıq. Çünki milli kimliyimizin, tariximizin gələcək nəsillərə çatdırılmasında qeyri-maddi irs nümunələri mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, bu gün qeyri-maddi mədəni irs nümunələrimizin qorunması ilə bağlı dövlət tərəfindən bir çox islahatlar həyata keçirilir, onların mühafizəsinin yüksək səviyyədə təşkil edilməsi məqsədilə dövlət proqramları hazırlanır. Həmin dövlət proqramlarının əsasını isə tarixiqədim olan qeyri-maddi mədəni sərvətlərimizin öyrənilməsinin və onlar barədə məlumatların istər yerli, istərsə də xarici kütlələrə çatdırılması təşkil edir (3).

"YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa əsasən, qeyri-maddi mədəni irs icmalar, qruplar və bəzi hallarda ayrı-ayrı şəxslər tərəfindən onların mədəni irsinin bir hissəsi kimi qəbul edilən təcrübələri, təqdimatları, ifadələri, bilik və bacarıqları, eləcə də bunlarla bağlı alətləri, əşyaları, maddi mədəniyyət abidələrini və mədəni məkanları bildirir.Nəsildən-nəsilə ötürülən belə qeyri-maddi mədəni irs daim icmalar və qruplar tərəfindən, onları əhatə edən mühitə cavab olaraq, onların təbiətlə və öz tarixləri ilə qarşılıqlı təsirindən asılı olaraq yaradılır, onlarda özünəməxsusluq və irsilik hissi formalaşdırır, bununla da mədəni müxtəlifliyə və insan yaradıcılığına hörmət edilməsinə yardım göstərir.

Qeyri-maddi irs nümunələrinin mühafizəsi istiqamətində davamlı olaraq dövlət tərəfindən tədbirlər həyata keçirilir. Məlumdur ki, ölkəmiz 1992-ci ilin iyunundan etibarən bəşəri dəyərlərin qorunması, onların gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl olaraq iş aparanYUNESKO təşkilatının üzvüdür. 1996-cı ildə isə təşkilatla ölkəmiz arasında əməkdaşlıq sahəsində memorandum imzalanmışdır. Həmin ildən etibarən,Birləşmiş Millətlər Təşkilatının elm, təhsil və mədəniyyət üzrə bu nüfuzlu qurumu ilə əlaqələrimiz günü-gündən genişlənməkdədir. Respublikamız, həmçinin, YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunmasına dair Konvensiyasına" da qoşulub. Azərbaycanın şifahi xalq ədəbiyyatının, qədim musiqi irsinin qorunub saxlanılmasında və inkişaf etdirilməsində səylərinə görə Mehriban xanım Əliyeva 2004-cü il avqustun 13-də YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülüb. Elə bundan sonra təşkilatla ölkəmiz arasındakı əlaqələr daha da inkişaf etməyə başlayıb.

Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğının nəticəsidir ki, mədəni irsimizlə bağlı 15 nominasiya təşkilatın müvafiq siyahılarına daxil edilib və bəşəriyyətin mirası olaraq qorunmaqdadır ("YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu). Azərbaycanın qeyri-maddi mədəniyyət nümunələrindən və milli-mənəvi dəyərlərimizdən muğam, aşıq və xalça sənəti,xalqımızın ən gözəl adət-ənənələrini özündə əks etdirən Novruz bayramımız qurumun"Qeyri-maddi mədəni irsin qorunması üzrə reprezantativ siyahısı"na daxil edilmişdir.

Fəxrlə qeyd olunmalıdır ki, 2003-cü ildə YUNESKO-nun adıçəkilən siyahısına daxil edildikdən sonra Azərbaycanın nadir muğam sənətinə olan diqqət və qayğı artmağa başlamışdır. Xüsusilə, muğam sənətimizin qorunması və inkişafı məqsədilə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən bir çox uğurlu tədbirlərin həyata keçirilməsi bu sahədə böyük canlanmaya səbəb olmuşdur. Bakıda Beynəlxalq Muğam Mərkəzinin tikilməsi, Qarabağ xanəndələri barədə albomun, Azərbaycan muğam antologiyasının hazırlanması, respublikamızda beynəlxalq muğam müsabiqələrinin keçirilməsi bu istiqamətdəatılmış uğurlu addımlardır. Tam əminliklə söyləmək olar ki, xalqımızın milli-mənəvi sərvəti olan muğamlarımız indi də dünyanın əksər ölkələrində səslənir və maraqla dinlənilir.

Muğamdan sonra aşıq sənətimizin siyahıya daxil edilməsi milli irsimizin dünyəviliyini, bəşəriliyini və irqindən, dinindən, dilindən, asılı olmayaraq, bütün millətlərin ona maraq göstərdiyini bir daha sübut etdi, aşıq sənətinə qarşı soyuq münasibət mülayimləşdi, xalq yaradıcılığının qədim nümunəsinin geniş tanıdılması üçün zəmin yarandı. Azərbaycan aşıqları Parisin Luvr Muzeyində və Strasburq şəhərində konsert proqramları ilə çıxış etdilər. Azərbaycanın

aşıq sənəti ilə yanaşı, YUNESKO-nun Qeyri-Maddi-Mədəni İrsin Qorunması üzrə Komitəsinin Abu-Dabi şəhərində keçirilən IV sessiyasında Novruz bayramı da siyahıya əlavə olundu (5).

2010-cu il isə Azərbaycan mədəniyyət tarixində xalça sənətimizin YUNESKO-nun adıçəkilən siyahısına daxil edilməsi ilə yadda qaldı. Bütün bunlar, ölkə Prezidenti cənab İlham Əliyevin, eləcə də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın illər ərzində apardığı məqsədyönlü siyasətin, xalqımızın mədəniyyətinə göstərilən yüksək diqqət və qayğısının nəticəsi, ölkəmizin qeyri-maddi mədəni irsinin, xüsusilə muğam və aşıq sənətinin, milli adət-ənənələrimizin dünyada tanıdılması və təbliği istiqamətində gördüyü işlərin uğurlu yekunu idi.

Təşkilatın Qeyri-Maddi-Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Nayrobidə keçirilən V sessiyasında isə Azərbaycanın xalçaçılıq sənəti bu mötəbər qurumun qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edildi. Bu da, öz növbəsində, Azərbaycan xalçalarının toxunulmazlığına, orijinallığına, xalçaçılıq sənətinin inkişafına təkan verdi. Eyni zamanda, sübut olundu ki, Azərbaycanda qədim xalçaçılıq sənəti bütün dünya tərəfindən tanınır, bu sənət nümunələrini mənimsənilməsinə, oğurlanmasına və özününküləşdirilməsinə qətiyyən yol verilə bilməz. Beləliklə, Azərbaycan muğam və aşıq sənətlərindən sonra, milli xalça sənətimizin siyahıya daxil edilməsi, beynəlxalq miqyasda mədəniyyətimizin tanıdılması baxımından atılmışuğurlu addımdır. Dünyanın bir sıra ölkələrində xalçaçılıq geniş yayılsa da, əminliklə söyləmək olar ki, bu sənət növünün beşiyi məhz doğma Azərbaycandır. Burada toxunan müxtəlif növ xalçalar nadir, müqayisə edilməyən nümunələr olaraq qəbul edilir.

Bu gün xalça sənəti Azərbaycanda öz inkişafının yeni mərhələsini yaşayır. Bununla bağlı, “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında”Azərbaycan Respublikası Qanununun qəbul edilməsi, Prezident cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun binanın inşa olunması və istifadəyə verilməsi qədim el sənətinə göstərilən qayğının bariz nümunəsidir.

Bundan əlavə, kamança və tar kimi milli musiqi alətlərimiz, kəlağayı, lavaş, dolma, milli xalq rəqsimiz olan “Yallı”, miniatür sənəti, hər il Göyçayda təmtəraqla keçirilən nar bayramı, İsmayıllı rayonun Lahıc qəsəbəsinin misgərlik sənəti, Qarabağ atı ilə oynanılan çövkən və ya çovqan oyunu, Azərbaycan, Türkiyə və Qazaxıstanın ortaq mədəni irs nümunəsi kimi “Kitabi Dədə Qorqud” dastanları da həmin siyahıda öz yerini almışdır. Hazırda bir sıra digər milli-mənəvi dəyərlərimizin - Azərbaycanın milli mətbəxinin, Nic kəndinin və Qırmızı Qəsəbənin adlarının bu siyahıya salınması istiqamətində də işlər aparılır.

Qeyri-maddi irs nümunələrimizin qorunması ilə yanaşı, onların təbliği də önəmlidir. Belə ki, Mədəniyyət Nazirliyi tərəfindən istifadəyə verilən “Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin Dövlət Reyestri” portalı (www.intangible.az) mədəni irsimizin sistemli şəkildə qorunması və təbliq edilməsinə dəyərli töhfədir (6). Qeyri-maddi irsmizdən olan nümunələri qeydiyyata almaq, onların təbliği işini təşviq etmək, eləcə də bədnam qonşularımız tərəfindən mənimsənilməsinin qarşısını almaq üçün lazımi informativ bazanı formalaşdırmaq məqsədilə yaradılan portalda milli-mənəvi mədəniyyətimizin müxtəlif sahələrini əhatə edən irs nümunələrinin adları siyahıda öz əksini tapıb. Bu cür xalq nümunələri nəsildən-nəslə ötürülərək xalqın keçmişinə, zəngin tarixinə əsaslanır.

İstifadəyə verilmiş elektron resurs vətənimizin qeyri-maddi mədəni irs nümunələri, onların daşıyıcıları, təşkilatlar barədə məlumatları, eləcə də mədəniyyət sahəsində qəbul olunmuş milli və beynəlxalq sənədləri, UNESCO-nun siyahılarına daxil edilmiş mədəni irs nümunələrimizi, Dağlıq Qarabağ münaqişəsinə aid olan lazımi elmi ədəbiyyatlar, foto və videomateriallar, qeyri-maddi irs sahəsində yenilikləri özündə ehtiva edir. Bununla yanaşı, Azərbaycanın şəhərləri, rayonları və həmin bölgələrə məxsus qeyri-maddi irs nümunələri haqqında bilgilər məlumat bazasında yer alıb.

Azərbaycanın qeyri-maddi mədəni irs nümunələri portalda folklor, diyarşünaslıq və sənətkarlıq olmaqla 3 kateqoriyaya ayrılır və həmin kateqoriyalara daxil olan məlumatlar siniflər, növlər, janrlar və qruplar görə ümumiləşdirilir. Qeyri-maddi mədəni irs nümunəsinin səhifəsi onun haqqında arayışdan, nümunəyə aid foto və video materiallardan, nümunənin pasportundan, daşıyıcı və təşkilat və nümunənin yayıldığı areal haqqında məlumatlardan ibarətdir. Arayışlar UNESCO-nun

tələbləri çərçivəsində həmin sahə üzrə çalışan elmi mütəxəssislər tərəfindən hazırlanır. Portalın fotoqalereya və mediateka hissələrinin təşkilində Mədəniyyət Nazirliyinin, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC), Milli Azərbaycan Tarixi Muzeyinin, Milli İncəsənət Muzeyinin, Azərbaycan Xalça Muzeyinin, Azərbaycan Aşıqlar Birliyinin, Musiqi Mədəniyyəti Dövlət Muzeyinin, Dövlət Film Fondunun, biblioqrafiyanın təşkilində isə Azərbaycan Milli Kitabxanasının materiallarından istifadəedilib. Azərbaycanın qeyri-maddi mədəni sərvətlərinə dair zəruri məlumatların və materialların cəmləndiyi portal mühüm platforma kimi xalqımızın zəngin mədəni irs yaddaşının qorunmasına xidmət edir.

Qeyd edək ki, portalda qeyri-maddi irs nümunələri ilə bağlı vətəndaşların təkliflərinin qəbulu üçün imkanlar da yaradılıb ki, bu da onun əhəmiyyətini artırır. Çünki qloballaşan, informasiya çevikliyi tələb edən bu çağımızda ölkənin hər bir vətəndaşı bütün innovativ vasitələrdən istifadə edərək ölkəmizin sərvətlərini mühafizə etməyi bacarmalıdır. Bir sözlə, qeyri-maddi mədəni irsin qorunması təkcə dövlətin işi olmamalıdır, bütövlükdə cəmiyyət olaraq hər birimiz tərəfindənbu işə dəstək göstərilməlidir.

## Nəticə

1. Qeyri-maddi mədəni irsin maddi irsdən fəqrli bir sıra xüsusiyyətləri müyyən olunmuş.
2. Müəyyən olunmuşdur ki, qeyri-maddi mədəni irs nümunələri nəsildən-nəsilə ötürülərək yayıldığı üçün unudulmağa dah meyillidir.
3. Tədqiqatlar nəticəsində belə bir nəticəyə gəlinmişdir ki, qeyri-maddi mədəni irsin muzeyləşdirilməsi yolu ilə gələcək nəsillərə ötürülməsi prosesi olduqca vacibdir.
4. Və nətici olaraq qeyd edə bilərik ki, qeyri-maddi mədəni irsin qorunması məsələsi olduqca vacibdir və bunun üçün cəmiyyət arasında maarifləndirmə işləri daha da artırılmalı, gələcək nəsillərə ötürülməni həyata keçirə bilm ək üçün qeyri-maddi mədəni irsin təbliğatı məsələsi genişləndirilməlidir.

## Ədəbiyyat

1. “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının Qanunu.
2. Azərbaycanda mədəni irs və mədəni turizm. (2022). Resurslar, Məhsullar, Təcrübələr. Bakı.
3. https://medeniyyet.az/page/news/55309/Beseriyyetin-qeyrimaddi-medeni-irs-xezinesi-32-numune-ile-zenginlesib.html
4. “YUNESKO-nun “Qeyri-maddi mədəni irsin qorunması haqqında” Konvensiyasının təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu.
5. https://unesco.mfa.gov.az/az/content/36/qeyri-maddi-medeni-irs
6. “Azərbaycanın qeyri-maddi mədəni irs nümunələri YUNESKO tərəfindən qorunur, https://mehribanaliyeva.preslib.az/media-ce19465bbb.html

Göndərildi: 05.02.2023 Qəbul edildi: 21.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/29-31

**Sərxan Hatəmi**
Dövlət Gömrük Komitəsinin Akademiyası
magistrant
hatemiserxan85@gmail.com

# GÖMRÜK PROSEDURLARININ SADƏLƏŞDİRİLMƏSİNDƏ İNFORMASİYA TEXNOLOGİYALARININ TƏTBİQİNİN ROLU

**Xülasə**

Gömrük prosedurlarının sadələşdirilməsi ilə əlaqədar informasiya texnologiyalarının tətbiqi ilə bağlı lazımi tənzimləmələrin edilməsinin əsas səbəbi gömrük prosedurlarının uzun sürməsi və prosesin tamamlanmasına kifayət qədər uzun vaxt tələb edilməsidir. Bundan başqa, bütün əməliyyatların əl ilə aparılmasının edilməsinin çətinlikləri gömrük əməliyyatlarının elektron sistemə keçirilməsi və informasiya texnologiyalarının tətbiqi zərurətini yaratmışdır. Eyni zamanda informasiya texnologiyalarının tətbiqi və elektronlaşmanın digər müsbət cəhəti də, Covid-19 kimi pandemiya, epidemiya və s. yayılan xəstəliklərin yayılması riskini azaldır. Beynəlxaq standartlara cavab vermək və milli iqtisadiyyatın inkişafı üçün texnologiyanın inkişafı əvəzsizdir. Sadələşdirilmiş gömrük xarici investorların və qlobal treyderlərin cəlb edilməsi və sahibkarlığın inkişafı üçün önəmlidir. Bütün bunları nəzərə alaraq məqalədə vacib nüanslar incələnmişdir.

***Açar sözlər:*** *Gömrük prosedurlarının sadələşdirilməsi, informasiya texnologiyaları, elektronlaşma, öhdəlik, Gömrük məcəlləsi.*

**Sarkhan Hatami**
Azerbaijan State Oil and Industry University
master student
hatemiserxan85@gmail.com

## The role of the application of information technologies in the simplification of customs procedures

**Abstract**

The main reason for making the necessary arrangements regarding the application of information technologies in connection with the simplification of customs procedures is that customs procedures take a long time and the process takes a long time to complete. In addition, the difficulties of doing all operations manually created the need to transfer customs operations to an electronic system and apply information technologies. At the same time, another positive aspect of the application of information technologies and electronicization reduce the risk of spreading diseases the pandemic, epidemic, etc., such as Covid-19. Technology development is indispensable for meeting international standards and developing the national economy. Simplified customs are important for the attraction of foreign investors and global traders and for the development of entrepreneurship. Taking all this into account, the important nuances have been refined in the article.

***Keywords:*** *Simplification of customs procedures, information technologies, electronicization, obligation, Customs Code*

## Giriş

Gömrük prosedurlarının sadələşdirilməsi ilə bağlı əsas məsələlərdən biri də “Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında” yenilənmiş Konvensiyanın (Kioto konvensiyası) 7-ci fəslində göstərilmiş İnformasiya Texnologiyalarının tətbiqi məsələsidir. Belə ki, Gömrük əməliyyatlarına kömək etmək məqsədilə gömrük üçün zəruri olan hallarda istifadə edilir.

Gömrük xidmətləri onun tətbiqi üçün şərtləri müəyyən edir. Kompüter sistemlərini tətbiq edərkən, gömrük xidmətləri ümumqəbul olunan beynəlxalq standartları tətbiq edir. İnformasiya texnologiyaları tətbiq edilərkən, mümkün qədər marağı olan bütün şəxslərlə maksimal geniş məsləhətləşmələr həyata keçirməlidir. Yeni, yaxud yenidən baxılmış milli qanunvericilik yazılı sənədlərin təqdim olunması tələbinə alternativ olaraq elektron informasiya mübadiləsi üsullarını; elektron və ya sənəd əsasında həqiqiliyin müəyyən edilməsi metodlarını; gömrük məqsədləri ilə istifadə üçün və lazım gəldiyi təqdirdə, digər gömrük xidmətləri və bütün digər istifadəçilərlə informasiya mübadiləsini həyata keçirtmək üçün, milli qanunvericiliklərdə yol verilirsə, informasiya mübadiləsinin elektron üsullarının köməyi ilə gömrük xidmətinin informasiyanı özündə saxlamaq hüququnu nəzərdə tutmağa borcludur (Revised Kyoto convention, General annex, chapter 7). Ortaya çıxan yeni konsepsiya ilə qurulan yeni sistem vasitəsilə əməliyyatları həyata keçirərkən əməliyyatların asanlaşdırılması və prosesin minimuma endirilməsi əsas məqsədlərdir. Gömrük orqanlarında elektronlaşmaya keçid özlüyündə sadalanan fürsətlərə işarə edir:

a) Hər növ gömrük prosedurlarının asanlaşdırılması,

b) Sistemə uyğunluq və sistem idarəetmə xərclərini minimuma endirərək vaxta qənaət etmək,

c) Nəzarət prosedurlarının hamı tərəfindən eyni şəkildə həyata keçirilməsini təmin etmək və vergiləri vaxtında və düzgün tətbiq edə bilmək,

d) Satınalma proseslərinin sürətləndirilməsi yolu ilə azad ticarəti inkişaf etdirmək,

e) Əməliyyatlar haqqında lazımi orqanlarla məlumat axınının təmin edilməsi və sistemdə qeydiyyata alınan sənədlər lazım gəldikdə yenidən istifadə oluna bilməsi imkanları (Revised Kyoto convention, General annex, chapter 7).

Avropa İttifaqı ona üzv olmaq istəyən dövlətlərə məcburi tələblər qoymuşdur ki, bu tələblərdən biri də gömrük orqanlarının işlərinin elektronlaşmasıdır. Elektron gömrük prosedurları sayəsində qaçaqmalçılığın və qanunsuzluqların qarşısının alınması da prosesin məntiqi ardıcıllığıdır. Avropa İttifaqına üzv olmaq prosesində olan ölkələr və bu İttifaqın qanunvericiliyindəki maddələrin tam şəkildə həyata keçirilməsi və onun xarici sərhədlərinin qorunması üçün çox vacibdir. Üzvlük prosesində olan ölkələr məcburi öhdəliklərini yerinə yetirmək və gömrük prosedurlarındakı yeniliklərə uyğunlaşmaq üçün üzvlükdən əvvəl ciddi yoxlamalara məruz qalırlar (Uzun, 2016: 63-67). Bu da prosedurların asanlaşdırılması ilə paralel cinayətkarlığa qarşı mübarizə və milli təhlükəsizliyin qorunması ilə bağlı tələblərə kompleks yanaşmadır. Aİ-də elektron gömrük müraciətlərinə Avropa Komissiyasının rəhbərliyi ilə başlanılmışdır. Aİ Komissiyası gömrük prosedurlarını elektron mediaya keçirib. Elektron gömrük tətbiqi ilə həyata keçirilən elektron gömrük əməliyyatlarının daha səmərəli və müasir texnologiyaya uyğun olaraq həyata keçirilməsi hədəflənir (Shirsavara, Shirinpour, 2016: 114-121). Amerika təcrübəsi də elektron gömrüyün tətbiqi ilə bağlı özünü doğrultmuşdur. ABŞ elektron gümrük tətbiqinə keçməsində görülən işlərə sərf olunan lazımsız vaxt və maddi itkilərin qabağını almaq, gömrük nəzarəti prosedurlarının asanlaşdırılması məqsədi güdülmüşdür (Şen, 2019: 77-92). Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən Gömrük işində informasiya sistemlərindən, informasiya texnologiyalarından və onların təminat vasitələrindən istifadə edilir. Gömrük Məcəlləsinin 33-cü maddəsinə görə Gömrük orqanları tərəfindən yaradılan, alınan informasiya sistemləri, informasiya texnologiyaları və onların təminat vasitələri dövlət mülkiyyətindədir və Gömrük orqanları onların istifadəsində olmayan informasiya sistemlərindən, informasiya texnologiyalarından və onların təminat vasitələrindən müqavilə əsasında istifadə edə bilərlər (Gömrük məcəlləsi 33-34 maddə).

Gömrük Məcəlləsinin 34-cü maddəsində Gömrük orqanlarında gömrük prosedurlarının elektron modellərinin yaradılması və tətbiqi ilə əlaqədar normativ hüquqi aktların layihələri hazırlanarkən aşağıdakılar nəzərə alınmalı olan nüanslar göstərilmişdir:

1) Qanunvericilikdə nəzərdə tutulduğu hallarda, sənədlərin elektron formada təqdim edilməsi;

2) Elektron və kağız üzərində yazılı formalarda sənədlər əsasında məlumatların dəqiqliyinin yoxlanılması üsullarının mövcudluğu;

3) Gömrük xidmətləri, habelə onlar ilə başqa istifadəçilər arasında gömrük məqsədləri üçün informasiya mübadiləsinin elektron üsullarından istifadə edildiyi zaman, alınan məlumatları saxlama hüququnun olması;

4) Gömrük prosedurlarının və gömrük ödənişlərinin elektron idarə edilməsi üçün sistemlərin yaradılması və tətbiq edilməsi (Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, 33-34 maddə).

## Nəticə

1. Gömrük Prosedurlarının sadələşdirilməsi üçün İnformasiya texnologiyalarının tətbiqi həyati önəm daşıyır.
2. İnformasiya texnologiyalarının tətbiqi gömrük cinayətlərinin və xoşagəlməz hüquqpozmaların qarşısını alır.
3. İnformasiya texnologiyalarının tətbiqi nəticəsində Beynəlxalq Müqavilə ilə üzərimizə götürdüyümüz öhdəliklər icra olunur və beynəlxalq standartlara cavab verən Gömrük idarəetməsinə malik olunur.
4. Analiz göstərir ki, bəzən qazanın buxarlandırma səthlərində kritikdən yüksək təzyiq, buxar qızdırıcı səthlərdə sürüşən təzyiqi saxlamaq əlverişlidir, yəni kombinələşdirilmiş rejimdən istifadə etmək məqsədəuyğundur.

## Ədəbiyyat

1. International Convention on the Simplification and Harmonization of Customs Procedures, General Annex (revised Kyoto convention).
2. Uzun, F. (2016). Gömrük prosedurlarında tətbiq edilən sadələşdirilmiş prosedurlar və onun məsul şəxslərə verdiyi üstünlüklər. Gömrük və Ticarət Jurnalı. 1(7), s.63-67.
3. Shirsavara, H. A. and Shirinpour, M. (2016). The effect of electronic customs administration on facilitating the export activities of export companies based in Gilan, Iran. Intellectual Economics, 10(2), 114-121.
4. Şen, F. (2019). Amerika Gömrük Administrasiyasının ticarətin asanlaşdırılması strategiyası və təcrübələri. Gömrük Ticarət Jurnalı, 2(16), 77-92.
5. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, 33-34 maddə

Göndərildi: 28.02.2023 Qəbul edildi: 29.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/32-35

**Rahil Dadashli**
Khazar University
master student
rahil.dadashli@khazar.org

# EXPLORING EU'S POLICY ON UKRAINIAN MIGRANTS: EXAMINING THE OPTIONS FOR REPATRIATION

## Abstract

Over 10 million people left Ukraine for nearby nations right after the war started, with the European Union taking in a sizable percentage of these refugees. The EU activated the Temporary Protection Directive (TPD) because of the surge to help these people. Here I will be examining the prospect of sending refugees back to Ukraine. This study applies the securitization theory to assess the strategies the EU is exploring for repatriation. The research tries to identify prospective regulations that might be enacted for repatriation by examining secondary data, polls that are accessible online, and official papers. The essay considers the policies' larger ramifications and how they could affect both refugees and the EU. The purpose of this research is to provide light on alternative policy options and how they could affect the refugee issue in the EU.

***Keywords:*** *TPD, Ukrainian migrants, repatriation, securitization, war*

**Rahil Dadaşlı**
Xəzər Universiteti
magistrant
rahil.dadashli@khazar.org

# Aİ-nin Ukraynalı Miqrantlarla bağlı Siyasətinin Tədqiqi: Repatriasiya variantlarının araşdırılması

## Xülasə

Müharibə başlayandan dərhal sonra 10 milyondan çox ukraynalı qonşu ölkələrə qaçmağa məcbur oldu və Avropa Birliyi bu miqrantların önəmli bir hissəsini qəbul etdi. AB artan insan axını idarə etmək üçün Müvəqqəti Müdafiə Direktivini (MMD) qüvvəyə mindirdi. Bu yazıda mən həmin miqrantların geri dönüş seçimlərini analiz edəcəyəm. Bu araşdırma AB-nin repatriasiya üçün araşdırdığı strategiyaları qiymətləndirmək üçün sekuritizasiya nəzəriyyəsini tətbiq edir. Tədqiqat ikincil məlumatları, onlayn əldə edilə bilən sorğuları və rəsmi sənədləri araşdıraraq repatriasiya üçün qüvvəyə minə biləcək perspektivli qaydaları müəyyən etməyə çalışır. Esse siyasətlərin daha böyük nəticələrini və onların həm qaçqınlara, həm də AB-yə necə təsir göstərə biləcəyini nəzərdən keçirir. Bu araşdırmanın məqsədi alternativ siyasət variantları və onların Aİ-də qaçqınlar məsələsinə necə təsir göstərə biləcəyinə işıq salmaqdır.

***Açar sözlər:*** *MMD, ukraynalı miqrantlar, geri göndərilmə, sekuritizasiya, müharibə*

## Introduction

Following the Russian military's aggression against Ukraine on February 24, 2022, many individuals fled the country, seeking refuge in other countries. The EU implemented the Temporary Protection Directive to address the needs of these refugees. However, scholars have identified instances of racial discrimination by member states and officials, raising concerns about the effectiveness of the directive. Additionally, investigations into security concerns of member states have also been conducted (1).

Security is commonly understood as the absence or reduction of threats to important values, but according to securitization theory, security is a social construct that involves framing issues as

existential threats, which can lead to the use of exceptional measures to address them. This subjective perception of security is shaped by political actors and society, and it can be used to justify authoritarian measures. Securitization theory highlights the role of power and discourse in shaping security and suggests that security is not objective, but rather a subjective perception (Emmers, 2013: 13).

Although EU officials have not explicitly stated it, it is widely understood that it is not feasible to provide for the needs of over 10 million refugees. As a result, some think tanks and individuals have already begun considering the possibility of repatriating refugees with the financial support of the EU.

In this study, both qualitative and quantitative research methods will be used to analyze the options related to the repatriation process of Ukrainians affected by the war in Ukraine. The data sources will include official government documents, survey results, and previous research studies. The independent variable in this research is the war in Ukraine, while the dependent variable is the repatriation process of Ukrainians.

The research will be divided into several parts, including an abstract, introduction, analysis and findings section, conclusion, and a list of literature cited. The abstract will briefly summarize the study's purpose and findings. The introduction will provide background information on the topic, research objectives, and methodology used. The analysis and findings section will present the results of the research in an organized manner with relevant supporting data. The conclusion section will summarize the study's main findings, discuss their implications, and suggest recommendations for future research.

**Analysis and Findings.** The influx of Ukrainian refugees into host countries can pose security concerns, particularly related to border control, identification, and assimilation. This is because some refugees may have fake identification documents, which can compromise the security of the host country. Additionally, refugees are at risk of being exploited, including forced labour and human trafficking, which can also affect the safety of the host country. Furthermore, the arrival of refugees may worsen existing social tensions and increase the likelihood of conflict due to cultural and linguistic barriers that can lead to misunderstandings and mistrust. Despite being received more positively than previous refugee waves, Ukrainian refugees and migrants are still viewed as a potential security risk to the European Union.

The European Union is also worried about the return of about 10 million Ukrainian refugees to their country. According to a recent sociological survey by the United Nations High Commissioner for Refugees (UNHCR), the main reason cited by 86% of Ukrainian forced migrants for not returning to their homeland is the danger posed by the ongoing war in Ukraine. Even if the conflict ends, other significant challenges will remain, such as unemployment (mentioned by 32% of migrants), substandard housing (13%), lack of necessities (12%), and limited access to quality education for their children (10%) (3).

Franck Düvell (2022) proposed six scenarios for returning refugees in Ukraine. In the first two scenarios, the eastern part of Ukraine is heavily damaged, but most refugees would return to their homes, with an estimated 1.65 million or more settling in the EU. The third scenario involves Russia occupying some parts of Ukraine, leading to 4.5 million people being displaced, with 1.44 million fleeing to the EU and a total of 3.48 million Ukrainians settling in the EU long-term. The fourth scenario sees a large-scale displacement of up to 12-14 million Ukrainians, with 4.8 million becoming refugees in the EU. The fifth scenario depicts a complete Russian occupation, with up to 20.9 million Ukrainians aspiring to flee the country, leaving over 18.8 million seeking refuge in the EU. The final scenario provides no specific details but suggests that most Ukrainians would not have the aspiration to return (4).

In a 2022 survey of Ukrainian refugees in Poland, 42% wanted to return to Ukraine after the war, 17% aimed to settle permanently in Poland, and 11% planned to earn enough money to return. Some refugees expressed an urgent desire to return to Ukraine due to difficult living conditions. Only two refugees expressed interest in Polish citizenship, while two others planned to apply for

official refugee status. Approximately 16% of respondents did not provide a clear future plan, and 5% selected "Other" (5). A survey conducted in Slovakia found that around 65% of Ukrainian refugees expressed their intention to return to Ukraine once the situation improved, while around 21% did not have any clear long-term intentions and 9% planned to remain in Slovakia (6). In Romania, almost half of the surveyed refugees (47%) intended to return to Ukraine as soon as possible, while 28% planned to stay in Romania for a more extended period, and almost one-fifth expressed their intention to continue migrating to other countries (Zymnin, Kowalski, Sielewicz, Vlk, Focica., 2022). In Hungary, 44% of respondents expressed a desire to stay in Hungary for an indefinite period, while 31% did not know how long they wanted to stay, 15% expressed a desire to stay permanently, and only 10% reported wanting to stay for a fixed period. These findings suggest that a significant proportion of Ukrainian refugees in Hungary may have long-term settlement aspirations in the country (8).

The surveys suggest that:

- Ukrainian refugees share a desire to return to their home country as soon as the situation improves.
- Some refugees plan to remain in the host countries for a period of time to accumulate financial resources before returning to Ukraine.
- Many respondents expressed satisfaction with the hospitable environment provided by the host countries.
- The refugees left Ukraine mainly due to the ongoing war.

## Conclusion

Concerns about border control, identity, and integration have been raised because of the migration of Ukrainian refugees into host nations. Despite being welcomed more favourably than earlier refugee waves, Ukrainian migrants and refugees have been seen as a possible security danger to the European Union. While most Ukrainian refugees hope to return home once conditions improve, some have plans to stay permanently in their host nations, work to save money before leaving, or go to new countries. Significant obstacles, such as unemployment, inadequate housing, a lack of basics, and restricted access to high-quality education, face Ukrainian exiles returning to their country of origin.

## References

1. Luyten, K. (2022) March 22. Temporary Protection Directive. Retrieved from European Parliamentç Think Tank: https://www.europarl.europa.eu/thinktank/en/document/EPRS_BRI(2022)729331
2. Emmers, R. (2013). Securitzation. In A. Collins (Ed.), Contemporary Security Studies (third ed., pp.131-147). Oxford, United Kingdom: Oxford University Press.
3. Kravchenko, I., Zhuk, R. (2022). THE NEW MIGRATION WAVE FROM UKRAINE TO EU COUNTRIES: SCALE, FACTORS, CONSEQUENCES. Financial and Credit Activity Problems of Theory and Practice, 6(47) p.458-468. doi:https://doi.org/10.55643/fcaptp.6.47.2022.3931
4. Düvell, F. (2022, June 13). The war in Ukraine: Post-war scenarios and migration repercussions. Retrieved from Prague Process: https://www.pragueprocess.eu/en/migration-observatory/publications/34-briefs/332-the-war-in-ukraine-post-war-scenarios-and-migration-repercussions
5. Długosz, P., Kryvachuk, L., Izdebska-Długosz, D. (2022). Problems of Ukrainian refugees staying in Poland. Interdisciplinary Laboratory of Research in War in Ukraine, 1-5. doi:http://dx.doi.org/10.13140/RG.2.2.18756.09604
6. IOM. (2022). May 3. Ukraine Response 2022 - Slovakia Displacement Surveys Ukranian Refugees and Third Country Nationals: Displacement patterns, needs and intentions surveys, 9

March - 21 April 2022. Retrieved from dtm.iom: https://dtm.iom.int/reports/slovakia-displacement-surveys-refugees-ukraine-and-tcns-round-02-09-march-21-april-2022
7. Zymnin, A., Kowalski, M., Sielewicz, M., Vlk, R., Focica, T., Kowcun, S., Brusnyk, S. (2022). Ukrainian refugees in Poland, the Czech Republic and Romania. Warsaw: EWL S.A., Uniwersytet Warszawski.
8. HIA. (2022). September 20. Needs assessment among Ukrainian refugees in Hungary (23 June - 25 July 2022). Retrieved from reliefweb: https://reliefweb.int/report/hungary/needs-assessment-among-ukrainian-refugees-hungary-23-june-25-july-2022

Göndərildi: 28.03.2023 Qəbul edildi: 06.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/36-39

**Cəfər Qədirov**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
cefer6698@gmail.com

# QUBA-XAÇMAZ TURİZM BÖLGƏSİNİN TARİXİ VƏ MƏDƏNİ EHTİYATLARI

## Xülasə

Bu tədqiqatda tarixi-mədəni irs və mədəni turizminin qarşılıqlı əlaqəsi araşdırılır. Destinasiyanın həyat dövrü nəzəriyyəsindən istifadəyə, habelə tarixi-mədəni irs obyektlərinin və turizm sektorunun mövcud vəziyyətinin qiymətləndirilməsinə əsaslanır. Regionun mədəni potensialı ilə tanış olduqdan belə nəticəyə gəlmək olar ki, Quba-Xaçmaz bölgəsi zəngin tarixi-mədəni irsə görə mədəni turizminin inkişafı üçün kifayət qədər əsasa malikdir və bu, təkcə turizmin deyil, həm də regionun digər sosial-iqtisadi sistemlərinin inkişafına şərait yarada bilər. Quba-Xaçmaz iqtisadi rayonunun turizm destinasiyalarının əlaqəli şəkildə öyrənilməsi gələcəkdə bu istiqamətdə tədqiqat işinin genişləndirilməsinə şərait yaradacaq. Tarixi-mədəni ehtiyatların ayrı-ayrılıqda öyrənilməsi, onlardan səmərəli istifadə edilməsinin vacibliyi vurğulanır.

***Açar sözlər:*** *Mədəni turizm, tarix, abidə, turizm, mədəni irs*

**Jafar Gadirov**
Azerbaijan State University of Culture and Arts
master student
cefer6698@gmail.com

## Historical and cultural resources of the Guba-Khachmaz tourist region

## Abstract

This study deals with the study of historical and cultural heritage and cultural tourism. It is based on the use of the theory of the life cycle of the destination, the assessment of historical and cultural heritage sites and the state of the tourism industry. In order to get acquainted with the cultural potential of the region, it can be concluded that the Guba-Khachmaz region has a long-term foundation for the development of cultural tourism due to its modern historical and cultural heritage, and this can create the development of not only tourism, but also other socio-economic systems in the region. The related study of the tourism destinations of the Guba-Khachmaz economic region will create conditions for the expansion of research work in this direction in the future. The importance of studying historical and cultural resources separately and using them effectively is emphasized.

***Keywords:*** *cultural tourism, history, monument, tourism, cultural heritage*

## Giriş

Hazırda turist səfərlərinin beynəlxalq strukturunda mədəni-maarifləndirmə motivləri ilə edilən səfərlər daha çox populyarlıq qazanır. Abidələrin və Maraqlı Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şuranın İCOMOS-un məlumatına görə, qlobal turist axınının strukturunda aparıcı rol mədəni və dərketmə səfərlərə aiddir (Convention Concerning the Protection of the World Cultural and Natural Heritage, 1972).

Mədəni turizmin və tarixi-mədəni irsin rolunu və əlaqəsini müəyyən etmək üçün “mədəni-maarifləndirici turizm” anlayışının dəqiq və tam tərifini vermək lazımdır. Müxtəlif elm və təşkilatlar turizmin “mədəni”, “tarixi-mədəni”, “mədəni-maarifləndirici” kimi növlərini fərqləndirdiyindən və mənaları arasında incə xətt olduğundan bu tərifi anlamaqda problemlər var. Bütün bu təriflərin oxşarlığı ondadır ki, onların hamısı belə səyahətin məqsədini gəldikləri bölgənin

mədəniyyəti və tarixi ilə tanış olmaqda, həm də yeni biliklər əldə etməkdə və bu mədəniyyətlə tanış olmaqda görürlər.

Turizm sektorunda fəaliyyət göstərən beynəlxalq və milli təşkilatlar tarixi və mədəni irs anlayışını müxtəlif cür şərh edirlər. Bununla belə, onlar yekdil fikirdədirlər ki, tarixi-mədəni irsin özündən əvvəlki nəsillər tərəfindən toplanmış mədəni, mənəvi, mental dəyərlər toplusunu daşıyır.

Belə ki, "irs" anlayışı əvvəlki nəsillər tərəfindən yaradılmış, qorunub saxlanılan və Yer kürəsinin mədəni və təbii genofondunun qorunması üçün müstəsna əhəmiyyət kəsb edən maddi-intellektual və mənəvi dəyərlər sistemi deməkdir (Soltanova, 2015).

Mədəni turizmin müxtəlif təriflərini təhlil etdikdə məlum olur ki, bu məsələ ilə bağlı üç baxış var. Birinci nöqteyi-nəzərdən, müəlliflər turizmin yeni növünün yarandığını hesab edərək, eyni konsepsiya üçün yeni təriflər formalaşdırırlar. Bundan əlavə, onlar turizmin müstəqil növləri kimi "mədəni" və "koqnitiv"i ayırırlar, eyni zamanda "koqnitiv"i turizmin xüsusi kateqoriyasına ayırırlar. Digərləri isə əksinə, "maarifləndirici" turizmi bir növ "mədəni" turizm hesab edirlər. Digərləri, "mədəni-maarifçilik turizmi" dedikdə, başqa terminlərə əməl edirlər, məsələn, "tarixi-mədəni", "ekskursiya", "ekskursiya və maarifləndirici" və ya "intellektual". Dünyanın ən məşhur və səlahiyyətli təşkilatlarından biri mədəniyyət sahəsi Abidələrin və Görməli Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şuradır (ICOMOS). ICOMOS həm ərazinin keçmişinin (irsinin), həm də indiki dövrünün dəyər və xüsusiyyətlərini nəzərə alaraq mədəni turizmin tərifinin şərhini verir. Deməli, mədəni turizm turizmin bir formasıdır ki, onun məqsədi səfər yerinin mədəniyyəti və mədəni mühiti, o cümlədən landşaftı ilə tanış olmaq, sakinlərin adət-ənənələri və həyat tərzi ilə tanış olmaq, bədii mədəniyyət və incəsənət, yerli sakinlərin asudə vaxtının müxtəlif formaları.Mədəni turizm mədəni tədbirlərə, muzeylərə, mədəni irs obyektlərinə baş çəkmək, yerli sakinlərlə təmasları əhatə edə bilər (3).

İCOMOS-un tərifinə görə mədəni turizminin cəlbedici obyektləri təkcə ərazinin mədəni landşaftı, incəsənəti, mədəni və tarixi irsi deyil, həm də insanların həyat tərzidir. Bu bölgədə yaşayan insanlar, adət-ənənələr, sosial mühit və s.

Bir çox alimlər mədəni turizmdə mədəni-tarixi, mədəni-tədbir, mədəni-etnik, mədəni-arxeoloji, mədəni-etnoqrafik, mədəni-antropoloji, mədəni-ekoloji, mədəni-dini və s. kimi istiqamətləri ayırırlar.

Bu anlayışları daha dərindən təhlil etmək üçün onları daha ətraflı nəzərdən keçirmək lazımdır:

- mədəni-tarixi turizm ölkənin tarixinə maraqdır, yaddaqalan yerlərə və tarixi abidələrə səfərləri, tarixə dair tematik mühazirələr, habelə digər tədbirləri əhatə edir;
- mədəni-tədbir turizmi ənənəvi və ya müasir səviyyədə səhnələşdirilmiş mədəni tədbirlərə və ya tədbirlərə (bayramlar, festivallar) səfərlər və onlarda iştirakdır;
- mədəni və dini turizm - dini və maarifləndirmə məqsədi ilə səfərlər, ibadət yerlərinə, ziyarət yerlərinə səfərlər, dinə dair tematik mühazirələr, dini adət-ənənələr, adət-ənənələr, ayin və ayinlərlə tanışlıq;
- ölkənin arxeoloji yerlərini gəzmək, qədim abidələri, qazıntı yerlərini ziyarət etmək, arxeoloji ekspedisiyalarda iştirak etmək məqsədi ilə mədəni-arxeoloji səfərlər həyata keçirilir;
- mədəni-etnoqrafik turizm etnik qrupun (xalqın və ya milliyyətin) mədəniyyətinə maraq göstərməyə, etnik mədəniyyət, həyat tərzi, geyimi, dili, folkloru, adət-ənənələri, etnik yaradıcılığı ilə tanışlıq məqsədi daşıyır;
- mədəni-etnik turizm – əcdad xalqına səyahət, onların orijinal xalqının mədəni irsi, etnik mövzu parkları, etnik qoruq əraziləri ilə tanışlıq;
- mədəni və antropoloji səfərlər etnik qrupun nümayəndələrinə münasibətdə onların antropoloji inkişafındakı marağa əsaslanır; bu növ səyahətin məqsədlərindən biri də müasir "yaşayış mədəniyyəti" ilə tanış olmaq ola bilər;
- mədəni və ekoloji turizm təbiət və mədəniyyətin simbiozuna, təbiət və mədəniyyət abidələrinə maraqla müəyyən edilir. Təbii və mədəni ansambllara səfərlər, mədəni və ekoloji proqramlarda iştirak daxildir.

Mədəni turizm turistləri memarlıq, arxeologiya, tarix, mədəniyyət, təbiət, adət-ənənələr, təbiət abidələri ilə tanış etmək məqsədi daşıyır. Koqnitiv turizmin əsasını zəngin ekskursiya proqramı, o cümlədən görməli yerləri, abidələri, muzeyləri, nadir təbiət obyektləri və hadisələri təşkil edir.

Haqqında danışdığımız bölgə Quba-Xaçmaz turizm bölgəsidir. Bölgə ölkənin şimal-şərq hissəsində yerləşir. Paytaxta yaxın məsafədə yerləşməsi bölgənin üstünlüyü hesab olunur. Çünki, məsafənin qısa olması turistlərin diqqətinin cəlb edən məqamlardandır.

Quba-Xaçmaz turizm bölgəsində eyni anda bir sıra turizm növlərinin inkişafı mümkündür. Mədəni, tarixi, qastronomik, etnoqrafik, turizm növləri bunlardan bir neçəsidir. Quba-Xaçmaz turizm bölgəsi şimal marşrut xətti üzərində yerləşən bir sıra abidələri özündə birləşdirir. Belə ki, bu istiqaməti seçən turistlər Xızı, Siyəzən, Şabran, Quba, Xaçnaz, Qusar kimi ərazilərdə mövcud olan tarixi-memarlıq nümunələri ilə tanış ola bilərlər (İsmayılova, 2017).

## Nəticə

Bu abidələrdən bəzilərinə nəzər salaq. **Mikayıl Müşfiqin Xatirə muzeyi** – Xızı rayonunda yerləşir. Əsasən daxili turizm əhəmiyyətli hesab olunur. Bildiyimiz kimi şairin qəbri olmadığına görə, muzeydə xüsusi diqqət çəkən eksponat rəmzi olaraq Nargin adasından gətiriliş torpaqdır. Həmçinin şairin həbs və ölüm hökmünə dair sənədlər də muzeydə qorunur.

**Gilgilçay müdafiə istehkamı** – dövlət tərəfindən mühafizə olunan abidələr siyahısına daxildir. “Xəzəryanı müdafiə istehkamları” komplleksinə daxil olmaqla, Ümumdünya Mədəni İrsin Siyahısına daxil edilməsi üçün tövsiyə olunub. İstehkam qədimliyi ilə seçilir. Beləki, tikintisi hələ bizim eradan əvvəl başlanmışdır. Bu sıddə daxil olan daha bir abidə Çıraqqaladır. **Çıraqqala** – V əsrə aid olan abidə möhkəm quruluşu ilə baş dayaq məntəqəsi olmuşdur. Tikintisində əsasən yonulmamış daşlardan istifadə olunub. 2003-cü ildən etibarən “Çıraqqala” tarixi kompleksi qoruq elan edilib (5).

**Quba Soyqırımı Memorial Kompleksi** – kompleks 1918-ci il kütləvi qırğınlarının nəticəsində həlak olan azərbaycanlıların xatirəsinə ucaldılıb. Burada yerləşən kütləvi məzarlıq 2007-ci ildə tikinti işləri zamanı aşkar edilib. Faktlar əsasında burada muzeydə yaradılıb (Abdullayev, 2008).

Tarixi əhəmiyyət kəsb edən və görünüşü ilə diqqət çəkən tikililərdən bir də Xaçmaz **Dəmiryolu vağzalı** – XIX əsrə aid tikili memarlıq üslubuna görə fərqlənir. Rayonda mövcud olan daha yeddi stansiya da tarixi əsər statusu qazanmışdır. Vağzal yaxınlığında yerləşən **Su qülləsi** – vaxtilə su qıtlığı yaşayan Abşeron yarımadasını su ilə təmin etmək məqsədilə yaradılmışdır. İlk dəfə dəmiryolu ilə su daşınması məhz buradan həyata keçirilmişdir.

**Lermonyovun ev muzeyi** – Qusar rayonunda yerləşir. Görkəmli rus yazıçısı sürgündə olduğu zaman Qusarda yaşadığı evdir (“Mədəniyyət” qəzeti, 2014). Lakin hal-hazırda ev şəxsi mülkiyyətdə olduğunda muzey kimi fəaliyyətini dayandırıb. Yazıçıya məxsus bəzi əşyalar isə Qusar Tarix-Diyarşünaslıq muzeyində qorunur.

**Şeyx Yusif türbəsi** – Qusar rayonunda yerləşən tarixi tikilidir. Türbənin işərisində Şeyx Yusifə məxsus qəbir və övladlarına aid olduğu güman edilən daha dörd qəbirdə mövcuddur.

**Şeyx Cüneyd türbəsi** – tikintisi XVI əsrə aid olunan türbə Səfəvi dövrünə aiddir, Qusar rayonu ərazisində yerləşir. Şeyx Cüneyd bildiyimiz kimi Şah İsmayılın babası olmuşdur (“Azadlıq” qəzeti, 2013). XV əsrdə Şirvana yürüşü nəticəsində Şirvanşahlar tərəfindən öldürülən Şeyx Cüneyd Qusar rayonunun Həzrə kəndində dəfn edilmişdir. Hakimiyyətin Şirvanda Səfəvilər tərəfindən ələ alınmasından sonra qəbir üzərində türbə inşa edilmişdir. Türbə Səfəvi memarlığı üslubunda tikilmişdir. Hal-hazırda türbə bərpaya ehtiyacı olan abidələrə aiddir.

**Əniğ qalası** – Orta əsrlərə aid olan bu qala Şahdağın ətəyində yerləşir. Ərəb yürüşlərindən müdafiə məqsədilə tikilmişdir.

## Ədəbiyyat

1. Convention Concerning the Protection of the World Cultural and Natural Heritage. (1972). Adopted by the General Conference of the United Nations Educational, Scientific and Cultural Organization on November 16.
2. Soltanova, H. (2015). Azərbaycan Respublikasında turizm və onun inkişafı, Bakı: 475 s.
3. ICOMOS International Council on Monuments and Sites.
4. URL:http://www.icomos.org/en/
5. İsmayılova, E. (2017). Tarixi və mədəni turizm, Bakı: 272 s.
6. http://www.anl.az/down/meqale/medeniyyet/2010/iyul/128825.htm
7. Abdullayev, Ə. (2008). Azərbaycanlıların mart soyqırımı unudulmur. Bakı: 107 s.
8. “Mədəniyyət” qəzeti. (2014). 11 iyun
9. “Azadlıq” qəzeti. (2013). 24 aprel, 14 s.

Göndərildi: 07.03.2023 Qəbul edildi: 26.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/40-47

**Səlcuq Yusifli**
Bakı Dövlət Universiteti
magistrant
yselcuq@gmail.com

# KOMMERSİYA SİRRİNİN REJİMİNİN POZULMASI ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNDƏKİ BOŞLUQLAR

**Xülasə**

Hər keçən gün daha da elektronlaşan bir dövrdə kommersiya sirri sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün xüsusi əhəmiyyətə malikdir. Lakin buna baxmayaraq kommersiya sirri üzrə Azərbaycan Respublikasının qanunvericiliyində bir sıra boşluqlar mövcuddur. Bu boşluqlara kommersiya sirrindən qeyri-qanuni istifadə anlayışının, habelə dəymiş zərərin müəyyən edilməsi üçün konkret faktorların mövcud olmaması daxildir.

Girişdə qeyd edilən boşluqların aktuallığı və onların aradan qaldırılmasında xarici təcrübənin rolundan bəhs edilir. Hazırkı məqalənin ikinci hissəsi kommersiya sirrinin rejiminin pozulması ilə nəticələnən hərəkətlərin tam dairəsini müəyyənləşdirir. Üçüncü hissə isə belə hərəkətlər nəticəsində dəymiş ziyanın aradan qaldırılması üsullarını və kommersiya sirri üzrə qanunvericiliyin pozulması nəticəsində yarana biləcək hüquqi məsuliyyət tədbirlərini nəzərdən keçirir. Nəticə hissəsində isə qanunvericilikdəki bu boşluqların aradan qaldırılması məqsədilə istifadə oluna biləcək təklifləri ümumiləşdirir və nəzərdən keçiririk.

***Açar sözlər*: *Kommersiya sirri, pozulma, istifadə, zərər, royalti***

**Seljuk Yusifli**
Baku State University
master student
yselcuq@gmail.com

## Gaps in the legislation of the republic of Azerbaijan regarding violation of trade secret regime

**Abstract**

In the modern digital age that is becoming more and more electronic with each passing day, trade secrets hold significant importance for businesses. However, despite their value, the legislation of the Republic of Azerbaijan concerning trade secrets has several gaps. These gaps include the absence of a definition for the illegal use of trade secrets and the lack of specific criteria for determining damages.

The introduction reviews the relevance of the topic and the importance of foreign legal acts in rectifying discussed gaps. The second part of this article outlines the various actions that constitute a misappropriation of the trade secret regime. The third part explores the remedies available to address the damages resulting from such actions and the legal measures of liability that may arise from the breach of trade secret legislation. In the conclusion, we summarize and discuss proposals to rectify these legislation gaps.

***Keywords*: *Trade secret, misappropriation, use, damage, royalty***

## Giriş

2014-cü ildə PwC və Məsuliyyətli Müəssisə və Ticarət Mərkəzi tərəfindən dərc edilən araşdırmanın nəticələrinə əsasən ABŞ-da mənimsənilmiş kommersiya sirlərinin ümumi dəyərinin illik 550 milyard dollara yaxın olduğu hesablanmışdır (1). Azərbaycan Respublikasına münasibətdə bu növ araşdırmalarla tanış olmaq mümkün olmasa belə Azərbaycan Respublikasının

qanunvericiliyində kommersiya sirrinin xüsusi yerə malik olduğunu qeyd etmək yanlış olmazdı. Azərbaycan Respublikasında kommersiya sirrinə dair münasibətlər 04 dekabr 2001-ci il tarixli, 224-IIQ nömrəli "Kommersiya sirri haqqında" qanun ("Qanun") ilə tənzimlənir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Qanunun 5-ci maddəsinə əsasən kommersiya sirrinin sahibi kommersiya sirrinin rejimini pozan və ya rejimin pozulmasına təhlükə yaradan hərəkətlərdən qanunvericiliyə uyğun olaraq müdafiə olunmaq və kommersiya sirrindən öz maraqları üçün istifadə etmiş şəxslərdən vurulan ziyanın əvəzini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.

Hazırkı məqalədə kommersiya sirrinin rejimini pozan hərəkətlər, habelə kənar şəxslərin hərəkətləri nəticəsində kommersiya sirri sahibinə dəymiş ziyan nəzərdən keçirilir. Nəzərə almaq lazımdır ki, hər iki məsələ də Azərbaycan Respublikasının qanunvericiliyində kifayət qədər ətraflı tənzimlənmir. Bu hal isə özü-özlüyündə xarici dilli hüquqi aktlar və mənbələrə istinad etmək zərurəti yaradır. Xüsusilə də kommersiya sirri hüququnun Azərbaycan Respublikasında uzun tarixə malik olmadığını və mövcud olan hüquqi aktların beynəlxalq və xarici hüquqi aktların yerli qanunvericiliyə uyğunlaşdırılması nəticəsində hazırlandığını nəzərə aldıqda hazırkı məsələnin təhlilini xarici mənbələrə istinad edərək həyata keçirmək məqsədəuyğun görünür.

Qeyd edilən xarici və beynəlxalq hüquqi aktlara münasibətdə ilk olaraq qeyd etmək lazımdır ki, 1995-ci ildə kommersiya sirlərinin beynəlxalq səviyyədə təhlükəsizliyini təmin etmək məqsədilə ABŞ və İsveçrənin birgə səyləri hesabına kommersiya sirlərini tənzimləmək məqsədilə Əqli Mülkiyyət Hüquqlarının Ticarətlə Əlaqəli Aspektlərinə dair Sazişə "açıqlanmamış məlumatların qorunması" başlığı altında yer alan 39-cu maddə daxil edilmişdir. Eyni zamanda Avropa İttifaqının "Açıqlanmayan nou-hau və biznes məlumatlarının (kommersiya sirri) qanunsuz əldə edilmə, istifadə və açıqlanmaya qarşı qorunması üzrə" Avropa Parlamenti və Şurasının 8 iyun 2016-cı il tarixli, 2016/943 nömrəli direktivi ("Direktiv") də kommersiya sirlərinin beynəlxalq və regional tənzimlənməsini həyata keçirən hüquqi akt kimi qeyd edilməlidir. Kommersiya sirri üzrə hüquqi aktlardan danışılırsa, ABŞ qanunvericiliyi və məhkəmə təcrübəsini xüsusi olaraq vurğulanmaması düzgün olmazdı. Mahiyyət etibarı ilə öz əsasını 19-cu əsrin ümumi hüquq və haqsız rəqabətin prinsiplərindən alan (Varadarajan, Fishman, 2019: 1062) kommersiya sirri hüququ ABŞ qanunvericiliyində geniş tətbiq dairəsinə malik "Kommersiya sirri üzrə vahid akt" ("UTSA") və əlbəttə ki, məhkəmə təcrübəsi vasitəsilə tənzimlənir.

**Kommersiya sirrinin rejimini pozan hərəkətlər.** Kommersiya sirri anlayışı ilə əlaqədar ilk olaraq qeyd etmək lazımdır ki, hər hansı bir resept, düstur, biznes layihəsi, müştəri siyahısı, qiymət siyahısı kimi kommersiya əhəmiyyətli məlumatlar kommersiya sirri hesab oluna bilər (Bouchoux, 2012: 469). Eyni zamanda qeyd etmək lazımdır ki, məlumat ictimai şəkildə yayılmadığı, sərbəst əldə oluna bilən məlumata çevrilmədiyi və kommersiya dəyərini itirmədiyi müddətcə kommersiya sirrinə aid olmağa davam edir (Varadarajan, 2018: 1552). Başqa sözlə, məlumat kommersiya sirrinin hər üç meyarına malik olduğu müddətcə məlumat kommersiya sirri adı altında qorunmaq imkanına malik olur.

Kommersiya sirri adı altında qorunmaq imkanı dedikdə isə Qanunun 5-ci maddəsi xüsusi nəzərə alınmalıdır. Həmin maddəyə əsasən kommersiya sirrinin sahibi "*kommersiya sirrinin rejimini pozan və ya belə rejimin pozulmasına təhlükə yaradan hərəkətlərdən qanunvericiliyə uyğun olaraq müdafiə olunmaq*" hüququna malikdir. Bu zaman isə sual yaranır ki, kommersiya sirrinin rejimini pozan və ya pozulmasına təhlükə yaradan hərəkətlər dedikdə tam olaraq nə nəzərdə tutulur?

Xüsusi olaraq vurğulamaq lazımdır ki, UTSA-da kommersiya sirri üzrə hüquqların pozulması ilə nəticələnən hərəkətlər üç əsas hissəyə bölünmüşdür. Bunlar kommersiya sirrinin əldə olunması, istifadə olunması və yayılmasıdır. Başqa sözlə, kommersiya sirri üzrə məlumat sahibinin hüquqları həmin məlumat kənar şəxslərə ötürülməklə yayıldıqda, qanuni əsaslarla əldə edilib qeyri-qanuni üsullarla istifadə edildikdə və ya qeyri-qanuni üsullarla əldə edildikdə pozulmuş hesab olunur. Qeyri-qanuni istifadə və ya əldə etmə kommersiya sirrinin bir hissəsinin məlumat sahibinin razılığı olmadan istifadəsi və ya birgə mülkiyyətdə olan kommersiya sirrinin birgə mülkiyyətçilər arasındakı razılığa zidd olaraq istifadəsi zamanı mövcud ola bilər (Quinto, 2012: 47).

Oxşar yanaşmalar Avropa İttifaqının qanunvericiliyində də öz əksini tapır və üzv dövlətlərdən məlumat sahiblərini kommersiya sirrinin qeyri-qanuni əldə olunması, istifadəsi və yayılmasından mühafizə etməyi tələb edir.

Azərbaycan Respublikasının qanunvericiliyi və Qanuna münasibətdə isə qeyd etmək vacibdir ki, Qanunda kommersiya sirri üzrə pozuntulara dair əsas iki anlayış mövcuddur. Bunlar "*kommersiya sirrini yaymaq*" və "*kommersiya sirrinin əldə olunmasının qeyri-qanuni üsulları*"dır.

Lakin yuxarıda qeyd edilən xarici qanunvericilik aktları ilə Qanun müqayisəli şəkildə nəzərdən keçirildiyi təqdirdə ciddi bir fərq ortaya çıxır. Belə ki, Qanunda kommersiya sirrinin qeyri-qanuni və ya kommersiya sirri üzrə pozuntu hesab olunacaq üsulla istifadə olunmasını nəzərdə tutan anlayış mövcud deyil. Başqa sözlə, xarici qanunvericilik aktları kommersiya sirri üzrə pozuntu dedikdə məlumatın əldə olunması, istifadəsi və yayılmasını nəzərdə tutursa da, Azərbaycan Respublikasının qanunvericiliyi yalnız məlumatın əldə olunması və yayılmasını nəzərdə tutur.

Kommersiya sirrindən istifadə edilmənin hüquqi nəticələri barədə Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına nəzər yetirdikdə də vəziyyətin qənaətbəxş olmadığı aydın görünür. Belə ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 72 və 199-cu maddələri kommersiya sirrinin yalnız yayıldığı halda işəgötürənin hüquqlarının və işçinin vəzifə öhdəliklərinin pozulduğunu nəzərdə tutur. Bu halda isə işçinin işəgötürənin kommersiya sirrindən işəgötürənin müəyyən etdiyi qaydaya və ya kommersiya sirrinin rejiminə zidd, faktiki olaraq yalnız öz maraqları üçün istifadə etməsi halında hər hansı bir hüquqi məsuliyyət nəzərdə tutulmamışdır. Bu isə özü-özlüyündə kommersiya sirrinin sahibi olaraq işəgötürənin kommersiya sirri üzrə hüquqlarını müdafiə etməsini və bu məlumatlar üzrə pozuntunun qarşısını almasını çətinləşdirir.

Azərbaycan Cinayət Məcəlləsinin 202-ci maddəsi və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 431-ci maddəsinə nəzər yetirdikdə isə bu dəfə kommersiya sirrindən "*tamah və ya başqa şəxsi niyyətlə qanunsuz yolla istifadə edilməsi*" ifadələrini görmək mümkündür. Lakin bu zaman da kommersiya sirrindən "istifadə" dedikdə nəyin nəzərdə tutulduğunu müəyyənləşdirmək üçün yenidən Qanunu nəzərdən keçirmək lazımdır. Onu da qeyd etmək lazımdır ki, kommersiya sirri üzrə azsaylı yerli mənbələrdən biri bu maddələri nəzərdən keçirən zaman kommersiya sirrindən "istifadə" məsələsinə toxunmur və yalnız məlumatın yayılması və əldə edilməsini əsas götürür (Əliyev, Rzayeva, İbrahimova, Məhərrəmov, Məmmədrzalı. 2019: 202). Bu halın özü də Azərbaycan Respublikasının qanunvericiliyi və yerli mənbələrdə kommersiya sirindən qeyri-qanuni istifadəyə kifayət qədər diqqət yetirilmədiyini göstərir.

Doğrudur ki, bir neçə məqamda Qanunda da "istifadə edilmə" ifadəsi ilə üzləşmək mümkündür. Bunlara nümunə olaraq Qanunun 5.0.4-cü maddəsinə əsasən kommersiya sirrinin sahibi həmin sirdən öz maraqları üçün istifadə etmiş şəxslərdən vurulan ziyanın əvəzini məhkəmə qaydasında almaq hüququna malikdir. Qanunun 6.2-ci maddəsində isə kommersiya sirri sahibinin həmin sirdən istifadə olunma şərtini sərbəst seçmək hüququ əks olunmuşdur. Lakin birbaşa istifadə olunma anlayışının Qanunda verilməməsi bu bəndlərin tətbiqini çətinləşdirir. Belə ki, kommersiya sirrindən öz maraqları üçün istifadə dedikdə onun yayılması və ya qeyri-qanuni üsulla əldə edilməsimi nəzərdə tutulur, yoxsa faktiki olaraq istifadə edilməmi nəzərdə tutulur? İstifadə hansı hallarda kommersiya sirri üzrə pozuntu hesab olunur? kommersiya rejiminə zidd olduğu andamı yoxsa, məlumat sahibinin maraqlarından başqa istənilən kənar şəxsin maraqları üçün istifadə edildikdəmi?

Aydındır ki, yuxarıda qeyd edilən xarici qanunvericilik aktları nəzərdən keçirildikdən sonra bu hissədə bəzi sualların cavabını müəyyən etmək mümkündür. Lakin, Azərbaycan Respublikasının məhkəmələrində Qanunun tətbiqi zamanı "*istifadə*" anlayışını tənzimləyən normaların olmadığını və məhkəmələrin kommersiya sirri üzrə xarici təcrübəni bir çox hallarda araşdırmadığı, nəzərə almadığı və tətbiq etmədiyini nəzərə alaraq məhkəmələrin kommersiya sirri üzrə pozuntuları yalnız yayılma və qeyri-qanuni əldə edilmə əsası ilə nəzərdən keçirəcəyini hesab edirik (7).

İstifadə edilmənin kommersiya sirri üzrə pozuntu hesab edilməsinin vacibliyi Amerika Birləşmiş Ştatlarında həyata keçirilmiş araşdırmanın nəticələri nəzərdən keçirildikdə daha da aydın görünür. Belə ki, Amerika Birləşmiş Ştatlarında 2000-2014-cü illər ərzində kommersiya sirri üzrə baş vermiş məhkəmə mübahisələri nəzərdən keçirildiyi təqdirdə həmin dövrdəki bütün

mübahisələrin 93 faizində kommersiya sirri üzrə pozuntunun məhz yalnız məlumatın düzgün olmayan üsulla istifadə olunması nəticəsində yarandığı iddia edilmişdir (Rowe, 2017: 186). Bu isə o deməkdir ki, kommersiya sirrindən "*istifadə edilmə*" kommersiya sirri üzrə pozuntuların əksəriyyətini təşkil edir və qanunvericilik çərçivəsində tənzimlənməsi məlumat sahiblərinin kommersiya sirri üzrə hüquqlarının təmin edilməsi cəhətdən böyük əhəmiyyət daşıyır.

Beləliklə, beynəlxalq təcrübə və yuxarıda qeyd edilən xarici ölkələrin qanunvericiliyinə əsasən qeyd etmək mümkündür ki, törədildiyi təqdirdə kommersiya sirri üzrə hüquqların pozulması ilə nəticələnəcək üç əməl mövcuddur. Bunlar kommersiya sirrinin düzgün olmayan üsullarla əldə edilməsi, istifadəsi və yayılmasıdır. Azərbaycan Respublikasının qanunvericiliyində isə faktiki olaraq bu əməllərdən yalnız ikisi tənzimlənmişdir. Bunlar kommersiya sirrinin yayılması və qeyri-qanuni üsulla əldə edilməsidir. Kommersiya sirrindən qeyri-qanuni istifadənin tənzimlənməməsi isə mahiyyət etibarı ilə Azərbaycan Respublikasının qanunvericiliyində boşluq kimi qiymətləndirilməlidir.

Bu boşluğun aradan qaldırılması məqsədilə isə Qanunda köklü surətdə dəyişikliklərin edilməsi zəruridir. İlk addım olaraq Qanuna kommersiya sirrindən "*istifadə*" ifadəsini tənzimləyən anlayış əlavə edilməlidir. Bu çərçivədə yuxarıda qeyd edilən xarici qanunvericilik aktları ilə yanaşı 11 may 2010-cu il tarixli, 998-IIIQ nömrəli "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının qanunda nəzərdə tutulan "işlənilmə" anlayışından nümunə olaraq istifadə edilə bilər.

Eyni zamanda, kommersiya sirrindən düzgün olmayan və ya qeyri-qanuni istifadə anlayışı ilə qanuni istifadə anlayışları bir-birindən fərqləndirilməlidir. Bunun üçün isə kommersiya sirrinin rejiminə yalnız kommersiya sirrinin yayılmasının qarşısını almaq üçün icra olunan tədbirlər kimi deyil, həmçinin kommersiya sirrindən qanuni və düzgün istifadə edilmə qaydasını müəyyən edən şərtlər toplusu kimi yanaşmaq lazımdır. Başqa sözlə, əgər kommersiya sirri onun rejiminə uyğun istifadə edilibsə, qanuni istifadə edilmiş hesab edilməlidir. Əksinə kommersiya sirrindən istifadə onun rejiminə uyğun deyilsə və ya rejimdə nəzərdə tutulan şərtlərə ziddirsə, qeyri-qanuni istifadə hesab edilə bilər.

**Kommersiya sirrinin rejiminin pozulması zamanı icra edilə biləcək tədbirlər**. Yuxarıda da qeyd edildiyi kimi Qanunun 5.0.4-cü maddəsinə əsasən kommersiya sirri sahibinin hüquqlarından biri də "*kommersiya sirrindən öz maraqları üçün istifadə etmiş şəxslərdən vurulan ziyanın əvəzini məhkəmə qaydasında almaq*"dır. Bu zaman isə kommersiya sirrinə münasibətdə dəymiş ziyanın tam olaraq nədən ibarət olması sualı yaranır.

UTSA və xarici mənbələr qeyd edir ki, məlumat sahibinin kommersiya sirri üzrə hüquqlarına ziyan dəydiyi təqdirdə məlumat sahibi itirdiyi gəlirlər, habelə pozuntunu törətmiş şəxsin bu pozuntu nəticəsində əldə etdiyi əsassız gəlirlər həcmində kompensasiya, və ya ağlabatan həcmdə royalti əldə etmək hüququna malikdir (Smith, 2002: 162). Eyni zamanda kommersiya sirrinin sahibi kommersiya sirri üzrə hüquqlarını mühafizə etmək və gələcəkdə yarana biləcək ziyanın qarşısını almaq üçün müvəqqəti təminat tədbirlərinin həyata keçirilməsini tələb etmək hüququna malikdir.

Beləliklə, xarici mənbələr dəymiş ziyan çərçivəsində məlumat sahibinə dəymiş real zərərin və pozuntu nəticəsində əldə olunmuş əsassız gəlirlərin, habelə uyğun olduğu təqdirdə pozuntu nəticəsində məlumat sahibinə dəymiş mənəvi ziyanın, sanksiya xarakterli kompensasiya və məhkəmə xərclərinin (Dole, 2016: 17) ödənilə biləcəyini nəzərdə tutur. Dəymiş zərər müəyyən edilərkən itirilmiş fayda, məlumatın istifadə edilməsi nəticəsində bazar dəyərinin azalması, gözlənilməz xərclər və pozuntu nəticəsində təqsirli şəxsin əldə etdiyi üstünlüklər əsas götürülə bilər. Qeyd etmək lazımdır ki, pozuntunu törətmiş şəxsin bunun nəticəsində əldə etdiyi gəlirləri yalnız həmin şəxsin gəlirləri ehtimallar olmadan sübuta yetirildiyi təqdirdə tətbiq edilə bilər. Eyni zamanda kommersiya üzrə hüquqların qəsdən və qərəzli olaraq pozulduğu hallarda xarici hüquqi aktlar məlumat sahibinə Azərbaycan Respublikasının qanunvericiliyində tətbiq olunmayan sanksiya xarakterli kompensasiyanı əldə etmək hüququ verir. Kommersiya üzrə hüquqların qəsdən və qərəzli olaraq pozulması dedikdə isə məlumat sahibinin hüquqlarına şüurlu şəkildə etinasızlıqdan irəli gələrək həmin hüquqların kobud şəkildə pozulması nəzərdə tutulur (11).

Direktivdə qeyd edilmişdir ki, kommersiya sirrinin qeyri-maddi nemət olmasının nəzərə alınmaması kommersiya sirri üzrə münasibətlərdə əldən çıxmış fayda və ya əsassız varlanma üzrə dəymiş ziyanı müəyyənləşdirməyi çətinləşdirir. Belə hallarda həm Aİ, həm də ABŞ qanunvericiliyi pozuntunu törətmiş şəxsin məlumat sahibinə dəymiş zərər yerinə ağlabatan həcmdə royalti ödənilə biləcəyini nəzərdə tutur. Ağlabatan royaltinin həcmi müəyyən edilərkən həmin məlumat üzrə əvvəlki alıcıların ödədiyi məbləğ, məlumatın sahibi üçün dəyəri, pozuntunu törədən şəxsin məlumatdan istifadəsinin mahiyyəti və həcmi kimi xüsusi faktorlar nəzərə alınmalıdır. (12) Eyni zamanda kommersiya sirrinin rejimini pozan hərəkətin bu pozuntunu törədən şəxsin gəlirlərinin hansı hissəsini təşkil etdiyi nəzərə alınmalı və əgər bu gəlirlər şəxsin ümumi gəlirlərin bir hissəsini təşkil edirsə, royaltinin həcmi yalnız kommersiya sirindən qeyri-qanuni istifadə nəticəsində əldə edilmiş gəlirlər həcmdə olmalıdır (13).

Kommersiya sirrinin rejimini pozan və ya pozmaq təhlükəsi olan hərəkətlərə qarşı tətbiq oluna biləcək tədbirlərdən biri də kommersiya sirrinin əldə olunması, istifadəsi və ya yayılmasının qarşısını almağı və ya dayandırmağı nəzərdə tutan müvəqqəti təminat tədbirlərinin icra edilməsidir. Müvəqqəti təminat tədbirlərinin əsas üstünlüyü ondan ibarətdir ki, bu halda kommersiya sirri rejiminin pozulması nəticəsində məlumat sahibinə zərər dəydiyini sübut etməyə ehtiyac yoxdur. Lakin müvəqqəti təminat tədbirləri kommersiya sirrinə və onun rejiminin pozulması ilə nəticələnən hərəkətlərə uyğun olmalı və məlumat kommersiya sirrinə aid edilmədiyi andan icrası dayandırılmalıdır (Hrdy, 2021: 29).

Kommersiya sirri rejiminin pozulması zamanı xarici hüquqi aktlarda və xarici dilli mənbələrə əsasən icra edilə biləcək tədbirləri nəzərdən keçirdikdən sonra yerli qanunvericiliyə nəzər salmaq məqsədəuyğun olardı. Yuxarıda da bir neçə dəfə qeyd edildiyi kimi kommersiya sirri sahibi ‘kommersiya sirrinin rejimini pozan və ya belə rejimin pozulmasına təhlükə yaradan hərəkətlərdən qanunvericiliyə uyğun olaraq müdafiə olunmaq’ və ‘kommersiya sirrindən öz maraqları üçün istifadə etmiş şəxslərdən vurulan ziyanın əvəzini məhkəmə qaydasında almaq’ hüququna malikdır.

Qanunda nəzərdə tutulan bu iki hüquq nəzərə alınaraq qeyd etmək mümkündür ki, yerli qanunvericilik kommersiya sirrinin rejiminin pozulması zamanı yuxarıda qeyd edilən xarici hüquqi aktlarda nəzərdə tutulmuş tədbirlərdən yalnız bir hissəsinin icrasını tənzimləyir. Bunlar müvəqqəti təminat tədbirlərinin icra edilməsi və dəymiş zərərin ödənilməsidir. Müvəqqəti təminat tədbirləri Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi ilə tənzimlənir. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində birbaşa nəzərdə tutulmasa belə həmin məcəllənin 158.1.2 və 158.2-ci maddələri faktiki olaraq kommersiya sirrinin rejiminin pozulması ilə nəticələnən əldə olunma, istifadə və yayılmanın qarşısını alsın və ya müxtəlif şəxslərə bu hərəkətləri etməyi qadağan etsin. Yerli təcrübədə kommersiya sirlərinə münasibətdə müvəqqəti təminat tədbirlərinin icra edilməsinə çox rastlanmasa belə mahiyyət etibarı ilə yuxarıda qeyd edilmiş xarici mənbələrdə təsvir olunan ümumi şərtlər yerli qanunvericiliyə də tətbiq oluna bilər. Elə məhz bu səbəblə kommersiya sirrinə münasibətdə müvəqqəti təminat tədbirlərinin üzərində daha çox qalmayaraq növbəti məsələ olan dəymiş ziyanı nəzərdən keçirmək məqsədəuyğun olardı.

Qanunun 5.0.4-cü maddəsində qeyd edilmiş dəymiş ziyanı məhkəmə qaydasında tələb etmək hüququ istisna olmaqla Qanun dəymiş ziyanın müəyyən edilməsi kimi digər zəruri məsələləri tənzimləmir. Bu halda isə dəymiş ziyan üzrə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının Mülki Məcəlləsinin “zərərin əvəzinin ödənilməsi” başlıqlı 21-ci maddəsi nəzərə alınmalıdır. Həmin maddəyə əsasən hüququ pozulmuş şəxs real zərər adlanan ‘pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi’ nəticəsində formalaşan zərəri, habelə əldən çıxmış fayda adlanan ‘hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirləri əldə etmək hüququna malikdir.

Beləliklə, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən kommersiya sirrinin sahibi ona məxsus məlumatlar üzrə kommersiya sirrinin rejimi pozulduğu təqdirdə bunun nəticəsində ona dəymiş real zərəri və əldən çıxmış faydanı tələb edə biləcək. Eyni zamanda kommersiya sirrinin sahibi kommersiya sirinin rejiminin pozulmasının qarşısını almaq üçün müvəqqəti təminat

tədbirlərini tətbiq edilməsi imkanına malik olacaq. Lakin bütün bunlara baxmayaraq hazırkı yazının ikinci hissəsində olduğu kimi bu hissədə qeyd edilən məsələlər üzrə də Azərbaycan Respublikasının qanunvericiliyində bir sıra boşluqlar mövcuddur.

Belə ki, nə yerli qanunvericilik, nə də ki yerli məhkəmə təcrübəsi kommersiya sirrinin rejiminin pozulması nəticəsində dəymiş zərərin hesablanması üçün hər hansı üsul və ya faktor müəyyən etməmişdir. Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənən ziyan anlayışının kommersiya sirri üzrə münasibətlərə tətbiq edilməsi isə yaranmış boşluqları aradan qaldırmır. Bu isə kommersiya sirrinin rejiminin pozulması zamanı məlumat sahiblərinin həmin rejiminin pozulması nəticəsində zərər çəkdiklərini sübut etməsini, habelə çəkdikləri zərərə görə ödənilməli kompensasiyanın həcmini müəyyənləşdirməsini çətinləşdirir. Eyni zamanda dəymiş zərərinin həcminin müəyyənləşdirilməsinin çətin və ya mümkünsüz olduğu hallarda yuxarıda qeyd edilən xarici hüquqi aktlara əsasən tətbiq edilən royaltinin yerli qanunvericilikdə əks olunmaması kommersiya sirrinin rejiminin pozulması zamanı məlumat sahibinin pozulmuş hüquqlarının bərpasını daha da çətinləşdirir.

Bəzi hallarda isə bu problemlərin həlli üçün istifadə oluna biləcək normalar yerli qanunvericilikdə digər hüquqi məsələlərə münasibətdə artıq tətbiq olunur. Belə ki, dəymiş zərərin təhlili çərçivəsində kommersiya sirri üzrə münasibətlərə patent hüququna dair normalardan istifadə edilməsi məsələsinə artıq xarici mənbələrdə də geniş istinad olunur. Kommersiya sirrinə əqli mülkiyyət olaraq yanaşılmasının müasir tendensiya olduğunu nəzərə aldıqda bu hal o qədər də şübhə doğrultmamalıdır. Eyni zamanda nəzərə almaq lazımdır ki, patentlər və müəlliflik hüquqları kimi kommersiya sirri hüququ da qeyri-maddi əşyalar üzrə hüquqları mühafizə edir.

Bütün bunlar isə onu deməyə əsas verir ki, əqli mülkiyyət hüquqlarının müdafiəsini təmin edilməsi və onların sahiblərinin maraqlarının qorunması, habelə bu sahədə hüquqpozmalar üzrə münasibətləri tənzimləyən "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunun ("Əqli Mülkiyyət haqqında Qanun") kommersiya sirri üzrə qanunvericilikdəki boşluqların doldurulmasında xüsusi əhəmiyyətə malikdir. Bu qanun nəinki ikinci hissədə vacibliyi vurğulanmış qeyri-qanuni istifadə anlayışını özündə əks etdirir, həmçinin zərərin əvəzinin ödənilməsi və məhkəmə yolu ilə əqli mülkiyyət hüquqlarına münasibətdə xüsusi müvəqqəti təminat tədbirləri formasında xüsusi tədbirlərin icrasını tənzimləyir.

Əqli Mülkiyyət haqqında Qanunun 6.2-ci maddəsində əqli mülkiyyət hüquqları üzrə zərər müəyyən edilərkən nəzərə alınmalı hallar əks olunmuşdur. Təsadüfi hal deyildir ki, bu qanunda qeyd edilən hallar xarici hüquqi aktların kommersiya sirrinə münasibətdə zərərin müəyyən edilməsi zamanı istifadə edilən hallarla eynidir. Belə ki, həmin maddəyə əsasən zərər müəyyən edilən zaman 'əqli mülkiyyətdən qeyri-qanuni istifadə nəticəsində hüquqpozmaya yol vermiş şəxsin əldə etdiyi gəlirlər', 'pozulmuş hüquqların bərpası üçün vəkilə ödənilən haqlar da daxil olmaqla çəkdiyi xərclər' və əldən çıxmış fayda nəzərə alınmalıdır.

Əqli Mülkiyyət haqqında Qanunun 7-ci maddəsində isə 'malların kompensasiya ödənilmədən ticarət şəbəkəsindən çıxarılması, malların hazırlanmasında (istehsalında) istifadə olunan materialların və avadanlıqların istifadəçidən götürülməsi, müsadirə və ya məhv edilməsi' kimi tədbirlərin məhkəmə qaydasında tətbiq edilə biləcəyi qeyd edilmişdir.

Bəşəriyyətə qarşı cinayətlərin kontekst elementi olan mülki əhaliyə qarşı hücum (həmçinin beynəlxalq cinayət aktlarının bu kateqoriyasının birbaşa elementləri) mütləq silahlı zorakılıq xarakteri daşımır, müharibə cinayətləri isə bir qayda olaraq, ondan ayrılmazdır.

Soyqırım cinayət kimi ilk dəfə beynəlxalq aktda - BMT Baş Assambleyasının 1 dekabr 1946-cı il tarixli 96 saylı qətnaməsində müəyyən edilmişdir. Bundan sonra BMT Baş Assambleyasının 21 noyabr 1947-ci il tarixli 180 (11) saylı qətnaməsində soyqırımın beynəlxalq cinayət kimi həm dövlətlərin, həm də ayrı-ayrı şəxslərin məsuliyyət daşıdığı vurğulanmışdır.

Bir çox müəlliflər qeyd edirlər ki, mahiyyət etibarı ilə beynəlxalq hüquqi aktlarda bu əməlin cinayət və cəzalılığının müəyyən edilməsi ilə dünya mədəniyyətinin hüquqi fenomeni kimi beynəlxalq cinayət hüququnun formalaşması prosesi başlamışdır. BMT Baş Assambleyasının 3-cü sessiyasında 9 dekabr 1948-ci il tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya (bundan sonra "Soyqırımı Konvensiyası") qəbul edilərək imzalanmağa açılmışdır.

Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən Əsasnamənin 6-cı maddəsinin tətbiqi üçün Ruanda və Yuqoslaviya üzrə ad hoc Tribunalların təcrübəsi həyati əhəmiyyət kəsb edir ki, bu da bir çox problemləri üzə çıxarıb. Tribunallar bir çox hüquqi suallarla üzləşmişlər ki, onların cavabları nə beynəlxalq hüquqi sənədlərdə, nə də dövlətlərin təcrübəsində yer almamışdır. Tribunallar öz qərarları ilə soyqırım cinayətinin tərifində olan boşluqları doldurmağa çalışıblar. Yenə deyirəm ki, məhz bu Tribunalların təcrübəsi, əsasən, Beynəlxalq Cinayət Məhkəməsinin Hazırlıq Komitəsi

tərəfindən "Soyqırım cinayətinin elementləri" layihəsinin hazırlanmasında bələdçi rolunu oynamışdır. Xatırladaq ki, Ruanda və Yuqoslaviya Tribunallarının təcrübəsini nəzərə alaraq, belə problemlərin qarşısını almaq üçün beynəlxalq cinayətlərin elementlərinin təsisini nəzərdə tuturdu. Yuxarıdakı maddəyə əsasən, beynəlxalq cinayətlərin elementləri "6, 7 və 8-ci maddələrin təfsirində və tətbiqində Məhkəməyə kömək edir. Onlar İştirakçı Dövlətlərin Assambleyası üzvlərinin üçdə iki səs çoxluğu ilə qəbul edilir". Beynəlxalq cinayətlərin elementləri institutunun yaradılması, ilk növbədə, soyqırımı cinayətinin cinayət tərkibinin müəyyən edilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, soyqırım müəyyən bir qrupu tam və ya qismən məhv etmək niyyəti ilə birləşən müxtəlif növ əməlləri özündə birləşdirən mürəkkəb hadisədir. Hazırlıq Komitəsi soyqırımı cinayətini təşkil edən əməllərin hər biri üçün ayrıca elementlər işləyib hazırlamışdır (Abbasov, 2014: 22-27).

BCM Əsasnaməsinin 6-cı maddəsi, 1948-ci il Soyqırımı Konvensiyasının 2-ci maddəsinə əsasən, soyqırım cinayətinin eyni tərifi Ruanda və Yuqoslaviya Tribunallarının Nizamnaməsində təsbit edilmişdir, lakin nə ad hoc Tribunalların Nizamnaməsində, nə də BCM-in Nizamnaməsində soyqırım cinayətinə dair hər hansı rəsmi istinad yoxdur. Genosid Konvensiyası, ondan belə nəticəyə gəlmək olar ki, bu cinayət adətən qanuni xarakter daşıyır. Soyqırımı cinayətinin yuxarıdakı tərifi hamı tərəfindən tanınıb, bu günə qədər dəyişməyib (Səməndərov, 2019: 57-72).

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi insanlığa qarşı cinayətləri müəyyən edən ilk beynəlxalq müqavilədir. Roma Əsasnaməsinin 7-ci maddəsi insanlığa qarşı cinayət sayılan geniş spektrli əməlləri nəzərdə tutur. Əsasnamə insanlığa qarşı cinayətləri müəyyən edərkən, heç bir silahlı münaqişə ilə əlaqəni tələb etmir, baxmayaraq ki, insanlığa qarşı cinayətlərin törədilə biləcəyi şərtləri müəyyən edir.

Sənədə görə "insanlığa qarşı cinayətlər" hər hansı mülki şəxsə qarşı geniş yayılmış və ya sistematik hücumun bir hissəsi kimi və belə bir hücum bilərəkdən törədildikdə, müvafiq hərəkətlər deməkdir.

Bu tərif Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsində göstərilən qadağan olunmuş hərəkətlərdən birinin insanlığa qarşı cinayət kimi təsnif edilməsi üçün yerinə yetirilməli olan iki ümumi şərti ehtiva edir.

Birinci şərt iki alternativ tələbdən, yəni genişmiqyaslı hücumdan və ya sistemli hücumdan ibarətdir. İkinci şərt, edilən hücumun şüurudur. Mərkəzləşdirilmiş rəhbərlik və sanki sistematik olaraq onun planlaşdırılması 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatının Hərbi Cinayətlər Komissiyasının Hüquq Komitəsi öz qərarlarından birində "tək pozuntuların insanlığa qarşı cinayət anlayışına daxil olmadığını" göstərmişdi (Dormann, 1999: 71).

Bəzi hüquqşünaslar iddia edirlər ki, bəşəriyyətə qarşı cinayətlər əslində fərdi qurbanlara qarşı törədilən əməllərlə yanaşı, kütləvi cinayətlərdə iştirak aktlarını da əhatə etməlidir. Bu günə qədər BCM-in Roma Əsasnaməsi insan hüquqlarının cinayət pozuntusuna görə məsuliyyəti nəzərdə tutan beynəlxalq cinayət hüququ normalarını tam şəkildə kodlaşdıran beynəlxalq hüquqi aktdır. Eyni zamanda, insan hüquqlarının cinayət xarakterli pozuntularının beynəlxalq cinayətlər kimi təsnifləşdirilməsində, beynəlxalq cinayət hüququ ilə məsuliyyətə səbəb olan və BCM-in yurisdiksiyasına daxil olan ən mühüm kontekst elementi və ya bu cinayət əməllərinin bu cinayətlərlə əlaqəsini müəyyən edən hallardır: cinayətkar soyqırımı, hər hansı mülki şəxsə geniş və ya sistemli hücum (insanlığa qarşı cinayətlər), silahlı münaqişələr (müharibə cinayətləri) (Werle, 2014: 274 ).

Ümumiyyətlə, qeyd etmək olar ki, beynəlxalq cinayətlərin konkret elementlərinin Əsasnamə ilə kodlaşdırılması beynəlxalq cinayət hüququn defraqmentasiyası və fundamental insan hüquqlarının cinayətkar qəsdlərdən qorunması üçün universal hüquqi mexanizmin yaradılması istiqamətində mühüm addımdır (Engster, Daniel, 2004: 113-135).

## Nəticə

Mövzu ilə bağlı hərtərəfli araşdırma müəyyən etmişdir ki, iştirakçı dövlətlər Məhkəmənin tələbi ilə şəxslərin həbsini və BCM-ə təhvil verilməsini təmin etməlidir. Həbs və köçürülmə tələblərinə əməl etmək öhdəliyi axtarışda olan şəxsin vətəndaşlığından asılı olmayaraq tətbiq edilir. Vətəndaşlarının ekstradisiyası ilə bağlı milli qanunvericilik və ya konstitusiya qadağaları şəxslərin ona verilməsi ilə bağlı Məhkəmənin müraciətlərinə şamil edilmir və milli hakimiyyət orqanları bu əsasla köçürülmədən imtina edə bilməz. Xarici qanunvericiliyin təhlili, o cümlədən ali dövlət orqanlarının çıxardığı nəticələr göstərir ki, ilk növbədə dövlət məmurlarının toxunulmazlıqlarına aid olan, BCM-in yurisdiksiyasının xarakterini tamamlayan konstitusiya müddəalarına yenidən baxılması tələb olunur. BCM Prokuroru, dövlətin ərazisində araşdırma apararkən iştirakçı, iddia müddəti, amnistiya və digər müddəaları BCM Nizamnaməsinə uyğun olaraq həyata keçirməlidir. Terrorçuluq və narkotik qaçaqmalçılığı kimi cinayətlərin də məhkəmənin səlahiyyətinə aid olan cinayətlər sırasına daxil edilməsi, habelə zəhərli silah, zəhərli qaz kimi qadağan olunmuş silahlardan istifadəyə görə cinayət məsuliyyətinə cəlb edilməsi qərara alınmışdır.

## Ədəbiyyat

1. Friedmann, W. (1964). The Changing Structure of International Law / ed. by Wolfgang Friedmann, N. Y., Columbia University Press, p.238.
2. Allahverdiyev, Ə. (2017). Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər. Bakı: Elm, 396 s.
3. Abbasov, X.M. (2014). Ruanda Beynəlxalq Cinayət Tribunalı və soyqırımdan sonra Ruandada vəziyyət. “Qanun” – № 2.– s.22-27.
4. Səməndərov, F. Y. (2019). Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası. Bakı: Hüquq
5. Dormann, K. (1999). "The first and second sessions of the Preparatory Commission for the International Criminal Court", in YIHL, Vol. 2.
6. Werle, G. (2014). Principles of international criminal law: textbook. Oxford University Press, p.696.
7. Engster, Daniel. (2004). “Care Ethics and Natural Law Theory: Toward an Institutional Political Theory of Caring.” The Journal of Politics 66(1): p.113-135.

Göndərildi: 08.03.2023 Qəbul edildi: 09.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/63-65

**Ayxan Abbasov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
ismayilova2007@internet.ru

# QARABAĞ İQTISADİ RAYONUNDA TURİZM SEKTORUNUN İNKİŞAFINA STRATEJİ YOL XƏRİTƏSİNİN ƏSAS MÜDDƏALARI

**Xülasə**

Dağlıq Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində yerləşir. Əsasən etnik ermənilərdən ibarət bölgədir. 1990-cı illərin əvvəllərində region Azərbaycandan müstəqilliyini elan etdi. Nəticədə yüz minlərlə insanın didərgin düşməsi və Azərbaycanın bölgə üzərində nəzarəti itirilməsi ilə nəticələnən münaqişə baş verdi. Çoxsaylı atəşkəs razılaşmalarına və diplomatik səylərə baxmayaraq, 2020-ci ilin sentyabrında yeni döyüş alovlanması Azərbaycanın ərazinin böyük hissələrinə nəzarəti bərpa etməsi ilə nəticələnənə qədər münaqişə iyirmi ildən artıq bir müddət ərzində həll olunmamış qaldı. Bu məqalədə Qarabağ iqtisadi rayonunda turizm sektorunun inkişafina strateji yol xəritəsinin əsas müddəaları araşdırılmışdır.

***Açar sözlər:*** *turizm, Azərbaycan, Qarabağ, strateji yol xəritəsi, əsas müddəalar*

**Aykhan Abbasov**
Azerbaijan Tourism and Management University
master student
ismayilova2007@internet.ru

# The Main Provisions of the Strategic Road Map for the Development of the Tourism Sector in the Karabakh Economic Region

**Abstract**

Nagorno-Karabakh is located within the internationally recognized borders of Azerbaijan. It is a region consisting mainly of ethnic Armenians. In the early 1990s, the region declared its independence from Azerbaijan. As a result, a conflict occurred that resulted in the displacement of hundreds of thousands of people and the loss of Azerbaijan's control over the region. Despite numerous ceasefire agreements and diplomatic efforts, the conflict remained unresolved for more than two decades until a new outbreak of hostilities in September 2020 resulted in Azerbaijan regaining control of large parts of the territory. In this article, the main provisions of the strategic road map for the development of the tourism sector in the Karabakh economic region have been examined.

***Keywords:*** *tourism, Azerbaijan,Karabakh, strategic road map, basic provisions*

## Giriş

Tədqiqatın məqsədi Qarabağ iqtisadi rayonlarında turizm biznesinin öyrənilməsi, sənayedəki əsas tendensiyaları və problemləri müəyyən etmək, turizmin regiona iqtisadi təsirini qiymətləndirmək, böyümə və inkişaf imkanlarını müəyyən etmək, siyasət və qərarların qəbulu prosesində məlumatlandırmaqdır. Qarabağda turizm biznesinin xüsusiyyətlərini öyrənməklə tədqiqatçılar və siyasətçilər sənayenin güclü və zəif tərəflərini, eləcə də Qarabağda turizmin uğuruna təsir edən amilləri daha yaxşı başa düşə bilərdilər.

Bu məqsədə çatmaq üçün aşağıdakı əsas vəzifələr seçilmişdir:

1.Turizm biznesinin mahiyyəti və formalaşma mexanizmi; 2. Turist xidmətlərinin təsnifatı; 3. Qarabağda turizmin bölgələrə görə yerləşilməsi; 4. Qarabağ iqtisadi rayonunda turizmin inkişafında dövlət siyasətinin tətbiqi dairəsinin genişləndirilməsi və s.

Məqalənin yazılmasında müxtəlif metodlardan istifadə olunmuşdur. Belə ki, analiz və sintez metodları, müqayisəli təhlil metodları, statistik analiz metodlarından biri olan qrafik metodu istifadə edilmişdir. Analiz metodu vasitəsi ilə Qarabağda turizm bazarının vəziyyəti öyrənilmişdir. Sonra sintez metodu vasitəsi ilə araşdırdığımız faktlar ümumiləşdirilmişdir. Təhlil metodu isə bu araşdırdığmız faktların öyrənilməsinin əsasını qoymuşdur. Həmçinin bu elmi işdə müqayisəli təhlil metodundan da istifadə olunmuşdur. Dissertasiya işində öz əksini tapan statistik məlumatlar qrafik metodu vasitəsi ilə nümayiş etdirilmişdir.

Tədqiqat yalnız Qarabağ iqtisadi rayonlarında aparılmışdır.

Qarabağ İqtisadi Rayonu 2020-ci ildə əvvəllər mövcud olan Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının birləşdirilərək yaradılmış nisbətən yeni rayondur. Rayon zəngin mədəni irsi, mənzərələri və tarixi abidələri ilə səciyyələnir. Bununla belə, region Ermənistanla münaqişənin təsirinə məruz qalıb və bu, onun infrastrukturuna və turizm sənayesinə ciddi ziyan vurub.

Strateji Yol Xəritəsində Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycanın inkişafı və sabitliyi üçün vacibliyi etiraf edilir. Sənəddə münaqişənin ölkənin iqtisadiyyatına, təhlükəsizliyinə və sosial rifahına əhəmiyyətli dərəcədə mənfi təsir göstərdiyi etiraf edilir. Yol Xəritəsində münaqişənin həllinə və məcburi köçkünlərin öz evlərinə qayıtmasının təmin edilməsinə yönəlmiş bir neçə konkret məqsəd və tədbirlər müəyyən edilib. Yol Xəritəsinin əsas məqsədlərindən biri "işğal olunmuş ərazilərin azad edilməsini və məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasını təmin etməkdir" (1). Sənəddə Azərbaycanın ərazi bütövlüyünün bərpasının və məcburi köçkün əhalinin öz evlərinə qayıtmaq hüquqlarının təmin edilməsinin vacibliyi vurğulanır. Yol Xəritəsi bu məqsədə nail olmaq üçün bir sıra tədbirləri, o cümlədən Ermənistana öz qüvvələrini işğal olunmuş ərazilərdən çıxarmaq və münaqişənin həlli üçün danışıqlar aparmaq üçün təzyiq göstərmək üçün siyasi, diplomatik və hüquqi vasitələrdən istifadə etməyi nəzərdə tutur.

Qarabağ İqtisadi Rayonunda turizm sektorunun inkişafına dair strateji yol xəritəsi regionun turizm məkanı kimi tanıdılması, yerli və xarici investisiyaların cəlb edilməsi, məşğulluq imkanlarının yaradılması məqsədi ilə 2021-ci ildə hazırlanıb. Yol xəritəsi beş əsas müddəadan ibarətdir və bunlar aşağıdakılardır (2).

1.Turizm infrastrukturunun inkişafı: Yol xəritəsinin birinci müddəası regionda turizm infrastrukturunun inkişafına yönəlib. Buraya turistlərin yerləşdirilməsi üçün otellərin, kurortların, restoranların və digər obyektlərin tikintisi daxildir.

2. Mədəni irsin qorunması: Yol xəritəsinin ikinci müddəası regionun zəngin mədəni irsinin qorunub saxlanmasıdır. Buraya tarixi yerlərin, abidələrin və muzeylərin qorunması və bərpası daxildir.

3.Ekoturizmin təşviqi: Yol xəritəsinin üçüncü müddəası regionda ekoturizmin təşviqinə yönəlib. Hökumət zəngin biomüxtəlifliyi və təbii gözəlliyi ilə tanınan bir neçə sahə müəyyən edib. Hökumət təbiət həvəskarlarını cəlb etmək üçün gəzinti yolları, düşərgələr və digər obyektlər inkişaf etdirməyi planlaşdırır.

4. Mədəni turizmin təşviqi: Yol xəritəsinin dördüncü müddəası regionda mədəni turizmi təşviq etməkdir. Hökumət bölgənin mədəni irsini nümayiş etdirmək üçün mədəni tədbirlər, festivallar və sərgilər təşkil etməyi planlaşdırır.

5. Marketinq və brendinq: Yol xəritəsinin beşinci müddəası regionun turizm məkanı kimi bazara çıxarılması və brendləşdirilməsidir (Radic, Tesic, 2018: 74).

Qarabağ İqtisadi Rayonunda turizm sektorunun inkişafına dair strateji yol xəritəsi region üçün çoxsaylı iqtisadi səmərələr yaratmaq potensialına malikdir. Turizm infrastrukturunun inkişafının yerli sakinlər üçün məşğulluq imkanlarının yaradılması, ekoturizm və mədəni turizmin təşviqi ilə xarici investisiyaların cəlb edilməsi və regionun gəlirlərinin artması gözlənilir.

"Yol xəritəsi"nin digər məqsədi "azad edilmiş ərazilərdə infrastrukturun və sosial xidmətlərin inkişafı"dır. Sənəddə etiraf edilir ki, Dağlıq Qarabağ münaqişəsi zərər çəkmiş ərazilərdə infrastruktura və sosial xidmətlərə ciddi ziyan vurub. Yol Xəritəsində bu problemin həlli üçün konkret tədbirlər, o cümlədən regionun infrastrukturunun, mənzil-məişət və ictimai xidmətlərin yenidən qurulmasına dəstək üçün maliyyə və texniki yardımın göstərilməsi nəzərdə tutulur.

Sənəddə həmçinin iş yerlərinin yaradılması, kənd təsərrüfatının və turizmin inkişafı, investisiyaların cəlb edilməsi yolu ilə regionda iqtisadi inkişafın təşviq edilməsinin vacibliyi vurğulanır (Ələkbərov, 2020: 109).

Strateji Yol Xəritəsində münaqişənin humanitar nəticələrinin aradan qaldırılmasının zəruriliyi də etiraf edilir. Sənəddə məcburi köçkünlərə yardım və dəstəyin, o cümlədən mənzil, səhiyyə, təhsil və sosial xidmətlər göstərilməsinin vacibliyi vurğulanır. Yol Xəritəsində bu problemin həlli üçün bir sıra tədbirlər, o cümlədən köçkün əhaliyə maliyyə yardımı göstərmək üçün xüsusi fondun yaradılması və onların sosial və iqtisadi inteqrasiyasına dəstək proqramlarının yaradılması nəzərdə tutulur. Bununla belə yol xəritəsinin həyata keçirilməsində regionun üzləşə biləcəyi bəzi çətinliklər də var. "Region üzərində münaqişə bir neçə onilliklərdir ki, davam edir və bu yaxınlarda 2020-ci ildə Ermənistan və Azərbaycan arasında 2020-ci ilin noyabrında imzalanmış atəşkəs sazişi ilə başa çatan hərtərəfli müharibəyə çevrildi. Atəşkəs sazişinin bir hissəsi kimi Strateji Yol Xəritə regionda sülh və sabitliyin bərqərar olmasına kömək etmək üçün təklif edilib. Bununla belə, Yol Xəritəsinin həyata keçirilməsində bir sıra çətinliklər yarana bilər" (Cəfərov, Mehrəliyev, 2019: 11).

Atəşkəs sazişinin bir hissəsi kimi təklif olunan Strateji Yol Xəritəsi məcburi köçkünlərin geri qayıtması, nəqliyyat və kommunikasiya əlaqələrinin açılması, Ermənistanla Ermənistan arasında dövlət sərhədinin demarkasiyası daxil olmaqla bir sıra tədbirlər vasitəsilə regionda davamlı sülh və sabitliyin bərqərar edilməsini nəzərdə tutur (Quliyev, Rzayev. 2019: 14).

Nəqliyyat-kommunikasiya əlaqələrinin yenidən açılması "Yol xəritəsi"nin həyata keçirilməsi üçün daha bir problemdir. Qarabağ regionu ilə bağlı münaqişə Ermənistan və Azərbaycan arasında bir sıra nəqliyyat və kommunikasiya əlaqələrinin bağlanması ilə nəticələnib, iki ölkə arasında insanların və malların gediş-gəlişini çətinləşdirib. Bu əlaqələrin yenidən açılması siyasi və təhlükəsizlik problemləri ilə çətinləşə bilər, xüsusən də Ermənistandan Dağlıq Qarabağa gedən yol Azərbaycandan keçdiyi üçün. Bu əlaqələrin yenidən açılması həm də hər iki ölkədəki millətçi qrupların müqaviməti ilə üzləşə bilər və onlar bunu öz ərazi iddialarının güzəşti kimi qiymətləndirə bilərlər.

## Nəticə

Ermənistanla Azərbaycan arasında dövlət sərhədinin demarkasiyası da Yol Xəritəsinin icrasına çağırışdır. Sərhədin dəqiq yeri iki ölkə arasında mübahisə nöqtəsi olub və əsas infrastrukturun yeri ilə bağlı fikir ayrılıqları səbəbindən demarkasiya prosesi çətinləşə bilər.

Bütövlükdə, Azərbaycan Respublikasının İnkişafına dair Strateji Yol Xəritəsində Dağlıq Qarabağ münaqişəsinin həllinin ölkənin inkişafı və sabitliyi üçün vacibliyi qəbul edilir. Sənəddə münaqişənin müxtəlif aspektlərinin, o cümlədən ərazi bütövlüyünün bərpası, infrastrukturun və sosial xidmətlərin inkişafı, iqtisadi inkişafın təşviqi və dövlətlərə humanitar yardımın göstərilməsinə yönəlmiş bir sıra konkret məqsəd və tədbirlər müəyyən edilib.

## Ədəbiyyat

1. https://astanatimes.com/2019/10/ azerbaijan-aims-to-expand-tourism-sector-through-development-of-karabakh-region.
2. https://sia.az/az/ news| tourism/844259.html -Məmmədova K. "Qarabağın turizm potensialı"
3. Radic, D., Tesic, D. (2018). İqtisadi İnkişafda Turizmin Rolu. Journal of Applied Economics and Business, 6(1), Bakı: s. 73-85
4. Ələkbərov, M. (2020). Azərbaycanda Regional İnkişaf və Turizm. Beynəlxalq Davamlı İnkişaf və Planlaşdırma Jurnalı, 15(1), 107-118
5. Cəfərov, C., Mehrəliyev, R. (2019). Azərbaycanda turizm: cari vəziyyət və gələcək perspektivlər. Journal of Tourism and Hospitality Management, 7(1), 1-13
6. Quliyev, F., Rzayev, R. (2019). Azərbaycanda turizm sənayesinin təhlili. Journal of Tourism and Hospitality Management, 7(2), 14-27

Göndərildi: 22.02.2023 Qəbul edildi: 20.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/66-69

**Abdulla Feyzullayev**
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
magistrant
abdfey2000@gmail.com

# BİRİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ERMƏNİSTAN TƏRƏFİNDƏN AZƏRBAYCANA QARŞI TÖRƏDİLMİŞ BİR SIRA BEYNƏLXALQ CİNAYƏT ƏMƏLLƏRİ

**Xülasə**

Azərbaycan tarixinin qanlı səhifələrindən olan XX əsrin 90-cı illərinin əvvəlləri Birinci Qarabağ müharibəsi ilə səciyyələnir. Ermənistanın Azərbaycana qarşı apardığı bu əsassız müharibə mənfur düşmən tərəfindən törədilən saysız-hesabsız cinayət əməlləri ilə tariximizə qanlı hərflərlə yazılmışdır. Bu müharibə düşmənin yol verdiyi dünya tarixində misli görünməmiş vandalizm aktları ilə, müharibə qaydalarından, eyni zamanda insanlıqdan uzaq zorakılıq nümayiş etdirilməsi ilə yadda qalmışdır. Beynəlxalq hüquqi sənədlərin tələblərini heçə sayan düşmən müharibə qayda və metodlarından kənar hərbi əməliyyatlar aparmışdır. Bununla beynəlxalq humanitar hüququn əsas prinsiplərini pozaraq soydaşlarımızın ölümünə, eləcə də mülki obyektlərin yerlə-yeksan edilməsinə səbəb olmuşdur. Düşmənin barbarlığı ölkəmizin tarixi və maddi-mədəni irsinə də təsirsiz ötüşməmişdir, xeyli sayda tarixi və mədəni abidələr dağıdılmışdır. Ermənistanın törətdiyi cinayət əməlləri nəticəsində ölkəmizin ekosistemi də ciddi zərər görmüşdür.

***Açar sözlər:*** *Azərbaycan, Ermənistan, Birinci Qarabağ, müharibə, beynəlxalq, cinayət*

**Abdulla Feyzullayev**
The Academy of Public Administration under
The President of The Republic of Azerbaijan
master student
abdfey2000@gmail.com

## A number of international criminal acts committed by Armenia against Azerbaijan in the First Karabakh War

**Abstract**

One of the bloodiest pages in the history of Azerbaijan, the early 90s of the XX century is characterized by the First Karabakh War. This groundless war waged by Armenia against Azerbaijan has been written in bloody letters in our history with countless criminal acts committed by the hated enemy. This war was remembered by the acts of vandalism unprecedented in the history of the world committed by the enemy, by the display of violence far from the rules of war and at the same time inhumane. Ignoring the requirements of international legal documents, the enemy conducted military operations outside the rules and methods of war. By violating the basic principles of international humanitarian law, it caused the death of our compatriots, as well as the destruction of civilian objects. The enemy's barbarism did not leave the historical and material-cultural heritage of our country unaffected, a large number of historical and cultural monuments were destroyed. As a result of the criminal acts committed by Armenia, the ecosystem of our country has suffered serious damage.

***Keywords:*** *Azerbaijan, Armenia, First Karabakh, war, international, crim.*

## Giriş

Zəngin sərvətlərə, füsunkar təbiətə, qədim tarixə malik Azərbaycan daim yadellilərin hücumlarına məruz qalmışdır. Bu hücumlar içərisində ən amansız olanı isə iyirmi əsrin sonlarına təsadüf edən Ermənistan tərəfindən qəddarcasına həyata keçirilən hücumlar olmuşdur. Analoji hücumları edərkən mənfur düşmən nəinki humanitar hüququnun normalarını pozaraq hamılıqla qəbul olunmuş müharibə qanun və adətlərini nəzərə almamış, eyni zamanda beynəlxalq cinayət əməllərinin törədilməsi ilə yaddaşlarda qalmışdır. Amansız qatillər heç bir hüquq və əxlaq qaydası tanımayaraq xalqımıza qarşı alman faşistlərinin qəddarlığını belə kölgədə qoymuş, tükürpədən vandalizm aktlarına imza atmışdır.

**Beynəlxalq cinayət əməllərinin anlayışı və təsnifatı.**

Haqqında bəhs edəcəyim beynəlxalq xarakterli cinayət əməlləri beynəlxalq cinayət hüququnun tənzim etdiyi münasibətlərə aiddir. İlk öncə onu qeyd etmək istərdim ki, beynəlxalq hüquq dövlətlər arasındakı münasibətləri nizama salmaq üçün onların qarşılıqlı razılığı əsasında yaradılan hüquqi normalar sistemidir. Xarici siyasət və diplomatiya ilə sıx bağlı olan beynəlxalq hüquq dövlətlər arasında mövcud olan münasibətlər zəncirinin demək olar ki hər bir halqasını tənzim etmə gücünə malikdir (Hüseynov, 2012: 6).

Müasir beynəlxalq hüququn tərkib hissəsi kimi beynəlxalq cinayət hüququ beynəlxalq cinayətlərin qarşısının alınması və ona qarşı mübarizənin gücləndirilməsində müstəsna rol oynayaraq fiziki şəxslərin beynəlxalq cinayət məsuliyyətini müəyyən etməklə dövlətlərin qanuni maraq və mənafelərini qoruyur. Onu da qeyd etmək gərəkir ki, milli hüquq sistemlərinin mühüm bir qolu olan cinayət hüququndan fərqli olaraq, beynəlxalq cinayət hüququ yalnız beynəlxalq cinayət hüquq normalarını, başqa sözlə beynəlxalq xarakterli cinayət əməllərini tənzimləyən normaları özündə ehtiva edir.

Beynəlxalq cinayətlərin təsnifatına gəldikdə isə onu qeyd etmək istəyirəm ki, müxtəlif meyarlar əsasında fərqli təsnifat modelləri mövcuddur. Nəzərinizə çatdırmaq istədiyim təsnifat modellərindən biri Nürnberq Tribunalının Nizamnaməsində öz əksini tapan təsnifat modelidir: a) Sülh əleyhinə cinayətlər. Təcavüzkar müharibənin və ya hər hansı dövlətlərarası müqavilənin, sazişin müddəalarının pozulması ilə müharibənin planlaşdırılması, hazırlanması, başlanması və.s; b) Müharibə cinayətləri. Beynəlxalq humanitar hüquqla tanınan müharibə qanun və ya adətlərini, prinsiplərini pozmaq, müharibə nəticəsində işğal olunmuş ərazinin mülki əhalisini öldürmək, hərbi əsirlərə işgəncə vermək və.s; c) İnsanlıq əleyhinə cinayətlər. Müharibəyə qədər və yaxud müharibə baş verən zaman mülki əhalini qəsdən həyatdan məhrum etmək, onlara işgəncə vermək, etnik, dini və ya digər bu kimi əsaslara görə onları deportasiya etmək və.s (Allahverdiyev, 2017: 34).

Beynəlxalq cinayət əməllərinin təsnifat modeli barədə danışarkən qeyd etmək istədiyim digər təsnifat modeli Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsində nəzərdə tutulan beynəlxalq cinayət əməllərinin bölgüsüdür. Qeyd olunan sənəd 15.06.1998 – 17.07.1998 tarixində Birləşmiş Millətlər Təşkilatı Konfransının, İtaliyanın paytaxtı Romada qəbul etdiyi Beynəlxalq Cinayət Məhkəməsinin Qurulması haqqında statusdur. Adı çəkilən sənəddə öz əksini tapan təsnifat tipi aşağıdakı kimidir: müharibə cinayətləri; insanlıq əleyhinə cinayətlər; soyqırım; təcavüz cinayətləri (3).

**Birinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən Azərbaycana qarşı beynəlxalq cinayət əməllərinin törədilməsi.**

Azərbaycan tarixinin XX əsrinin 80-90-cı illərinə nəzər saldıqda görürük ki, xalqın yaddaşında qanlı izlərlə qalan səhifələrlə doludur. Bu qanlı səhifələrin baisi isə mənfur Ermənistan dövlətidir. “Böyük dövlət” yaratmaq kimi xülyalarla tanınan ermənilər və onların havadarları tarixdə daha çox öz terrorist tərəfləri ilə yadda qalıblar və hələ də terrorçuluq siyasətləri davam etməkdədir. Lakin onu qeyd etmək də gərəkir ki, bu terrorizmdən ən çox zərər çəkən məhz Azərbaycan xalqı olub, çünki tarix də sübut edir ki, ermənilərin ən genişmiqyaslı cinayət əməlləri Azərbaycan xalqına qarşı törədilib.

Təkcə 1988-1993-cü illər ərzində ermənilər tərəfindən həmvətənlərimizə qarşı 354 terror aktı törədilmişdir. Birinci Qarabağ müharibəsi dövründə (1988-1994) Azərbaycan Respublikasının

ərazisinin 20 faizi, yəni 17 min kvadrat-kilometri işğalçı Ermənistan tərəfindən qeyri-zorakı, müharibə qaydaları və adətlərindən, insanlıqdan kənar üsullarla qəsb olunmuşdur. 1991-ci ildə Azərbaycan tərəfindən ləğv edilən Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon, həmçinin Qazax, Tovuz, Gədəbəy rayonlarının Ermənistanla həmsərhəd əraziləri və Naxçıvan Muxtar Respublikasının inzibati rayonlarının ərazisi də işğal olunmuşdur. Nəticədə iyirmi mindən çox vətəndaşımız qətlə yetirilmiş, əlli mindən çox soydaşımız yaralanmışdır, minlərlə vətəndaşımızdan isə hələ də xəbər yoxdur. Eyni zamanda onu da qeyd etmək gərəkir ki, işğal nəticəsində xəstəxanalar, orta məktəblər, kitabxanalar, sənaye və kənd təsərrüfatı müəssisələri talan edilərək vandalcasına dağıdılmış, minlərlə iribuynuzlu mal-qara tələf edilmişdir (Məmmədov, Məmmədov, 2018: 88).

Birinci Qarabağ müharibəsi dövründə iri miqyaslı həbi əməliyyatların başlanması 1991-ci ilin sonlarına təsadüf edir. Qeyd olunan dövrdən başlayaraq Ermənistan havadarlarından əldə etdiyi hərbi texnika vasitəsilə sərhəd zonasında və eləcə də Qarabağ ərazisində hərbi əməliyyatlara başladı. Bu əməliyyatlar özünü zorakı xarakteri, birbaşa beynəlxalq cinayət hüquq normalarının pozulması ilə göstərirdi. Adı çəkilən əməliyyatlar içərisində xüsusi qeyd etmək istədiyim Azərbaycan xalqının heç bir zaman yadından çıxarmayacağı, ürək ağrısı ilə xatırladığı Xocalı soyqırımıdır. Xocalı soyqırımı barədə danışmazdan öncə soyqırım cinayətinin anlayışına nəzər salmaq istərdim. 1948-ci il 9 dekabr tarixində BMT tərəfindən qəbul edilən "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiya soyqırım cinayət əməlinin beynəlxalq hüquqi statusunu müəyyənləşdirir və hüquqi definisiyasını verir. Konvensiyanın 2-ci maddəsində deyilir ki, soyqırım cinayəti özündə milli, etnik, irqi və ya dini qrupu tam və ya qismən məhv etmək məqsədilə belə bir qrupun üzvlərinin öldürülməsi; bu cür qrup üzvlərinə ağır bədən və ya psixi zərər vurmaq; qrupun tamamilə və ya qismən fiziki məhvinə səbəb olmaq üçün hesablanmış həyat şəraitinin qəsdən yaradılması; qrup daxilində doğuşun qarşısının alınması üçün tədbirlər görmək; belə bir qrupun uşaqlarının zorla başqa bir qrupa köçürülməsi kimi əməlləri ehtiva edir (5).

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində də beynəlxalq təcrübədən qaynaqlanaraq beynəlxalq cinayətlərdən bəhs edən iki fəsildən ibarət bölmə vardır. Sülh və insanlıq əleyhinə cinayətlər fəslinin 103-cü maddəsi soyqırım adlanır və maddənin dispozisiyasında soyqırım anlayışına yuxarıda qeyd etdiyim kimi anlayış verilmişdir. Müvafiq maddənin sanksiyasında isə 14 ildən 20 ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur. Həmin fəsildə eyni zamanda soyqırımın törədilməsinə təhrik etmə maddəsi də təsbit olunmuşdur. Analoji maddədə 103-cü maddədə nəzərdə tutulmuş hər hansı bir əməlin törədilməsinə bilavasitə və açıq təhrik etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur və müvafiq olaraq cəza tədbiri kimi beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə müəyyən edilmişdir (Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 2018: 103-104).

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Xocalıya hücum etdilər. Mənfur düşmən ilk zərbəni strateji obyektlərdən olan hava limanına endirdi, burda müdafiəni 22 nəfərlik dəstə ilə milis mayoru, Azərbaycanın Milli Qəhrəmanı Əlif Hacıyev öz üzərinə götürmüşdü. Düşmənin 3 güclü hücumunu dəf edə bilən Əlif Hacıyev qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhadət zirvəsinə ucaldı. Həmin gecə şəhər yandırılmış, hava şaxtalı olduğu üçün ayağı yalın əhali qəddar düşmənin zorakılıqlarından qaçıb canını qurtarmaq istəyərkən donvurmadan həyatını itirmişdir. Erməni faşistləri dünya tarixində görünməmiş vəhşilik və ağlasığmaz qəddarlıqla köməksiz qoca, uşaq, qadın demədən qarşısına çıxanı öldürmüş, bununla da yetinməyib meyitləri tanınmaz hala salmışdır. Mənfur düşmən qadın və qızları təhqir etmiş, yaralılara dözülməz işgəncə vermişdir. Ümumilikdə 613 nəfər, o cümlədən 106 qadın, 83 uşaq, 70 qoca öldürülmüş, 1275 nəfər əsir alınmış, 8 ailə bütövlükdə məhv edilmiş, 56 nəfər isə amansızlıqla diri-diri yandırılmışdır. Gördüyümüz kimi qəddar düşmən yuxarıda qeyd etdiyim soyqırım beynəlxalq cinayət əməlinin obyektiv cəhətini təşkil edən bütün əməllərə əl atmış və bununla bir daha hüquqdan, insanlıqdan kənar bir xislətə malik olmasını nümayiş etdirmişdir (Məmmədov, 2009: 194).

Ermənistanın Azərbaycana qarşı təcavüz aktlarından biri də Ağdaban faciəsidir. Ağdaban kəndi Kəlbəcər rayonunda, Ağdaban dağının yamacında, Murovdağ silsiləsinin cənub ətəyində yerləşir. Birinci Qarabağ müharibəsi gedişində 1992-ci ilin aprel ayının 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Ağdaban kəndinə hücum edərək 779 nəfər əliyalın sakinə divan tutmuş, 67 nəfəri amansızcasına qətlə yetirmiş, eyni zamanda maddi-mədəni irsə də hörmət etməyərək abidələri dağıtmış, müqəddəs ziyarətgah və məzarlıqlara münasibətdə təhqiredici hərəkətlər etmişdir. Gördüyümüz kimi həm Xocalı, həm də Ağdaban faciəsi, eləcə də digər təcaüz aktları zamanı Ermənistan istər sülh və insanlıq əleyhinə olan soyqırım, təcavüzkar müharibə aparma, əhalini məhv etmə, cinsi zorakılıq, təqib, əhalini deportasiya etmə və ya məcburi köçürmə, beynəlxalq hüquqa zidd azadlıqdan məhrum etmə, işgəncə, istərsə də müharibə cinayətlərindən olan hərbi soyğunçuluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə kimi beynəlxalq cinayət əməlləri törədərək ağlasığmaz vandalizm aktlarına imza atmışdılar (8).

## Nəticə

Birinci Qarabağ müharibəsində Ermənistanın xalqımıza qarşı törətdiyi beynəlxalq cinayət əməllərini həm beynəlxalq cinayət hüququ, həm beynəlxalq humanitar hüquq baxımından incələdikcə bir daha qeyri-insani xislətə malik düşmənin necə dəhşətli və ağlasığmaz terror aktlarına imza atdığının şahidi oldum. Lakin təəssüf doğuran məqamlardan biri də odur ki, qeyd olunan beynəlxalq cinayətləri törədən cinayətkarların beynəlxalq hüquq müstəvisində cəza alması istiqamətində beynəlxalq təşkilatlar tərəfindən atılan addımlar yetərli deyil. Özlərini daim məzlum xalq kimi göstərən erməni xalqı cinayətkarları hər vəchlə gizlətməklə, müxtəlif ölkələrə qaçırmaqla və digər üsullarla cəza mexanizminin tətbiq olunması prosesinin qarşısının alınması üçün əllərindən gələni edirlər. 44 gün davam edən Vətən müharibəsində qazandığımız qələbə və torpaqlarımızın böyük bir qisminin işğaldan azad olması torpaqlarımızın azad olunması uğrunda şəhid olan qardaş və bacılarımızın qisasının yerdə qalmaması və işğal olunan ərazilərimizə bir daha mənfur düşmənin ayağının dəyməyəcəyi baxımından çox sevindirici bir haldır və bütün bunlar beynəlxalq cinayət əməllərini törədən düşmən dövlətin beynəlxalq hüquqi məsuliyyətə cəlb olunacağı günün yaxın olduğunu göstərir.

## Ədəbiyyat

1. Hüseynov, L.H. (2012). Beynəlxalq hüquq. Dərslik. Bakı: Qanun. 6 s.
2. Allahverdiyev, Ə.V. (2017). Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər (dərs vəsaiti). Bakı: Elm və təhsil. 34 s.
3. Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsi — Vikipediya (wikipedia.org) (istifadə tarixi: 27.12.2021)
4. Məmmədov, S., Məmmədov, T. (2018). Dağlıq Qarabağ həqiqətləri və beynəlxalq hüquq. Dərs vəsaiti. Bakı: Mütərcim. 88 s.
5. soyqirim_cinayetlerinin_qarshisinin_alinmasi_ve_cezalandirilmasi_haqqinda_konvensiya.pdf (supremecourt.gov.az) (istifadə tarixi: 22.11.2021)
6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. (2018). Bakı: Hüquq Yayın Evi, 103-104 s.
7. Məmmədov, N. (2009). Dağlıq Qarabağ gerçəklikləri: soyqırım, terror, deportasiya, işğal (XX yüzillik). Bakı: Təhsil. 194 s.
8. Ağdaban faciəsi 1905.az (istifadə tarixi: 23.11.2021)

Göndərildi: 17.03.2023 Qəbul edildi: 19.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/70-72

**Aqşin Ağazadə**
Bakı Biznes Universiteti
magistrant
aqsinders@gmail.com

# KOMMERSİYA BANKLARININ MALİYYƏ MENECMENTİ SİSTEMİNİN MÜASİR İNKİŞAF PROBLEMLƏRİ

**Xülasə**

Bank sektoru iqtisadi münasibətlərin bir iştirakçısından digərinə pul vəsaitlərinin hərəkətini təmin edən əsas dirijorlardan biri kimi çıxış edir. Buna görə də banklar üçün güclü maliyyə menecmenti sistemi hər zaman lazım olmuşdur. Maliyyə menecmenti bankın effektli fəaliyyət göstərməsində və maliyyə vəziyyətinin idarə olunmasında rol oynayır. Müasir bank sistemi istər bütövlükdə iqtisadiyyatın, istərsə də maliyyə-kredit sektorunun ümumi inkişaf meyllərini əks etdirir. Bu baxımdan kredit təşkilatlarının maliyyə idarəçiliyinin təkmilləşdirilməsi hər bir konkret bankın dayanıqlı fəaliyyətini və onun fəaliyyətinin rentabelliyini (rentabelliyini) təmin etməyə yönəldilməlidir. Bu məqalədə yerli və xarici mənbələrdən istifadə etməklə, maliyyə menecmenti mahiyyəti və qarşıladığı problemlərdən bəhs edilmişdir.

***Açar sözlər:*** *risk, kredit, iqtisadiyyat, pul, fəaliyyət*

**Akshin Agazadeh**
Baku Business University
master student
aqsinders@gmail.com

## Modern Development Problems of the Financial Management System of Commercial Banks

**Abstract**

The banking sector acts as one of the main conductors ensuring the flow of funds from one participant of economic relations to another. Therefore, a strong financial management system has always been necessary for banks. Financial management plays a role in effective operation of the bank and management of the financial situation. The modern banking system reflects the general development trends of both the economy as a whole and the financial and credit sector. In this regard, the improvement of financial management of credit organizations should be aimed at ensuring the stable activity of each specific bank and the profitability of its activity. In this article, using local and foreign sources, the essence of financial management and the problems it faces are discussed.

***Keywords****: risk, credit, economy, money, activity*

## Giriş

Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində maliyyə infrastrukturlarının rolu çox yüksəkdir. Maliyyə infrastrukturu sayəsində istehsal olunan məhsulların müştərilərə daha ucuz qiymətə çatdırılması müəssisələrdə məhsulların hərəkətinə və satışına dəstək olur. Maliyyə infrastrukturunun idarəetmə sisteminin normal fəaliyyətinin təmin edilməsi onun çevikliyinin və səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.( Qasımova,2019:81).

Bank əmanətləri qəbul edən, bu əmanətlərdən müxtəlif kredit əməliyyatlarında ən səmərəli şəkildə istifadə etməyi qarşısına məqsəd qoyan və ya əsas fəaliyyət predmeti müntəzəm olaraq kredit almaq və ya vermək olan iqtisadi qurumdur (Aliyeva. 2016:238).

Ölkənin maliyyə-kredit sisteminin bütün sahələrində idarəetmə prosesinin vahidliyinə baxmayaraq, maliyyə resurslarının mənbələrindən asılı olaraq təsir üsulları fərqlənir (Atakişiyev, Şıxəliyeva, Nurəliyeva, 2010: 5).

Kommersiya bankında maliyyə menecmenti, hər hansı digər idarəetmə sistemi kimi, iki alt sistemə bölünür:

1. Kommersiya bankında maliyyə idarəçiliyinin fəaliyyət obyekti bankın maliyyə əməliyyatlarının tədqiqi və bank müştərilərinin pul vəsaitlərinin hərəkətinin idarə edilməsi prosesləridir.

2. Kommersiya bankında maliyyə idarəçiliyinin fəaliyyətinin predmeti maliyyə əməliyyatlarının rasional planlaşdırılması və həyata keçirilməsi sistemlərinin və üsullarının işlənib hazırlanması və istifadəsidir (Osmanova, 2013: 281).

Bankın maliyyə menecmentində problemlərin təyin edilməsi üçün ilk növbədə maliyyə təhlili aparılır. Maliyyə təhlilinin əsas mahiyyəti ondan ibarətdir ki, müəssisənin bazar münasibətlərində rəqabətə dözümlülük səviyyəsini müəyyən edir və maliyyə vəziyyəti haqqında konkret məlumat əldə etməyə bilavasitə imkan verir (Quliyev, Qurbanov, Abbasov, Babayev, 2002: 7).

Öz növbəsində bankın maliyyə fəaliyyətinin idarə edilməsinin spesifik istiqamətləri var:

1. maliyyə siyasətinin formalaşdırılması;
2. öz kapitalının idarə edilməsi;
3. likvidliyin idarə edilməsi;
4. aktiv və öhdəliklərin idarə edilməsi;
5. bank risklərinin idarə edilməsi;
6. kredit portfelinin idarə edilməsi;
7. gəlirliliyin idarə edilməsi (mənfəətlilik);
8. marketinq təşkilatı.

Bank fəaliyyəti çoxsaylı risklərlə zəngindir. Banklar iqtisadi proseslər zəminində etibarlılıq və təhlükəsizlik inamı qazanmağa çalışır (Məmmədov, 2020: 8)

Əsasən, bankların qarşılaşdığı risklər 3 cür olur: əməliyyat riski, kredit riski və bazar riski

1. **Əməliyyat riski** – bank əməliyyatlarının yerinə yetirilməsində səhvlərlə və bank fəaliyyətinin həyata keçirilməsi üçün istifadə olunan kredit təşkilatının iş sistemlərinin fasiləsizliyinin pozulması ilə əlaqədar mümkün cari və perspektiv maliyyə itkiləri, yəni bank avtomatlaşdırılmış sistemlərinin özündə ehtiva edir.

2. **Kredit riski** — müştərinin öz maliyyə öhdəliklərini ödəməməsi və ya vaxtı keçmiş ödəniş nəticəsində itkilərin yaranması imkanıdır. Kredit riskinə həm kreditor (bank), həm də kredit götürən (müəssisə) məruz qalır. Bankın itkiləri (zərərləri) bankın kredit riskinin kəmiyyət ifadəsi kimi çıxış edir.

3. **Bazar riski** - aktivlərin, öhdəliklərin və ya balansarxası hesabların dəyərinə təsir edən bazar amillərinin mümkün təsiri səbəbindən yaranır. Bəzi hallarda "bazar riski" termini "qiymət riski" anlayışı ilə bərabər tutulur. Bu, valyuta riski və faiz dərəcəsi riski anlayışları qiymət riskinə uyğun eyni mənanı daşıdıqda baş verir və sonra bazar riski qiymət riskinin əsas komponenti kimi çıxış edir.

## Nəticə

Aparılan tədqiqat zamanı kommersiya banklarının fəaliyyəti üçün maliyyə menecment sistemi əhəmiyyəti anlaşılmışdır. Maliyyə menecmenti sistemi kommersiya banklarının fəaliyyətinin təşkili edilməsi və idarə edilməsində böyük əhəmiyyətə sahibdir. Maliyyə menecmentinə bir neçə risklər təsir edir ki, bankların əsas məqsədi həmin risklərin qarşısını almaq və ya risklərin təsirini minimuma endirmək üçün ehtiyat tədbirləri hazırlamaqdır. Bu cür tədbirlərin həyata keçirilməsidə maliyyə menecmenti sisteminin işi hesab olunur.

**Ədəbiyyat**

1. Qasimova, Z.M. (2019). "Müəssisənin Daxili Maliyyə İnfrastrukturunun Formalaşması Prosesinin İdarə Edilməsi". Sumqayıt Dövlət Universiteti - "ELMİ XƏBƏRLƏR" - Sosial və humanitar elmlər bölməsi, Cild 15, № 1, s.81-86.
2. Aliyeva, B. (2016). "Bankacılık Sisteminde İnternetin Olumlu Ve Olumsuz Yönleri" İnönü Üniversitesi Uluslararsı Sosyal Bilimler Dergisi, Cilt 5, Sayı 1, s.237-252.
3. Atakişiyev, M.C, Şıxəliyeva, N.M,Nurəliyeva, R.N. (2010). "Maliyyə menecmenti." Dərslik. 108 s.
4. Osmanova, K.O. (2013). "Financial Management in the Management System of Commercial Banks" Economic Sciences № 29. p.280-283.
5. Quliyev, T.F., Qurbanov, F.H., Firsand, Abbasov, A.H, Babayev, A.A (2002). " Bazar münasibətləri şəraitində müəssisə və firmaların maliyyə fəaliyyətinin təhlili və qiymətləndirilməsi". 60 s.
6. İ.N.Məmmədov. (2021). "Banklarda risk menecmenti". Monoqrafiya. 208 s.

Göndərildi: 13.02.2023 Qəbul edildi: 01.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/73-79

**Aytac Həsənova**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
aytaj_hasanova@unec.edu.az
UOT: 338.43, 339.5, 339.543

# BEYNƏLXALQ TİCARƏTDƏ AZƏRBAYCAN RESPUBLİKASININ İXRAC POTENSİALININ ROLU

**Xülasə**

Bu məqalədə kənd təsərrüfatı sahəsində tətbiq olunan müasir rəqəmsal texnologiyalar, onların məhsuldarlığa təsirləri və ixrac problemlərinin həll edilməsində onların rolundan bəhs edilmişdir. Məqalə Azərbaycan kənd təsərrüfatının müasir dövrdəki vəziyyətini, xarici ölkələrin bu sahədəki təcrübələrinin Azərbaycan təsərrüfatına təsirlərini özündə əks etdirir. Eyni zamanda Azərbaycan Respuklikasının aqrar sahədəki məhsuldarlığı, xarici ölkələrlə bu sahədəki iqtisadi əlaqələri, ixrac bazarları və sahələrinə də məqalədə nəzər yetirilmişdir.

***Açar sözlər:*** *kənd təsərrüfatı, ərzaq, məhsuldarlıq, ixrac, texnologiya*

**Aytaj Hasanova**
Azerbaijan State Economic University
master student
aytaj_hasanova@unec.edu.az
UOT: 338.43, 339.5, 339.543

## The role of the export potential of the Republic of Azerbaijan in international trade

**Abstract**

This article discusses modern digital technologies applied in the field of agriculture, their impact on productivity and their role in solving export problems. The article reflects the current state of Azerbaijani agriculture, the effects of foreign countries' experiences in this field on Azerbaijani agriculture. At the same time, the productivity of the Republic of Azerbaijan in the agricultural field, economic relations with foreign countries in this field, export markets and fields were also considered in the article.

***Keywords:*** *agriculture, food, productivity, export, technology*

## Giriş

Kənd təsərrüfatında rəqəmsal texnologiyaların inkişafı ixrac potensialının artırılması üçün yeni imkanlar yaradır, eyni zamanda həll edilməli olan bəzi problemlər də yaradır. GPS xəritələri, dronlar və sensorlar kimi dəqiq kənd təsərrüfatı texnologiyalarından istifadə fermerlərə məhsul istehsalını optimallaşdırmağa, tullantıları azaltmağa və səmərəliliyi artırmağa imkan verir ki, bu da ixracın artmasına səbəb ola bilər.

Azərbaycanda ixrac potensialının artırılmasında əsas problemlərdən biri kənd təsərrüfatında istifadə olunan rəqəmsal texnologiyaların kiçik fermerlər üçün əlçatan və əlverişli olmasını təmin etməkdir. İnkişaf etməkdə olan ölkələrdə bir çox fermerlərin bu texnologiyalara investisiya etmək üçün resursları yoxdur ki, bu da onların istehsalı artırmaq və keyfiyyəti yaxşılaşdırmaq imkanlarını məhdudlaşdıra bilər. Azərbaycan kənd təsərrüfatının inkişafında digər ölkələrin təcrübələrindən istifadə müasir dövrdə bu sahənin inkişafına təkan verir. Ərzaq təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın kənd təsərrüfatında müasir rəqəmsal texnologiyaların tətbiqi məhsulların daha təhlükəsiz yetişdirilməsinə, mütəmadi olaraq onların yoxlanılmasına, zərərvericilərdən qorunmasına səbəb olur.

**Azərbaycan Respublikasının kənd təsərrüfatının ixrac sahələri və bazarları.**

Müasir dövrdə bəşəriyyətin qarşılaşdığı ən böyük problemlərdən biri ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlıdır. Azərbaycan Respublikasının da qarşısında duran əsas vəzifələrdən biri ölkə əhalisini sağlam məhsullarla təmin etməkdir. Azərbaycan qədim zamanlardan kənd təsərrüfatı məhsullarının böyük istehsalçısı olaraq bilinmişdir. Eramızdan əvvəlki dövrlərdən başlayaraq günümüzə qədər Azərbaycan bitkilik, heyvandarlıq sahəsində dünya miqyasında ilk sıralarda yer almışdır. Bitkiçilik məhsullarından taxılın, buğdanın, çovdar və bu kimi digər məhsulların istehsalı geniş yer tutmuşdur. Taxıl hər bir ölkənin həyatında xüsusi yerə sahibdir, çünki süfrələrimizdəki çörəyin əsas xammalı olaraq bilinir. Hər bir ölkədə olduğu kimi Azərbaycan iqtisadiyyatı da müəyyən bir illər ərzində tənəzzül ilə üz-üzə qaldı. Tənəzzülün səbəbi 90-cı illərdə Azərbaycana xarici qüvvələrin təsiri ilə baş verən hücumlar oldu. Azərbaycan iqtisadiyyatını bu tənəzzül halından çıxarmaq üçün ölkə iqtisadiyyatının güclü islahatlara ehtiyacı var idi. Bu islahatların əsasını hal-hazırda mövcud olan əkin sahələrindən daha səmərəli formada istifadə edərək istehsalı artrmaq və dünya bazarına çıxmaqla ölkəyə pul axınını təmin etməkdən ibarət etməkdən ibarət olmalı idi. Eyni zamanda ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını da təmin etmək əsas prioritet məsələ idi. Bu illərdə hakimiyyətə Ümumilli lider Heydər Əliyevin gəlməsi ilə ölkə tənəzzül vəziyyətindən çıxmağa başladı. Onun apardığı islahatlar ölkə iqtisdiyyatını yüksəlişə keçirdi. Bütün bunların nəticəsi olaraq Azərbaycanın kənd təsərrüfatı sahəsi yenidən dirçəldi, istehsalı artırdı və artıq yenidən bazarda öz mövqeyinə geri qayıtdı. Artıq 2003-cü ildən cənab İlham Əliyevin də hakimiyyətə gəlməsi ilə ölkə tam yüksəliş şəraitinə keçməyə başladı. Hakimiyyətə gəldiyi vaxtdan etibarən artıq Azərbaycan iqtisadiyyatı yalnız neftdən, yanacaqdan asılılığı aradan qaldırıldı və ölkənin ikinci ən böyük sahəsi kənd təsərrüfatı sahəsi oldu. Bu sahədən əldə edilən gəlir ölkə büdcəsində geniş yer tutmağa başladı, eyni zaman Azərbaycan əhalisini də daxili bazarda bol məhsullarla bir araya gəlməsinə səbəb oldu. (Abasov, 2013)

Azərbaycanın kənd təsərrüfatı sahəsi çoxşaxəlidir. Bir çox sahələrə dövlət dəstəyi bu sahələri daha da inkişaf etməyə stimullaşdırır. Bu stimullar sayəsində kənd təsərrüfatının istehsal gücü artır və bunun nəticəsi olaraq da ixrac məhsulları artır. Azərbaycanda kənd təsərrüfatının əsas ixrac sahələrindən bəziləri bunlardır:

Meyvə və tərəvəz: Azərbaycan pomidor, xiyar, alma, üzüm və nar kimi meyvə və tərəvəz istehsalı ilə tanınır. Bu məhsullar Rusiya, Qazaxıstan, Ukrayna, Gürcüstan kimi ölkələrə ixrac olunur.

Süd məhsulları: Azərbaycan əhəmiyyətli süd sənayesinə malikdir və pendir, qatıq və yağ kimi süd məhsullarının əsas ixracatçısıdır. Bu məhsullar ilk növbədə qonşu ölkələrə, o cümlədən Rusiya və İrana ixrac olunur.

Taxıl və taxıl: Azərbaycan buğda, arpa və qarğıdalı kimi əsas taxıl və taxıl istehsalçısıdır. Bu məhsullar ilk növbədə Türkiyə və İran kimi ölkələrə ixrac olunur.

Ət və quşçuluq: Azərbaycanda mal əti, quzu və toyuq əti kimi yüksək keyfiyyətli ət və quş əti məhsulları istehsal olunur. Bu məhsullar əsasən Rusiya, İran və Birləşmiş Ərəb Əmirliklərinə ixrac olunur.

Azərbaycan Respublikası müxtəlif kənd təsərrüfatı məhsulları ilə tanınır və müxtəlif ölkələrə müxtəlif kənd təsərrüfatı məhsulları ixrac edir. Azərbaycanın əhəmiyyətli kənd təsərrüfatı məhsullarının ixrac sahələri və bazarlarından bəziləri bunlardır:

Azərbaycan və Türkiyə arasında tarixi, mədəni və iqtisadi əlaqələrə əsaslanan güclü kənd təsərrüfatı əlaqələri mövcuddur. İki ölkənin ortaq tarixi, dili və mədəni irsi var ki, bu da onların yaxın münasibətinə töhfə verib. Azərbaycan və Türkiyə arasında kənd təsərrüfatı əlaqələrinin mühüm istiqamətlərindən biri ticarətdir. Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir və iki ölkə arasında kənd təsərrüfatı məhsullarının mübadiləsini asanlaşdırmaq üçün bir sıra sazişlər var. Son illərdə Azərbaycan və Türkiyə kənd təsərrüfatı sahəsində əməkdaşlığı daha da genişləndirmək üçün bir sıra sazişlər imzalayıb və tərəfdaşlıq əlaqələrini genişləndiriblər. ("Turkey,

Azerbaijan to establish joint agricultural R&D center", 2018, "Turkey and Azerbaijan Boost Agricultural Ties", 2021)

Türkiyə Azərbaycanın kənd təsərrüfatı məhsullarının, o cümlədən meyvə, tərəvəz, qoz-fındıq və pambığın əsas idxalçısıdır. Öz növbəsində Türkiyə də Azərbaycana bir sıra kənd təsərrüfatı məhsulları, o cümlədən buğda, qarğıdalı və heyvan yemi ixrac edir. Bundan əlavə, Türkiyə Azərbaycanda kənd təsərrüfatı layihələrinə, o cümlədən Naxçıvan Muxtar Respublikasında müasir istixana kompleksinin yaradılmasına sərmayə qoyub. Hər iki ölkə türkdilli ölkələr arasında əməkdaşlıq və həmrəyliyə yardım edən beynəlxalq təşkilat olan Türk Şurasının üzvüdür. Türk Şurası üzv dövlətlərdə, o cümlədən Azərbaycan və Türkiyədə kənd təsərrüfatı texnologiyaları və innovasiyaları inkişaf etdirmək məqsədi daşıyan "Aqro-Tech" proqramını təsis edib. Ümumiyyətlə, Azərbaycan və Türkiyənin kənd təsərrüfatı əlaqələri möhkəmdir və sektorun müxtəlif sahələrində əməkdaşlıq edir;

H.S.Vayld "Müasir ingilis dilinin tarixi" adlı əsərində yazırdı: "London dialekti Soser olmadan da milli dilin əsasını təşkil edəcəkdi. London mərkəz idi və iqtisadi, siyasi, sosial faktorların təsiri bu dialekti əsas dil kimi formalaşdırdı. Ancaq şübhəsiz ki, yazılı ədəbiyyatın olması onun tez inkişafına səbəb oldu". Həmçinin Con Trevisa "Polychronicon" adlı əsərində (XIV əsr) qeyd edirdi: "Şərqin və Qərbin əhalisi birbirini yaxşı başa düşürdü, Şimal və Cənubun əhalisi isə bir-birini o qədər də anlamırdı (McWhorter, 2008: 89-136). Mərkəzdə yaşayanlar isə bütün ətrafdakıları, o cümlədən Şimal və Cənub dialektlərini onların özlərindən də yaxşı başa düşürdü". Buradan aydın görünür ki, bütün ölkə üçün ümumi dil məhz mərkəz dialekti əsasında formalaşmalı idi. Çünki, mərkəz dialektini həm Şərq və Qərb, həm də Şimal və Cənub yaxşı başa düşürdü. Yeni ingilis dili dövründə dilə ölkənin həm daxili, həm də xarici əlaqələrin inkişafı təsir etdi. 1492-ci ildən Böyük Coğrafi Kəşflər Dövrü başlandı, Britaniyanın müxtəlif ölkələrdə - ən əsası isə yeni kəşf olunmuş Amerikada koloniyalarının sayı yavaş-yavaş artdı (Mammadova, 1993).

İngilis dili nəinki ölkə daxilində, həm də digər ölkələrdə danışılmağa və tədris olunmağa, dilin dərindən və düzgün öyrənilməsi üçün müxtəlif kitablar (qrammatika kitabları və fərqli tərkiblərdə lüğətlər) nəşr olunmağa başlandı. Öncə nəşr olunan qrammatika kitablarında müəlliflər latın dilini tətbiq edərək ingilis dilinin qrammatikasını tərtib etmişdilər (Vilyam Lili). İlk Latın dilindən kənar ingilis dilinin qrammatikası isə Con Uils tərəfindən 1653-cü ildə tərtib olundu. Klassik əsərləri oxumaq üçün köməkçi lüğətlər də XVII əsrdən etibarən nəşr olundu. 1604-cü ildə isə ingilis dilinin ilk izahlı lüğəti çap edildi (Robert Koudrey). Lüğətlərin nəşri ingilis ədəbi dilinin yazı normalarını müəyyənləşdirir, əhali üçün dildəki sözlərin mənalarını açıqlayırdı (Hornby, 1994: 154).

Bu dövrdə çap olunan kitablar geniş Britaniya ictimaiyyəti üçün böyük əhəmiyyət kəsb edirdi. Londonun danışıq dili də demək olar ki, bütün digər ərazilərdə yazılı dil kimi istifadə edilmişdir. Müəlliflərin istifadə etdiyi nitq tərzi İngilis ədəbi dilinin standart formasına çevrildi. Bu dil Birləşmiş Krallıq daxilində tanınır və qəbul edilir.

XIX əsrdə ədəbi dilin bu iki forması arasında fərq nisbətən azalır; ədəbi dilin yazılı formasında xalq dilindən, dialektlərdən, hətta bəzən qadağa qoyulmuş sözlərdən istifadə edilməyə başlanılır. Bu təbii ki, yazılı ədəbi dili daha da rəngarəng və zəngin edir. Gördüyümüz kimi, İngilis ədəbi dilinin indiki səviyyəyə çatmasında orta ingilis dili dövrü həlledici olmuşdur (Lester, 2008: 114).

Məhz bu dövrdə ingilis dilində köklü qrammatik və fonetik dəyişikliklər getmişdir. Lakin yeni ingilis dili dövründə leksik layda gedən dəyişikliklər ingilis dilinin liğət tərkibinin zənginləşməsində xüsusi rol oynamışdır.

Böyük coğrafi kəşflər, elm-texnika sahəsində yeni ixtiralar, həmçinin intibah dövrü - insan fəaliyyətinin bütün sahələrini, o cümlədən dili əhatə etmiş və onun inkişafına səbəb olmuşdur. Ölkələr arasında müxtəlif sahələrdə, xüsusən də ticarət sahəsində əlaqələrin artması yeni mədəniyyətlərlə, yeni anlayışlarla tanışlıq yaratmış və bütün bunlar dildə öz əksini tapmışdır. Bu dövdə ingilis dili ispan, italyan, alman, rus, ərəb, fars və s dillərdən xeyli miqdarda söz almışdır.

İngilis dilinin timsalında ədəbi dilin lüğəti bir çox əsrlər boyu inkişaf etmiş və tarixi hadisələr, sosial dəyişikliklər və texnoloji irəliləyişlər də daxil olmaqla müxtəlif amillərlə formalaşmışdır. İngilis dili latın, yunan və fransız kimi digər dillərdən sözlər götürmüş və söz əmələ gətirmə prosesi ilə də yeni sözlər yaratmışdır (Schmidt, 1893: 330-331).

İngilis ədəbi dilinin lüğətini formalaşdıran ən mühüm amillərdən biri də İncilin təsiridir. İlk dəfə 1611-ci ildə nəşr olunan Müqəddəs Kitabın Kral Ceyms Versiyası ingilis dilinə böyük təsir göstərmiş və ədəbi dilin leksikonuna çoxlu söz və ifadələr qatmışdır. Məsələn, "gözə göz" və "ətdə tikan" ifadələri həm biblical mənşəlidir, həm də müasir ingilis dilində hələ də istifadə olunur (Zeller, 1924: 290).

## Nəticə

İngilis ədəbi dilinin lüğətinin inkişafında borc götürməkdən başqa, digər mühüm amil söz əmələ gəlməsi prosesidir. Bu proses affiksasiya, birləşmə, konvertasiya və digər üsullarla mövcud olan sözlərdən yeni sözlərin yaradılmasını nəzərdə tutur (Valiyeva, 2008: 288).

## Ədəbiyyat

1. Jespersen, O. (1982). Growth and Structure of the English Language. The University of Chicago Press, 244 p.
2. Joseph, M.W. Origins of the English Language at.
3. McWhorter. (2008). Our Magnificent Bastard Tongue, p.89-136.
4. Mammadova, N. (1993). Country Study. Baku: BDU.
5. Hornby, A.S. (1994). Oxford Advanced Learner Dictionary. Oxford University press, 154 p.
6. Lester, M. (2008). “McGraw-Hill’s Essential ESL Grammar”. New York, 114 p.
7. Schmidt, C. (1893). Assimilationen benachbarter einander nicht beruhrender vocale - KZ.Bd. 32, p.330-331.
8. Zeller, H. (1924). Armenisch. Stand und Aufgaben der Sprachwissenschaft. Festschrift fur W.Streitberg. Heidelberg, 290 p.
9. Valiyeva, N. 2008). Communicative-Pragmatic Paradigm of English Lexicology. Bakı: “Science and Education”, 288 p.

Göndərilib: 09.03.2023 Qəbul edilib: 05.05.2023

**TƏBİƏT ELMLƏRİ**

**NATURAL SCIENCES**

DOI: https://doi.org/10.36719/2789-6919/21/114-117

**Şəhla Abdullayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
shahla-nasimi@mail.ru

# AZƏRBAYCANIN TAXIL BİTKİLƏRİNDƏ RAST GƏLİNƏN BAKTERİAL VƏ GÖBƏLƏK XƏSTƏLİKLƏRİ

**Xülasə**

Tədqiqat işi Azərbaycanın bəzi rayonlarında aparılmışdır (Gəncə, Şirvan). Tədqiqat işi zamanı rayonlarda bitən taxıl bitkilərində çoxlu miqdarda xəstəliklərə rast gəlindi. Xəstəliklərin yaranma səbəbləri araşdırıldı. Müəyyən olundu ki, xəstəlikləri yaradan səbəb bakteriya və göbələklərdir. Buğda, arpa və qarğıdalı taxıl bitkiləri arasında əkin sahəsinə və istifadəsinə görə əsas yer tutur. Bu bitkilərin məhsullarından un, qənnadı və makaron məmulatları, nişasta, pivə, spirt və başqa yeyinti məhsulları hazırlanır. Taxıl məhsulları heyvandarlıq və quşçuluğun əsas yem bazasıdır. Bununla bərabər, taxıl istehsalının strateji əhəmiyyəti daha böyükdür. Belə ki, ölkənin ərzaq təhlükəsizliyi həm də onun milli təhlükəsizliyinin tərkib hissəsidir.

***Açar sözlər:*** *bakterial xəstəliklər, göbələk xəstəlikləri, patogen göbələklər, taxıl bitkiləri, mikobiota*

**Shahla Abdullayeva**
Azerbaijan State Pedagogical University
PhD in Biology
shahla-nasimi@mail.ru

## Bacterial and fungal diseases found in grain plants of Azerbaijan

**Abstract**

The research was conducted in some regions of Azerbaijan (Ganja, Shirvan). During the research work, a large number of diseases were found in grain plants growing in the regions. The causes of diseases were investigated. It was determined that bacteria and fungi are the cause of diseases. Wheat, barley and corn occupy the main place among cereal crops in terms of cultivated area and use. Flour, confectionery and pasta products, starch, beer, alcohol and other food products are made from the products of these plants. Cereal products are the main feed base of livestock and poultry. At the same time, the strategic importance of grain production is greater. Thus, the country's food security is also a part of its national security.

***Keywords:*** *bacterial diseases, fungal diseases, pathogenic fungi, grain plants, mycobyota*

### Giriş

Həyata keçirilən aqrar islahatlar nəticəsində Azərbaycanda taxıl məhsulları istehsalı xeyli artıb. Hər il ölkədə orta hesabla 780 min hektar sahədə taxıl bitkiləri əkilir. Onun 97,7%-i buğda, arpa və qarğıdalının payına düşür. Lakin təəssüf doğuran budur ki, ölkədə taxıl istehsalı üzrə heç də həmişə istənilən nəticələr əldə olunmur. Belə ki, təsərrüfatlarda hər il xəstəliklərin, zərərvericilərin və alaq otların taxıl bitkilərinə vurduğu ziyan onların məhsuldarlığının 30- 35%-nin itirilməsi ilə nəticələnir. Tədqiqat zamanı buğdada aşağıdakı göbələk xəstəliklərinə rast gəlindi: (Axundov, Eyyubov, Əhmədov, 2008: 352).

ELMİ TƏDQİQAT Beynəlxalq onlayn elmi jurnal. İmpakt Faktor: 0.864. 2023 / Cild: 3 Sayı: 5 / 114-117
SCIENTIFIC RESEARCH International online scientific journal. Impact Factor: 0.864. 2023 / Volume: 3 Issue: 5 / 114-117 e-ISSN: 2789-6919

**Sürmə xəstəlikləri.** Dənli-taxıl bitkilərində sürmə xəstəlikləri adından göründüyü kimi, bazidili göbələklərin *Ustilaginales* sırasına aid patogen növlərinin yaratdığı qara rəngli sürməyə oxşar örtük və ya dənin üzərində qara tozşəkilli daşlar əmələ gətirdiyindən bu xəstəliklər belə adlandırılmışdır. Buğda bitkisi bərk, tozlu, cırtdan, gövdə və hind sürməsi ilə yoluxur. Azərbaycan şəraitində sürmənin ancaq bərk və tozlu növləri mövcuddur, bəzən gövdə sürməsinə də təsadüf olunur (Bunyatova, 2015: 24). Sürmə xəstəliyi taxıl fəsiləsinə mənsub olan bütün bitki növləri üzərində yayılır, amma yumşaq buğda sortları sürmə xəstəliklərinə daha çox tutulur (şəkil 1).



**Şəkil 1**

**Bərk sürmə.** Bərk sürməyə tutulan sünbüllər bəzən sağlamlarla eyni səviyyədə, lakin əksər hallarda boyca kiçik və qılçıqları yanlara əyilmiş şəkildə olur. Xəstə sünbüllərdə olan dənlərin rəngi bozumtul-qara, qabığı kövrək olub adi halda öz formasını saxlayır. Bunu sahədə adi gözlə görmək mümkündür. Bərk sürmə külək, həşəratlar, mexaniki toxunma, əsasən isə toxumla yayılır (Məmmədova, 2014: 43). Xəstəlik törədicilərinin (teliosporların) sahə şəraitində sünbüldən sünbülə keçməsi ehtimalı çox azdır. Lakin biçin zamanı kombaynın ayrı-ayrı hissələrindən keçən xəstə sünbüllərin dənləri partlayıb dağılır və teliosporlar sağlam dənlər üzərinə düşərək onları yoluxdurur. Səpin zamanı toxumla birlikdə torpağa düşən törədicilər cücərib bazidilər verirlər. Bazidilər üzərində tumurcuğa bənzər bazidisporlar inkişaf etməyə başlayır. Onların torpaqda kapulyasiya etdikdən sonra əmələ gətirdikləri diploid mitsellər bitki cücərtilərinin divarlarını deşərək daxilə keçir və cücərtilərlə birlikdə öz inkişafını dənin əmələ gəlməsi və formalaşması mərhələsinə qədər davam etdirir (Sadıqov, 2001).

Bəzi göbələklər həm daxili, həm də xarici təbəqədə yayılma qabiliyyətinə malikdir. Ağ çürümə (*Sclerotinia*), Boz çürümə (*Botrytis*) xəstəliklərinin törədiciləri bitki orqanlarının həm toxuma daxilində, həm də bitki orqanları üzərində yayıla bilir. Göbələklər yaşama müddətinə görə müxtəlif olur. Qısa ömürlülər öz inkişafını bir neçə günə başa çatdırır. Bunlar **efemerlər** adlanır. **Birilliklər** öz inkişafını bir il müddətinə başa çatdırır. Bu qrupa taxıl bitkilərində sürmə xəstəliyi yaradan *Tilletia*, *Urocystis* və başqa göbələklər aiddir. **İki illik** göbələklərin mədəni bitkilər üzərində parazitlik edən çoxlu növləri var. Onlar öz inkişafını bitkinin vegetasiya dövründə başlayır, bitki yarpaqları və qalıqlarında saprofit həyat tərzi keçirirlər və 2-ci ilin yazında bitki qalıqları üzərində sporlar əmələ gətirərək yenidən yayılırlar. **Çoxillik** göbələklər öz növlərinə və müxtəlifliyinə görə daha geniş yayılmışdır. Bunlara mikorizalar, trutoviklər (bitki gövdələrində parazitlik edirlər), soğanaqlarda, kökümsov gövdələrdə, kök yumrularında, gövdələrdə, çoxillik ağac və kol bitkilərinin, həmçinin alaq otlarının su boruları daxilində parazitlik edən göbələklər daxildir. Xarici mühitin təsirindən göbələklərin meyvə bədənlərinin formasını dəyişmə funksiyasına malikdir. Müxtəlif səbəbdən olan də yişikliklər rizomorflar, xlamidosporlar, sklerosiyalar, mitsellərin sıxlaşması, oidilər və başqa hallarda üzə çıxır. **Xlamidosporlar** mitsel və hiflərin bir-birinə

yaxınlaşması, sıxlaşması nəticədə əmələ gələn, qalın membrana malik, xırda ölçülüvə bir-birinə birləşmiş halda olan, uzun müddət həyatilik qabiliyyətini qoruyub saxlaya bilən göbələk şəkildəyişməsidir. **Sklerosiyalar** sıxlaşmış və bərkimiş göbələk hiflərindən ibarət, müxtəlif formada, xitinləşmiş rəngli membranı olan müxtəlif həcmli mikoloji orqanizmlərdir. Onlar əlverişsiz şərait nəticəsində bu hala keçir və uzun müddət həyatilik qabiliyyətini qoruyub saxlayır. Göbələklər fermentlər ifraz etməklə müxtəlif üzvü maddələri parçalayır, onu mənimsənilən formaya salır və ya bitki orqanlarına daxil olmasını təmin edir. Qidalandığı bitkilərin növ tərkibindən asılı olaraq ifraz etdikləri fermentlərin tərkibi də müxtəlif olur. Belə ki, əgər törədici bir bitki üzərində ixtisaslaşıbsa, onun hüceyrəsində ferment ifrazı yalnız bir substrat üçündür. Demək olar ki, bütün qrup fermentlərdən göbələklərdə aşkar olunur. Hidrolitik göbələklər proteolitik tərkibli zülali maddələri parçalayır. *Pholiota mutabilis, Aspergillus* və başqa göbələklər proteoletik fermentlərin köməkliyi ilə zülalı ammiak bə başqa azotlu birləşmələrə qədər parçalayır və mənimsənilən formaya salır. Göbələklər karbohidraza fermentləri ilə üzvü karbohidratları parçalayır. Bitkilər sellüloza, pektin, nişasta, liqnin maddələri ilə zəngin olduğu üçün göbələklər bu maddələri sadə şəkərə qədər parçalayır və mənimsəyir. Bu prosesdə müxtəlif fermentlərdən istifadə olunur. Göbələklərin qidalanması, inkişafı və yayılmasında onların ifraz etdikləri fermetlərin böyük əhəmiyyəti var. Göbələklərin qida elementləri mənşəyinə görə müxtəlifdir. Qidalanma mənbəyi və mənşəyinə görə başlıca yeri üzvü, qeyri-üzvü və mineral maddələr təşkil edir. Karbohidratlardan şəkər, qlükoza, nişasta və başqaları göbələklərin başlıca qidası hesab olunur. Lakin bu maddələri parçalamaq üçün lazımı fermentlər hər göbələkdə olmur. Bəzi himenomisetlərdə invertaza olmadığından onlar şəkəri, maya göbələyində isə amilaza olmadığından nişastanı parçalaya bilmir. Bununla da qida maddələri ilə zəngin mühitdə belə qidalana bilmirlər.

Göbələk xəstəliklərindən başqa bakterial xəstəliklər də rast gəindi. Bakteriyalar xlorofilsiz birhüceyrəli mikroorqanizmlərdir. Yaşamaq və inkişaf etmək üçün hazır qida maddələri istifadə edirlər. Hər bakteriya ayrıca götürülmüş orqanizmdir və bir hüceyrədən ibarətdir. Bakteriyaların çöpvari, vergülvari (vibronlar), bir quyruqlu, iki və çox quyruqlu formaları olur. Onlar hərəkətli və hərəkətsiz olmaqla formaca 2 başlıca qrupa bölünür. Çoxalma və inkişaf baxımından sadə bölünmə və sporəmələgətirmə (cinsi) yolu ilə çoxalan bakteriya qrupları vardır. Bakteriyalar bitki tərkibinə ağızcıqlar, nektarlıqlar, mexaniki zədələnmiş yerlərdən daxil olur (Həsənova, 2015: 300-304). Bəzi bakteriyalar təbii yollarla bitki orqanlarına daxil ola bilmədiyindən mexaniki zədələrdən, çatlardan, yarıqlardan toxumaya daxil olur. Bitkilər zədələnmiş və ya sınmış hissələrini 72-75 saat ərzində xüsusi ifraz olunan mantar qatı ilə bağladıqları üçün bakteriyalar bu vaxt ərzində daxilə keçə bilir. Pomidorun bakterial xərçəng xəstəliyinin törədicisi *Corynebacterium michiganense* hətta kiçik tükcüklərin zədəli hissəsindən keçərək tez bir zamanda bütün bitkiyə yayılır. Bakteriyaların həşaratlar tərəfindən bitkiyə keçirilməsi halları geniş yayılıb. Gəmirici və deşib sorucu ağız aparatına malik zərərli həşaratların bitkilərlə qidalandığı zaman bakteriyaların bitkiyə keçməsinə daha tez-tez rast gəlinir. Bakteriyalar ətraf mühitin ekoloji faktorlarından çox asılıdır. Optimal temperatur həddi 15-30°C olduğundan, 2°C-dən aşağı və +40°C-dən yuxarı temperaturlarda bakteriyalar öz inkişafını dayandırır.

## Nəticə

Bakteriya xəstəliklərinin başlıca infeksiya mənbəyi torpaq, bitki qalıqları, əkin materialları, hava, qrunt suları və aqrotexniki tədbirlər zamanı profilaktiki tədbirlər aparılmayan sahələrdir. Hava, yağış və müxtəlif atmosfer çöküntüləri ilə, həmçinin sirayətlənmiş bitki qalıqları ilə patogen bakteriyalar torpağa düşür. Bu hər zaman infeksiya mənbəyi rolunu oynayır. Meyvə ağaclarının bakterial yanıq xəstəliklərinin törədicisi *Erwinia amylovora* (B.) Winst. küləklə, yağışla və torpaqla əlaqəsi olan həşəratlar vasitəsilə bitkinin çiçək nektarlığına keçir. *Agrobacterium tumefaciens, Pseudomonas Solanacearum* bakteriyaları torpaqdan kök sisteminə keçir. Toxum və əkin materialı vasitəsi ilə bakteriyalar daha sürətlə və geniş ərazilərə yayılır. Toxumların bakteriyalarla çirklənməsinin 2 növü vardır: Üzdən çirklənmə və daxili orqanların sirayətlənməsi. Birinci halda dezinfeksiya və sterilləşdirmə ilə xəstəliyin keçməsinin qarşısı asanlıqla alınır. İkinci halda daxili

infeksiyanın aradan qaldırılması çətinlik yaradır. Bakteriyalar bu halda toxum rüşeyminin sorucu sistemində qidalandığından kontakt təsirli dezinfeksiya vasitələri bunu aradan qaldıra bilmir və xəstəlik yayılır. Belə bakteriyalardan pomidorun xərçəng xəstəliyinin *Clavibacter michiganensis sub sp. Michiganensis* Smith, paxlalı bitkilərin bakteriozunun törədiciləri *Xanthomonas phaseoli, Ps.medicaginis pv.phaseolicola*, pambığın hommoz xəstəliyinin törədicisini *Xanthomonas malvacearum* və s. misal çəkmək olar.

## Ədəbiyyat

1. Axundov, T., Eyyubov, B., Əhmədov, S. (2008). Azərbaycanın mikobiotası. Bakı: “Təhsil” nəşriyyatı, 352 s.
2. Bunyatova, L. (2015). Müxtəlif biotoplardan ayrılmış makromisetlərin fermentativ aktivliyinə görə ekolo-fizioloji və biotexnoloji aspektdə qiymətləndirilməsi. Bakı. 24 s.
3. Məmmədova, F. (2014). Abşeronda yayılmış bəzi fitopatogen göbələklərin hidrolitik fermentlərinin patogenez prosesində rolu. Bakı. 23 s.
4. Sadıqov, A. (2001). Azərbaycanın aqarikal ksilotrof göbələkləri. AMEA-nın Xəbərləri, biologiya elmləri seriyası.
5. Həsənova, V. (2015). Polisaxaridlərin produsenti kimi Laetiporus Murrill və Trametes Quel. cinslərinə aid növlərdən istifadənin perspektivləri. AMEA-nın Mikrobiologiya İnstitutunun elmi əsərləri. Bakı: “Elm” nəşriyyatı. 13 s. № 1, s.300-304

Göndərildi: 11.02.2023 Qəbul edildi: 29.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/118-121

**Xoşqədəm Əliyeva**
"Odlar Yurdu" Universiteti
magistrant
eliyeva.x.25@gmail.com

# "MİKROBİOLOJİ PREPARATIN HAZIRLANMASI"

**Xülasə**

Bacillus cinsinin bakteriyaları yüksək biotexnoloji potensiala malikdir. Mikrob bu mikroorqanizmlərə əsaslanan preparatlar müasir kənd təsərrüfatında geniş istifadə olunur. Bunlar bitki məhsulların mühafizəsi kök çürüməsinə, toxum kifinə, Phytophthora, Alternaria, Rhizoctonia, Oidium və s. qarşı işlədilir. Müəyyən edilmişdir ki, B. pumilus (MSH) ştammı Mucor və Aspergillus kimi fitopatogenlərin böyüməsini maneə törədir. Bununla yanaşı B.amyloliquefaciens, B.badius, B.gibsonii, B.konsorsiumu, B.methyloprophicus, B.pumilus, B.simplex, B.halotolerans ştammları bitki fitopatogenlərinin qarşısını almaqda hər birindən istifadə edilir.

***Açar sözlər:*** *ştam, kriyokonservasiya, liyofilizasiya, bioreaktor, fermentator.*

**Khoshgadam Aliyeva**
Odlar Yurdu" University
master student
eliyeva.x.25@gmail.com

## "Preparation of microbiological preparation"

**Abstract**

Bacteria of the genus Bacillus have high biotechnological potential. Microbe preparations based on these microorganisms are widely used in modern agriculture. These are the protection of plant products against root rot, seed mold, Phytophthora, Alternaria, Rhizoctonia, Oidium, etc. used against. It was found that B. pumilus (MSH) strain inhibits the growth of phytopathogens such as Mucor and Aspergillus. Besides, B.amyloliquefaciens, B.badius, B.gibsonii, B.consortium, B.methyloprophicus, B.pumilus, B.simplex, B.halotolerans strains are used to prevent plant phytopathogens.

***Keywords:*** *strain, cryopreservation, lyophilization, bioreactor, fermenter.*

## Giriş

ABŞ, Çin, Braziliya, Argentina və Rusiya ən çox kənd təsərrüfatı məhsulları istehsal edən ölkələr sırasındadır. Bitkilərin müxtəlif fitopatogenlərdən mühafizəsi hal-hazırda ən vacib məsələlərdən biridir (Azizbekyan, R. R., Zayavleniye, 2019: 55). Milli iqtisadiyyatın bu sektorunun ən mühüm problemidir. Bitki mühafizəsinin istifadəsi kənd təsərrüfatında kimyəvi maddələr geniş yayılmışdır. Mikrob biopreparatları faydalı olması üçün canlı mikroorqanizmlərin hüceyrələri seçilir. Onların tərkibində metabolitlər də ola bilər. Bioloji bitmiş forma preparat mikroorqanizmlərin maye kulturası ola bilər. Bu olduqda əlavə təmizlik əməliyyatlara ehtiyac olmayacaq. Mikrob məhsulunun hazırlıq forması məcun şəklində, qatılaşmış hüceyrə biokütləsi və ya gel və s. ola bilər. Lazım olan məhsul quru formada istehsal olunarsa, istehsal dövrünə yüksək texnoloji proseslərin tətbiqi zəruri olmalıdır. Kriyokonservasiya və ya liyofilizasiya biopreparatların xüsusiyyətlərini qorumaq və raf ömrünü uzatmaq üçün istifadə olunur (Murodova, S.S., Davranov, 2014: 92).

Qablar, mayalar, aktinomisetlər və digər bakteriyalar biotexnologiyada geniş istifadə olunur. Tərkibində monokultura deyil, bütün konsorsium olan biopreparatlar mikroorqanizmlər son illərdə geniş populyarlıq qazanmışdır. Bunun səbəbi isə mikrobdur. Mikrobun tərkibi müxtəlif ekoloji

faktorlara daha davamlıdır və maddələr mübadiləsi gücləndirmişdir (Nopcharoyenkul, V., Pinfanichakarn, P., Pinyakong, O., Appl, J., 2011: 36).

Bacillus cinsinin bakteriyaları yüksək biotexnoloji potensiala malikdir. Mikrobbu mikroorqanizmlərə əsaslanan preparatlar müasir kənd təsərrüfatında geniş istifadə olunur. "Fitosporin-M", "Alirin-B" və "Baktofit" ən məşhur basil əsaslıdır (Kozhemyakov, Kozhemyakov, Laktionov, Popova, Orlova, Kokorina, Vayshlya, Agafonov, Guyvin, Churakov, Yakovleva,, 2015: 50).

Bunlar bitki məhsulların mühafizəsi kök çürüməsinə, toxum kifinə, Phytophthora, Alternaria, Rhizoctonia, Oidium və s. qarşı işlədilir. Müəyyən edilmişdir ki, B. pumilus (MSH) ştammı Mucor və Aspergillus kimi fitopatogenlərin böyüməsini maneə törədir. Bununla yanaşı B.amyloliquefaciens, B.badius, B.gibsonii, B.konsorsiumu, B.methylophrophicus, B.pumilus, B.simplex, B.halotolerans ştammları bitki fitopatogenlərinin qarşısını almaqda hər birindən istifadə edilir. Buna görə də kənd təsərrüfatı üçün polikomponent preparatların yaradılması basillərə əsaslanaraq perspektivlidir (Birkher, Geyrnart, Khammes, Lakrua, Shvab, 2018: 72).

EC "Prombiotech" mikroorqanizmlər kolleksiyasından üç B. pumilus ştammı istifadə edilmişdir (Salamatova, Minayeva, Akimova, 2010: 20).

**Cədvəl 1.**
**Tədqiqatın obyektləri**

| Ştammlar | Mənbə | Toplanılan yer |
|---|---|---|
| B.pumilus 4 | Berteroa incana rhizosphere | İsmayıllı rayonu |
| B.pumilus 7 | Rumex acetosa rhizosphere | İsmayıllı rayonu |
| B.pumilus 16 | Cichorium intybus rhizosphere | Qobustan rayonu |

L-qidalı mühit bakteriya kulturasını əldə etmək və sayını hesablamaq üçün istifadə edilmişdir. Bacillus cinsinin növləri termostatda 37°C-də 18-24 saat inkubasiya edilir. B.pumilus ştamları 500 ml kolbalarda çalkalayıcı inkubatorda yetişdirilir. Fermentatorun iş həcmi təqribən 10-12 L-dir. Buna görə də, hər bir gərginliyin başlanğıc mədəniyyəti 1 litr həcmdə hazırlanmışdır (Kupletskaya, Netrusov, 2011: 80).

B. pumilus ştammları üçün hazırlanmış qida mühitinin tərkibinə (%): 2,5 bəkməz, 1,25 qarğıdalı ekstraktı, 0,1 maya ekstraktı, 0,05 pepton, 0,025 $MgSO_4$, 0,003 $MnSO_4$, 0,1 $CoCl_2$. 1 L üçün 10 µl nisbətində salin məhlulu, duz mayesi, 1 q $FeSO_4$, 1 q $CuSO_4$ və 100 ml distillə edilmiş su aiddir (Prikhodko, Avdeyenko, Konferentsiya, 2018: 94).

Bioreaktorlarda ilkin şərtlər: steril havanın verilməsi sürəti – 0,5 L/dəq, pH – 6,8-7,0, təzyiq - 0,2-0,3 atm., qarışdırma sürəti - 250 rpm, temperatur - 37 ° C, yetişdirmə vaxtı isə 18-24 saatdır.

Fermentasiya prosesi başa çatdıqdan sonra bioreaktor maye şəklində alınır və

4100 rpm-də 20 dəqiqə sentrifuqa edilir. Sonra hüceyrə biokütləsi ilə qarışdırılır qoruyucu mühit (2,5% jelatin və 10% saxaroza) və dondurulur. Quru konsentratları istehsal etmək üçün liyofilləşdirilir.

Cədvəldəki (cədvəl 2) nəticələr göstərir ki, bütün tədqiq edilmiş ştamlar öz daxilində yüksək bolluğa çatmışdır. Bütün B. pumilus ştamları üçün OD və pH oxşar və optimal dəyərlər daxilindədir. Mikroskopik tədqiqatlara görə, 18-24 saat becərildikdən sonra mikroskop sahəsində vegetativ hüceyrələr üstünlük təşkil edir. Sporlar aşkar edilməmişdir (Bottone, Med, 2003: 69).

**Cədvəl 2.**
**B. pumilus ştamlarının göstəriciləri**

| Ştamlar | Say CFU/ml | OD | pH |
|---|---|---|---|
| B.pumilus 4 | 3.22(±0.28) x $10^9$ | 0.387±0.040 | 7.09±0.14 |
| B.pumilus 7 | 1.54(±0.39) x $10^9$ | 0.269±0.067 | 6.86±0.19 |
| B.pumilus 16 | 2.02(±0.56) x $10^9$ | 0.366±0.069 | 6.74±0.29 |

Cədvəl 3-də 15 litrlik fermentatorda Bacillus kulturalarının OD dinamikası göstərilir. Fermentasiya sonunda B. pumilus 4 orta OD daha sürətli dəyişdi, digər ştamlar isə təxminən eyni ilə qaldı.

**Cədvəl 3.**
**Bioreaktorun becərilməsi saatlarına görə OD dəyişməsi**

| Ştamlar | OD saatlara görə | | | |
|---|---|---|---|---|
| | 2 | 4 | 6 | 18-24 |
| B.pumilus 4 | 0.649±0.174 | 1.402±0.260 | 1.819±0.323 | 2.291±0.366 |
| B.pumilus 7 | 0.593±0.171 | 1.173±0.248 | 1.585±0.353 | 2.285±0.125 |
| B.pumilus 16 | 0.574±0.107 | 1.084±0.075 | 1.590±0.390 | 2.383±0.065 |

Fermentasiya başlayandan 18-24 saat aralığında OD dəyişməyi dayandırır, mikroskopik analiz vegetativ hüceyrələr üzərində sporların üstünlük təşkil etdiyini göstərir. Fermentasiya Bacillus cinsinin ştammlarının bir qədər fərqləndiyini göstərir, lakin bu becərmə müddətinə ciddi təsir göstərməmişdir (Khan, Martines-Idalgo, Ays, Maymon, Khamm, Nedzhat, Sanders, Kaplan, Khirsh, 2018: 23). Liyofil qurutmadan sonra bütün tədqiq edilmiş ştammların hüceyrələrinin sayı ardıcıl olaraq artmışdır. Ən yüksək hüceyrə sayı qurutma B. pumilus 7 konsentrat xarakterikdir (Mokhamed, Peterson, Tkachenko, 2016: 160).

**Cədvəl 4.**
**İstehsal prosesləri zamanı basillərin sayının dəyişməsi**

| Ştamlar | Fermentatordakı nömrə, CFU/ml | Liyofilləşdirilmiş konsentratda sayı, CFU/g | bitmiş hazırlıqdakı nömrə, CFU/g |
|---|---|---|---|
| B.pumilus 4 | 1.62(±0.60) x $10^{10}$ | 2.92(±0.80) x $10^{11}$ | 1.30(±0.31) x $10^{12}$ |
| B.pumilus 7 | 1.37(±0.07) x $10^{10}$ | 5.78(±0.90) x $10^{11}$ | |
| B.pumilus 16 | 3.78(±0.34) x $10^{10}$ | 2.65(±0.34) x $10^{11}$ | |

Bacillus bakteriyasının liyofilləşdirilmiş biokütlə çəkisi hər biri üçün təxminən 70-80 q təşkil edir. Hər üç basil ştammının konsentratları 1:1:1 nisbətində qarışdırılıb hazırlığı tamamlanır. Biopreparatın praktiki olaraq müəyyən edilmiş hüceyrə sayı B. pumilus ştamlarının CFU/g əlavəsinə əsaslanan riyazi hesablamalara uyğundur. Bakteriya hüceyrələrinin çoxluğu bitmiş mikrob preparatını xarakterizə edir. Buna görə də yaxşı bioloji aktivliyə malik olduğu güman edilir (Irkitova, Grebenshchikova, 2018: 45).

## Nəticə

1. L-bulyon sınaqdan keçmiş ana ştammlarının becərilməsi üçün əlverişli qida mühitidir.
2. Fermentatorda bəkməz əsaslı mühit B. pumilus 4, B. pumilus 7, B. pumilus 16 - sayını artırır. Bunu qablarda etmək mümkün deyildi.
3. Liyofil qurutma bakteriyaların sayını başqa bir miqyasda $10^{11}$-ə qədər artırır.
4. Üç B. pumilus ştammının bərabər nisbətdə qarışdırılması ilə alınan biopreparat konsentratların son hüceyrə sayı 1,30(±0,31) ×$10^{12}$ CFU/g təşkil edir.

**Ədəbiyyat**

1. Azizbekyan, R. R., Zayavleniye, (2019). Biokhimiya, mikrobiologiya. 55 s.
2. Murodova, S.S., Davranov, K.D. (2014). Biotechnologia Acta. 92 s.
3. Nopcharoyenkul, V., Pinfanichakarn, P., Pinyakong, O., Appl, J. (2011). Mikrobiologiya. 36 s.
4. Kozhemyakov, A.P., Kozhemyakov, YU.V. Laktionov, T.A. Popova, A.G. Orlova, A.L. Kokorina, O.B. Vayshlya, Ye.V. Agafonov, S.A. Guyvin, A.A. Churakov, M.T. Yakovleva, (2015). Selskokhozyaystvennaya biologiya. 50 s.
5. Birkher, L., Geyrnart, A., Khammes, F., Lakrua, K., Shvab, K. (2018). Microb.Biotechnol., 72 s.
6. Salamatova, Dzh.A., Minayeva, O.M., Akimova, Ye.Ye. (2010). Vestnik Tomskogo gosudarstvennogo universiteta, Biologiya, 20 s.
7. Kupletskaya, M.B., Netrusov, A.I. (2011). Mikrobiologiya, 80 s.
8. Prikhodko, Ye.M., Avdeyenko, S.S. Konferentsiya, (2018). «Razvitiye nauki, tvorchestva i tvorchestva» innovatsionnaya aktivnost' molodezhi. 94 s.
9. Bottone, E.Dzh., J. of Med. (2003) Mikrobiologiya, 69 s.
10. Khan, N., Martines-Idalgo, P., Ays, T.A., Maymon, M., Khamm, E.A., Nedzhat, N., Sanders, E.R., Kaplan, D., Khirsh, A.M., Front. (2018). Mikrobiologiya., 23 s.
11. Mokhamed, KH., Peterson, A.M., Tkachenko, G.G. (2016). Izvestiya Saratovskogo universiteta, 160 s.
12. Irkitova, A.N., Grebenshchikova, A.V., Ukr. Dzh. (2018). Mikrobiologiya, 45 s.

Göndərildi: 09.03.2023 Qəbul edildi: 15.05.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/122-125

**Diana Ağabəyova**
Bakı Dövlət Universiteti
magistrant
dianaghabayova@gmail.com

# QOBUSTAN-ABŞERON REGİONUNUN HİDROLOJİ ŞƏRAİTİNİN SƏHRALAŞMANIN İNTENSİVLƏŞMƏSİNƏ TƏSİRİ

**Xülasə**

Səhralaşma qlobal miqyaslı bir problemdir. Torpaq və bitki örtüyünün deqradasiyası, məhsuldarlığının kəskin azalması, həyat şəraitinin pisləşməsi kimi mənfi təsirlərlə nəticələnir. Quru iqlim şəraiti (yüksək temperatur və günəş radiasiyası), həmçinin ərazinin hidroloji cəhətdən zəif təmin olunması və buxarlanmanın çox olması, arid iqlim şəraitini formalaşdırır. Arid iqlim şəraitində səhralaşma prosesinin öyrənilməsi və buna qarşı mübarizə tədbirlərinin işlənib hazırlanması böyük əhəmiyyətə malikdir. Qobustan-Abşeron regionu Azərbaycanın şərqində yerləşməklə, Böyük Qafqazın cənub şərq qurtaracağını təşkil edir. Respublikanın ən quraq ərazilərindən olub, əsasən yarımsəhra və quru-çöl landşaftları üstünlük təşkil edir. Ərazidə səhralaşma prosesinin intensivləşməsinə həm təbii, əsasən isə antropogen amillər təsir göstərir. Regionun hidroloji rejiminin təhlil edilməsi və buna qarşı görüləcək mübarizə tədbirlərinin işlənməsi səhralaşma prosesinin intensivləşməsinin qarşısını almaq üçün böyük əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *səhralaşma, hidroqrafiya, Qobustan, Abşeron, yeraltı sular*

**Diana Aghabeyova**
Baku State University
master student
dianaghabayova@gmail.com

## The influence of hydrological conditions of the Gobustan-Absheron region on the intensification of desertification

**Abstract**

Desertification is a global problem that leads to negative consequences such as soil and vegetation degradation, significant reduction in productivity, and deterioration of living conditions. Dry climate conditions (high temperature and solar radiation), as well as weak hydrology and high levels of soil erosion, create arid climate conditions. Studying the process of desertification in arid climates and developing measures to combat it are of great importance. Located in the eastern part of Azerbaijan, the Qobustan-Absheron region forms the southeast border of the Greater Caucasus. It is one of the driest areas of the country and is dominated by semi-desert and arid landscapes. Both natural and anthropogenic factors contribute to the intensification of desertification processes in the region. Analyzing the region's hydrological regime and implementing measures to combat desertification are crucial to prevent further intensification. The study of groundwater is one of the key aspects in combating desertification in the Qobustan-Absheron region.

***Keywords:*** *desertification, hydrology, Qobustan, Absheron, groundwater*

## Giriş

Qobustan-Abşeron regionu yerüstü sularına görə respublikanın defisit rayonları sırasına daxildir. Burada yağıntıların azlığı, relyef şəraiti, bitki örtüyünün zəif olması və digər amillər səth sularının kasadlığına şərait yaratmışdır. Regionda yerüstü sular-hidroqrafik şəbəkə bir neçə kiçik çay və müxtəlif ölçülü və həcmli onlarla göllərdən ibarətdir. Çay şəbəkəsinin sıxlığı 0,18-0,47 $km^2$ arasında dəyişir. Regionun əsas çaylarının xarakterik xüsusiyyətləri aşağıdaki cədvəldə verilmişdir (Məmmədov, 2002: 266).

**Cədvəl 1.**
**Çayların morfometrik göstəriciləri**

| Çaylar | Uzunluq (km) | Su hövzəsinin sahəsi (km$^2$) | Mənbə (m) | Mənsəb (m) | Orta illik su sərfi (m$^3$/san) |
|---|---|---|---|---|---|
| Sumqayıtçay | 155 | 1751 | 2000 | -28 | 1,69 |
| Ceyrankeçməz | 100 | 898 | 800 | -28 | 0,27 |
| Pirsaatçay | 200 | 2271 | 2400 | -11 | 1,29 |

Regionda çaylar quruyan və müvəqqəti olaraq iki qrupa ayrılır. Leysan yağışları zamanı formalaşan çaylar müvəqqəti, güclü yağış, qar suları və yeraltı sular hesabına əmələ gələn çaylara quruyan çaylar aiddir. Yağışsız dövrlərdə çayların əksəriyyəti quruyur. Su sərfi payız-yaz aylarında yüksək, yay aylarında aşağı olur (Şirinov, 1979: 180). Qobustan-Abşeron regionunda əksəriyyəti yayda quruyan 150-dən çox göl var. Bir qismi də iqlimin aridliyi ilə əlaqədar intensiv buxarlanmaya məruz qalır. Göllərin böyük qismi Abşeron yarımadasının payına düşür. Burada 70-ə qədər iri, sahəsi 12 km$^2$ olan göl vardır. Abşeron yarımadasının böyük göllərinin morfometrik xüsusiyyətləri aşağıdakı cədvəldə verilmişdir(N.Ş.Şirinova görə) (Səmədov, 2000: 136).

**Cədvəl 2.**
**Abşeron yarımadasının böyük göllərinin morfometrik xüsusiyyətləri**

| Göllər | Güzgü sahəsi (km$^2$) | Maksimal dərinliyi (m) | Orta dərinliyi (m) | Sahil xəttinin uzunluğu (km) | Həcm (mln. m$^3$) |
|---|---|---|---|---|---|
| Böyükşor | 9,69 | 2,0 | 1,3 | 12,00 | 12 |
| Masazır | 11,3 | 1,7 | 0,6 | 14,00 | 7 |
| Mirzaladı | 4,00 | 1,7 | 0,9 | 24,00 | 3 |
| Xoca-Həsən | 1,56 | 3,2 | 2,0 | 7,88 | 2 |
| Qanlıgöl | 0,54 | 7,2 | 4,0 | 3,65 | 2 |
| Bülbülə | 0,70 | 1,5 | 1,1 | 6,00 | - |

Ərazidə göllərin su balansına atmosfer çöküntülərinin və təsərrüfat fəaliyyətinin təsiri böyükdür. Göllərin qidalanma mənbəyi əsasən atmosfer çöküntüləri, mədən, kommunal-məişət sularıdır. Sularının səviyyəsi iqlim şəraitindən asılı olaraq 40-80 sm arasında dəyişilir. Qeyd etməliyik ki, göllərin səviyyəsinə son illərdə Xəzərin qalxması da təsir etmişdir. Ən yüksək səviyyə yaz və payızda-rütubətli dövrdə müşahidə olunur. Göllərin suyunun həcmi il ərzində sabit olmur və göllərin ümumi həcmi 50 mln m$^3$-ə bərabərdir. Masazır və Böyükşor göllərindən xörək duzu əldə olunur. Bu göllər mədən suları və məişət tullantıları ilə çirkləndirilməsi göllərin sularında zərərli dəyişikliklərə gətirib çıxarır. Qobustan ərazisində palçıq vulkanları fəaliyyət göstərən sahələrdə isə şor göllər yaranmışdır.

Qobustan-Abşeron regionu hidrogeoloji şəraiti iqlimin quraq olması istər səth, istərsə də yeraltı sulara da öz təsirini göstərmişdir. Aparılmış tədqiqatlar göstərir ki, formalaşması və rejiminə görə yeraltı sular bir sıra amillərdən asılıdır.

Qobustan-Abşeron regionunda yeraltı suların əmələ gəlməsi prosesinin kəmiyyət və keyfiyyət xarakterini əsasən iqlim amilləri müəyyən edir.

Regionda hidroloji amillər yeraltı suların hərəkət şəraitini müəyyənləşdirir. Buna Xəzərin səviyyə tərəddüdü təsir göstərir. Dənizin səviyyəsinin 1929-cu ildən 1956-cı ilədək düşməsi, qrunt sularının da kəskin düşməsinə, son illərdəki qalxması isə səviyyənin yenidən qalxmasına səbəb olmuşdur.

Biogen amillərin təsiri ərazidə bitki örtüyü zəif inkişaf etdiyindən azdır, çünki bitkilər qrunta daha çox su hopdurma qabiliyyətinə malikdir.

Antropogen amillərin təsiri insanların təsərrüfat fəaliyyəti ilə bağlıdır. Bu şirin sularla torpaqların suvarılması, neft-qaz hasilatı, tullantı suları ilə bağlıdır.

Abşeron yarımadasında yeraltı sular süxur tipləri ilə sıx əlaqədardır. Yarımadada eol çöküntülərində qrunt suları əsasən şimal sahilboyunda və rayonlar daxilində kiçik sahələrdə yayılmışdır. Regionun sukeçirən süxurlara malik hissələrində qrunt suları toplana bilir. Kimyəvi tərkibinə görə əsasən xloridli, sulfatlı və natriumludur. Yarımadanın Xəzər sahili çöküntülərində qrunt suları az yayılıb (4).

Orta Abşeron yarımadasının çöküntülərində qrunt suları əsasən şirin və azduzlu sulardır.

Abşeron yarımadasında təzyiqli sularından təsərrüfatda istifadə edilir. Burada 20 minə qədər artezian və buruq quyusu vardır. İl ərzində ərazidə 8 mln $m^3$-ə yaxın su çıxarılır.

Ərazidə şimal-qərb və qərb hissədə yağıntıların çoxluğu burada bulaqların da əmələ gəlməsinə imkan yaratmışdır. Qobustan ərazisində süxurlar əsasən karbonatlı, duzlu və gipslidir, hansı ki bunlar yeraltı suların minerallaşmasında mühüm rola malikdir (ən çox şimal-şərqdə) (Zeynalov, 1968: 49).

Qobustan-Abşeron rayonunun su çatışmazlığını aradan qaldırmaq üçün burada 1955-ci ildə Ceyranbatan su anbarı yaradılmış və buraya müxtəlif kanal və kəmərlər çəkilmişdir (Samur-Abşeron, Oğuz-Qəbələ-Bakı). Su anbarının sahəsi 13,8 $km^2$, uzunluğu 8,7 km, maksimal eni 2,15 km, maksimal dərinliyi 28,5 m-dir.

Göldə suyun həcmi 186 mln $m^3$ olmaqla, bunun 150 mln $m^3$-i istifadə olunur (Yeni Azərbaycan Qəzeti, 2006). Regionda təsərrüfat və suvarmada istifadə olunan suların itkilərə məruz qalması, eləcə də məişət tullantı sularını daşıyan kəmərlərin sıradan çıxması, mədən suları, ərazidə bataqlaşmaların yaranması və torpaq-bitki örtüyünün mənfi təsirlərə məruz qalması ilə nəticələnir.

Səhralaşma prosesinin inkişafına sel hadisələri də çox böyük zəmin yaradır. Palçıqlı sellər bioloji məhsuldarlığı zəif olan əraziləri səhralaşma ocaqlarına çevrilməsinə səbəb olurlar. Burada sellərin inkişafına təbii amillərlə yanaşı antropogen amillər: otarmalar, kol və bitkilərin məhvi də səbəb olur.

Qobustan-Abşeron regionunun hidroloji rejiminə Xəzər dənizinin səviyyə tərəddüdü də təsir göstərir ki, bu əsasən qrunt sularının səviyyəsinə təsir edərək səthdə olan göllərin sahəsinin artmasına səbəb olur.

## Nəticə

Region ərazisinin iqlimi arid xüsusiyyətlərə malik olduğundan yağıntıların azlığı səth axımının da az olmasına gətirib çıxarmışdır. Nəticədə torpaqların quraqlaşması, bitki örtüyünün zəif inkişafı və məhsuldarlığı az olan yarımsəhra formasiyalarının yaranmasına səbəb olmuşdur. Buna görə də ərazidə su çatışmazlığının aradan qaldırılması səhralaşmaya qarşı görüləcək ilkin tədbirlərdən olmalıdır.

Regionun su ilə təminatının artırılması üçün suvarma sistemlərinin təkmilləşdirilməsi, böyük su tutarların yaradılması və buraya ətraf ərazilərdən böyük ölçülü boru kəmərlərinin çəkilməsi faydalı olardı. Həmçinin ərazidə kollektor-drenaj sistemləri yaradılmaqla çirklənmiş torpaqların yuyulmasını təmin etməklə bərpa etmək mümkün olar. Sadalanan üsullar, həmçinin suvarma meliorasiya ilə səhralaşmaya qarşı mübarizə aparmaq yüksək vəsait, əmək və su resursu tələb etdiyi üçün kompleks işlər görülməsini böyük ölçüdə çətinləşdirir. Lakin, səhralaşmanın intensivləşməsinin yarada biləcəyi fəsadlar nəzərə alındıqda bu üsulların tətbiqi problemin həllində əsaslı şəkildə rol oynaya bilər. Azərbaycan Meliorasiya və Su təsərrüfatı ASC tərəfindən verilən məlumatlara görə hazırda Şamaxı və Qobustan ərazisində 8500 hektar əkin sahələri suvarılmaqdadır. Ərazinin su təminatının yaxşılaşdırılması üçün Abşeron magistral kanalında təmizləmə işləri aparılmış, Vəlvələçay hidroqovşağı vasitəsilə Bakı və Abşeron yarımadası ərazisinin içməli su ilə təminatı genişləndirilmişdir.

## Ədəbiyyat

1. Məmmədov, M., İmanov, F. (2002). Azərbaycanın hidroqrafiyası. Bakı. 266 s.
2. Şirinov, N. (1979). Prirodnıye uslovia i resursı Abşeronskovo poluostrova. Bakı. 180 s.
3. Səmədov, S., Əhmədova, X. (2000). Abşeron yarımadasının hidrogeoekoloji şəraitinə dair. Bakı Universitetinin xəbərləri. Təbiət elmləri seriyası №4. s.136-142.
4. www.eco.gov.az
5. Zeynalov, Ə. (1968). Qobustan torpaqları. Bakı. 49 s.
6. Yeni Azərbaycan Qəzeti. (2006). Bakı. 29 aprel.

Göndərildi: 19.02.2023 Qəbul edildi: 24.04.2023

DOI: https://doi.org/10.36719/2789-6919/21/126-129

**Xoşqədəm Əliyeva**
"Odlar Yurdu" Universiteti
magistrant
eliyeva.x.25@gmail.com

# "BİOLOJİ MƏHSULUN DONDURULARAQ QURUDULMASI"

## Xülasə

Metod, qurutmadan əvvəl bioloji məhsulun məhluluna qoruyucu bir mühitin daxil edilməsini, sonra yaranan qarışığın dondurulmasını və vakuumla qurudulmasını əhatə edir. Liyofilizasiyadan əvvəl biopreparat məhlulu əlavə stabilləşdirici komponentlər daxil edilmədən təmizlənir və konsentrasiya edilir. Liyofilizasiyadan əvvəl bioloji məhsulun məhluluna stabilizatorların, qlisin və mannitol qarışığının əlavə edilir. Bu, liofilizasiya mərhələsində bioloji aktivliyin azalmasına və həcmli tablet əmələ gəlməsinə imkan verir. Qurutmadan əvvəl bioloji məhsulun (protein və ya virus) sınaq nümunələri qoruyucu mühit və ya doldurucu maddənin fərqli konsentrasiyası olan bir qoruyucu mühitlə hazırlanır, ardınca termal və ya rentgen faza analizi və ya sınaq liyofilizasiyası aparılır. Doldurucu maddə olaraq, natrium xlorid və ya kalium xlorid və ya glisin istifadə olunur.

***Açar sözlər:*** *liyofilizasiya, doldurucu maddə, qlisin, mannitol qarışığı, dehidrasiya*

**Khoshgadam Aliyeva**
Odlar Yurdu" University
master student
eliyeva.x.25@gmail.com

# "Freeze drying of biological product"

## Abstract

The method involves adding a protective medium to a solution of the biological product before drying, then freezing and vacuum drying the resulting mixture. Before lyophilization, the biopreparation solution is purified and concentrated without adding additional stabilizing components. Before lyophilization, a mixture of stabilizers, glycine and mannitol is added to the solution of the biological product. This allows the reduction of biological activity during the lyophilization stage and the formation of bulky tablets. before drying, test samples of a biological product (protein or virus) are prepared with a protective medium or a protective medium with a different concentration of filler, followed by thermal or X-ray phase analysis or test lyophilization. As a filler, sodium chloride or potassium chloride or glycine is used.

***Key words:*** *lyophilization, filler, glycine, mannitol mixture, dehydration.*

## Giriş

